MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# SÖHRAB TAHİR

# SEÇİLMİŞ ƏSƏRLƏRİ



235806

SÖHRAB TAHİR AZƏRAZƏR

Ш6(5)
A 99

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**Söhrab Tahir.** Həyat şirindir" (Bakı, Azərnəşr, 1961) və "**Söhrab Tahir.** Ataş bulağı" (Bakı, Yazıçı, 1977) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Ön sözün müəllifi: **Sabir Rüstəmxanlı**

**894.3611 - dc 21**
**AZE**
**Söhrab Tahir AzərAzər. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, 272 səh.

Çağdaş Cənubi Azərbaycan şerinin bayraqdarlarından biri olan Söhrab Tahir dünyanın döyüşkən, inqilabi poeziyasının, ömrü mühacirətdə keçmiş qüdrətli nümayəndələri sırasında dayanır. Güneyli-Quzeyli Azərbaycanın ədəbi ənənələrinin müştərək özülü üzərində yüksələn şairin yaradıcılığı poetik mübarizə yolu kimi doğma vətəndən didərgin düşmüş yüz minlərlə soydaşın acı, nisgilli ömürlüyüdür.

Söhrab Tahirin seçilmiş əsərlərindən ibarət təqdim olunan toplusunda şairin vətəndaşlıq ruhlu, ictimai ruhlu şeirləri cəmlənmişdir. Güney Azərbaycanın taleyindən doğan mübariz əhvallı həmin şeirlərlə yanaşı müxtəlif mövzulu poetik parçaların da yer aldığı bu kitabda müəllifin ikili taleyindən gələn bir mövzu əlvanlığı, sevinclə göz yaşının, görüşlə ayrılığın, xoşbəxtliklə ömürlük dərdin sıx-sıx qovuşması, bir-birini izləməsi və tamamlaması var.

**ISBN 9952-418-55-5**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## AZADLIĞA İÇİLƏN AND

Cənubi Azərbaycanla sərhədin lap yaxınlığında – Lerikdə, rayon ziyalılarının toplaşdığı bir məclisdə Söhrab Tahir şeir oxuyurdu. Başını qar almış dağların, Qızyurdu, Kömürgöy zirvələrinin o üzü Savalan idi; yollar bağlı olmasaydı ziyarətinə gedəcəkdik. Lakin duman elə qatılaşmışdı ki, on addım o yanı seçmək olmurdu. Bu dəfə Zöhrab Tahirin ilk gənclik illərinə şahidlik etmiş "dağlar gözəli" Savalanı, heç olmazsa, uzaqdan-uzağa görmək də bizə qismət olmadı.

Sərhəddə – ömürlük dərdi və faciəsinə, uşaqlıq dünyasının o taylı xatirələrinə, İranda qalmış qardaşlarının, qohumlarının ürək havasına yaxınlaşdıqca Söhrab Tahir qəmlənməkdənsə, sanki taleyin acığına, daha da şən, nikbin, vüqarlı görünürdü. Vətənin faciəsini qırx ildən bəri öz şəxsi taleyində, anasız, atasız, qardaşsız illərində, hamıdan gizli ürəyinə axıdılan göz yaşlarında (bir dəfə Söhrab Tahir söhbət eləmişdi ki, özümü nə qədər tox tutub göz yaşımı gizləsəm də, yuxuda tez-tez ağlayıram və səhər durub balışımı yaş görürəm) sərt, döyüşkən, ağrılı, həsrətli və ümidli poeziyasında yaşadan dostumuzu, qardaşımızı, "Söhrab əmi"mizi mən heç vaxt bu qədər güclü, dözümlü görməmişdim.

Astarada, ata yurdunun, doğma ocağının cəmi yüz-yüz əlli addımlığında, "dövlət körpüsünün" bu qulağında susub dayananda Söhrab Tahirə baxmağa ürək eləmirdim. Bu qədər acizliyimin, köməksizliyimin dərdi məni bükürdü, elə bil mən də nə isə bir günahın sahibi idim, elə bilirdim bu boyda faciəsi olan bir millətin övladları başlarına papaq qoyub şax-şax gəzməməlidirlər; ya bunu bacarmazlar, ya da buna haqları yoxdur. Lakin bu boyda yükün altından yenə də Söhrab Tahir dikəldi. Astara çayının o tayındakı evdə yaşayan dayısından, uşaqlıq xatirələrindən danışmağa başladı və mən başa düşdüm ki, faciənin içində də solmayan, sınıxmayan dözümü, qüdrəti ona həyat özü verib, başa düşdüm ki, dərdə uymaq – ona qanad vermək, onu üstünə qaldırmaq, onu özünə güldürməkdir; ən çətin anlarda da gərək sən dərddən ucada dayanasan, ona gülməyi bacarasan və xalqı ayağa qaldırasan, tarixi tələsdirəsən ki, öz səhvini tez düzəltsin. Söhrab Tahirin bütün yaradıcılığı bu mərama xidmət edir və üzü Savalana oxuduğu şeir də həmin məram şeirlərindən idi:

Qurban sənin dam uçuran yağışına, doluna,
Qurban sənin dağ yolunu səngər etmiş oğluna,
Gir qoluma, daha çıxaq böyük dünya yoluna,
Dayan, dayan, ey əcdadım, qoy mən girim qoluna,
Savalanım, Savalan!..

Bu şeirdə nə isə duaya, anda bənzəyən bir güc, bir sehr var idi. Vətəninin azadlığını görmək, yenidən döyüş səngərinə girmək, Cənubi Azərbaycanın gözəl günləri uğrunda mübarizə meydanına atılmaq ümidi ilə "həmişəbahar" olan, saçına dən düşən şair salonda oturanları da, kürsünü də, özünü də unutmuşdu, dumanlı dağların üstündən üzünü Savalana tutub ömrünün ən müqəddəs andını içirdi:

Dərələrin gül xırmanı, gül içində bataram,
Qayaların sərin kölgə, kölgələnib yataram,
Güllə edib daşlarını sapandımla ataram,
Sənin zirvən azadlıqdır, o zirvənə çataram.
Savalanım, Savalan!..

Cənubdan ayrı düşdüyü illər ərzində, Şimallı qardaşlarının arasında heç vaxt taleyindən gileylənməyən, hamıdan artıq deyib-gülən, hamıdan gözütox yaşayan, hamıdan şux gəzən, dost məclislərinin başında əyləşən, təbiət seyrinə birinci atlanan, yolda-gəzintidə özündən on beş-iyirmi yaş cavanlarla arada onsuz da zahirən hiss olunmayan fərqi çox asanca silən, dənizdə hamımızdan uzağa üzən, dağda hamımızdan yüksəyə qalxan, özünü heç vaxt qərib hiss eləməyən "qərib" qardaşımız Savalanla üz-üzə dayananda özünü gizləyə bilməmişdi, dərdi açılmışdı. Və mən bu anlarda birdən-birə hiss elədim ki, bu qırx ildə Söhrab "əmi" Savalansız nələr çəkib!.. Hər dəfə onun haqqında düşünəndə, deyirəm bəlkə Söhrab Tahir kimilər bizim xoşbəxtliyimizdir. Görünür, biz aradan Araz sərhədini götürənədək, yurdumuzun bütövlüyünə yetənədək, ondan da əvvəl, öz ürəklərimizdəki xırda yerliçilik, qohumbazlıq, əyalət, rayon, zona, kənd ayrılıqlarına son qoyanadək hələ neçə-neçə Mirzə İbrahimovlar, Söhrab Tahirlər, Balaş Azəroğlular, Mədinə Gülgünlər, Əli Tudələr, Həkimə Billurilər, Səməd Behrəngilər, Mərziyə xanımlar... qurban getməliymişlər; qohum-qardaşdan, doğma diyardan ayrı düşüb, otuz il, qırx il "mühacir" pasportu gəzdirməliymişlər, ana üzü görmək, ana səsi eşitmək həsrətiylə yaşamalıymışlar ki, onların sətirlərindəki, misralarındakı haray, dərd, göz yaşı iki əsrə yaxın bir ayrılığa dözən qardaşların mürgülü ruhunu oyatsın. Arazın sahilində yaşaya-yaşaya əlli addım aralıda, o üzdəki qardaşına hələ də "iranlı", "həmşəri" deyənlərə, öz taleyi ilə barışanlara, fikri-zikri ancaq öz şəxsi rahatlığı üçün əlləşməkdə olanlara baxanda fikirləşirsən ki, burda Mirzə Cəlil demiş, "çox maarif topu" lazımdır, hələ belələrinin ürəyində dönə-dönə Söhrab Tahir şerinin şimşəkləri çaxmalıdır:

Azad qardaşım var, onunla xoşam,
Mən gərək sahili sahilə qoşam,
İki bölünməkdən elə qorxmuşam
Çöpü də ikiyə bölmərəm daha!..

Şerimizin Cənubi Azərbaycan qolu barədə düşünəndə ilk əvvəl bu zəngin xəzinənin bizim ruhumuzu, mənəvi aləmimizi, vətəndaşlıq hisslərimizi nə qədər və nələrlə zənginləşdirdiyini təsəvvür etməyə çalışıram. Görürəm ki, yuxarıda adları çəkilən və Cənubdakı hadisələrin şahidi olan qələm sahibləri olmasaydı, Quzey Azərbaycanda onların səsinə səs verən Səməd Vurğunun,

Süleyman Rüstəmin, Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın Cənub şeirləri yaranmasaydı – indiki nəslin vətəndaşlıq tərbiyəsi necə də yarımçıq olardı.

Fikirləşirəm və Söhrab Tahirin minlərlə azərbaycanlı dilində əzbər olan misralarının açdığı böyük mənəvi səngərdə qazanılan qələbələrin əzəmətini, dəyərini təsəvvürə gətirməyə çalışıram:

Mənim qollarımı iynə-sap edin
Tikin Astaranı biri-birinə,
Çayları, yolları iynə-sap edin,
Tikin Culfaları biri-birinə!..

Cənubi Azərbaycanda Milli Hökumət qurulandan sonra inqilab rəhbəri S.C.Pişəvəri bir dəstə gənclə birlikdə Söhrab Tahiri SSRİ-yə, hərbi məktəbdə oxumağa göndərmişdi; hələ çox cavan olsa da, Pişəvərinin yanındakı işi ilə Söhrab inqilaba, xalqın azadlığı uğrundakı mübarizəyə sədaqətini göstərmişdi. O, hərbi sərkərdə olmaq, ömrünü yurdunun müdafiəsinə, qazanılmış milli müstəqilliyin qorunmasına sərf etmək istəyirdi. Lakin imperialistlərin silahlandırdığı irtica Azərbaycan Milli Hökuməti ilə birlikdə milyonlarla Söhrab kimilərin arzularını da boğdu. Söhrab hərbi sərkərdə olmaq arzusuna yetməsə də, tale ona müasir Cənubi Azərbaycan poeziyasının qüdrətli yaradıcılarından, sərkərdə və bayraqdarlarından biri olmağı qismət etdi; hərbi geyim geyməsə də şerin ağır səngərini, xalqının milli müstəqilliyi uğrunda sözlə, əqidə ilə mübarizə səngərini o bir gün də tərk etmədi... Söhrab Tahir poetik mübarizə yolunu Cənubi Azərbaycan xalqının taleyinə, onun vətəndən didərgin düşmüş yüz minlərlə övladının acı, nisgilli ömrünə doğru yönəldir:

Nə görmüşəm, gördüklərim heç oldu,
Ömrüm mənə üç ömürlük köç oldu,
Yarım milyon ölü gördüm, yarımcan,
İki milyon sürgün gəldi dalımca.
Milyon-milyon uşaq gördüm yalıncaq.
Verdi neçə can çəkənə canım can,
Son nəfəsim, son qərarım qalınca!
Nə görmüşəm sənlə hələ mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm!..

"Nə görmüşəm hələ mən" şairin balaca bir ömürlüyü, tərcümeyi-halıdır. Şeirlərinin birində:

Mən iki ölkənin vətəndaşıyam,
İki taleyimi gərək yaşayam.

– deyən Söhrab Tahirin bütün yaradıcılığı bu arzunun reallaşdırılmasına sərf olunub. Əsərlərində də müəllifin ikili taleyindən gələn bir mövzu əlvanlığı,



sevinclə göz yaşının, görüşlə ayrılığın, xoşbəxtliklə ömürlük dərdin sıx-sıx qovuşması, bir-birini izləməsi və tamamlaması var...

Təqdim olunan poetik toplusunu şair xüsusi bir səliqə ilə düzüb. Şeirlərin hər biri vətəndaşlıq ruhu, ictimai ruhu ilə adamı yerindən oynadır. Söhrab Tahirin şair – vətəndaş bənzərsizliyini, böyüklüyünü göstərən şeirlər çoxdur. Mənə ən çox xoş gələn müəllifin bu kitabda da öz üslubuna, deyim tərzinə sadiq qalması, oxucu ilə görüşə mövzusu və vətəndaşlıq pafosu ilə, doğrudan da, müasir şerimizdə seçilən, xüsusi bir mövqedə dayanan gözəl əsərlərlə gəlməsindədir.

Mənə elə gəlir ki, Söhrab Tahir şerimizin az təhlil olunmuş, az öyrənilmiş, layiqli qiymətini hələ almamış nümayəndələrindəndir. Bu kitab tənqidçilərə, müasir şerimizin araşdırıcılarına söz demək, tədqiqat əsərləri yazmaq imkanı verməklə yanaşı, Şimali Azərbaycan və Cənubi Azərbaycan ədəbi ənənələrinin müştərək özülü üzərində ucalan Söhrab Tahir yaradıcılığını bütün ləyaqəti ilə göstərə bilir.

Kitabda, doğrudan da, iki ölkənin taleyi, iki dünyanın havası var; lakin bu iki ümman bir ürəkdə baş-başa gəlir, qovuşub birləşir. Bu, Söhrab Tahir poeziyasına təkcə çağdaş Azərbaycan şerində deyil, dünyanın döyüşkən, inqilabi poeziyasının qüdrətli nümayəndələrindən, ömrü mühacirətdə keçmiş Nazim Hikmət və Pablo Neruda, Aleks la Quma və Mahmud Dərviş yaradıcılığı ilə bir sırada yer qazandırır. Təəssüf ki, biz, Söhrab Tahirin yaradıcılığını məhz bu baxımdan, təkcə Azərbaycan xalqının taleyini, dərdini yox, öz azadlığı, müstəqilliyi uğrunda mübarizə aparan bütün xalqların, xüsusən də Şərq xalqlarının ürək tərcümanı olan bir poeziya kimi araşdırıb qiymətləndirə və ölkə miqyasında, ölkəmizin sərhədlərindən kənarda təbliğ edə bilməmişik... Söhrab Tahir yaradıcılığı – xalqın mənəvi, ədəbi, ruhi birliyini yaşadan ən güclü qüvvələrdən, aramızdakı ən möhtəşəm körpülərdən biridir.

Bizim hamımızın zarafatla "əmi" adlandırdığımız böyük qardaşımız yaradıcılıqda yorğunluğun, nəfəs dərmanın nə olduğunu bilmir. Onun balaca iş otağının qapısını nə vaxt döymüşəmsə, qarşıma gümrah çıxıb, lakin işləməkdən gözlərinə qan dolur, barmaqları qabar bağlayır. Köhnə ərəb qrafikası ilə, stenoqram kimi yığcam xətt ilə yazılan dəftərləri həmişə təzə şeirləri, xatirələri, yol qeydləri, roman, povest və hekayələrinin yeni epizodları ilə dolu olur.

Tale Söhrab Tahirdən çox şey oğurlasa da onun istedadını, ilhamını və ən başlıcası isə Fərhad biləklərini, gecə-gündüz kirpik çalmadan yazmaq qabiliyyətini əlindən ala bilməyib. O da taledən qisasını bu cür alır. Şeri və nəsri ilə başı müsibətlər çəkmiş bir xalqın mənəviyyat və mübarizə tarixini yaratmaq üçün əlinə düşən xırda imkanları da itirmir. Yazır: evdə, işdə, qatarda, təyyarədə, mehmanxana dəhlizlərində, dost görüşünə gedəndə, Araz qırağında və üzü Savalana dayananda... Əgər Söhrab Tahirin arzusunu yerinə yetirmək olsaydı, onun misraları Arazı başabaş sahil-sahilə tikməyə bəs edərdi.

Söhrab Tahir bir neçə nəsr kitabı da buraxdırıb. Romanı, hekayələri var. Hiss edirəm ki, Cənubi Azərbaycan xalqının həyatını epik lövhələrlə

göstərmək onu daha çox çəkir. Onlarla poemasında, "Səttarxan" dastanında yaradılmış parlaq həyat və mübarizə mənzərələri də ürəyini sakitləşdirə bilmir...

Bizim nəsil Söhrab Tahiri həmişə xeyirxah, nəcib, sözübütöv, cəfakeş, mərd və mübariz, xırda hisslərdən uzaq görmüşdür. Bizim gözümüzdə o, inqilabçı, döyüşkən Cənubi Azərbaycan xalqının timsalıdır. Uca boyu, iti baxışları, şimşək gülüşləri ilə Söhrab Tahir Cənubi Azərbaycan torpağının bir parçasıdır. Güney Azərbaycanında sərhədsiz, maneəsiz addımlayan, Savalandan qopan bir qaya kimi gəzən, bütün qapıları ərklə açan, bütün evlərdə intizarla gözlənilən, varlığında işıq, inam, qələbə gəzdirən özü demiş, AzərAzər babadır!..

Salam! Yanan qəlbim,
Oyanan yurdum!
Salam! Silahını hələ saxlayan
Ağsaqqal,
Ağbirçək,
Fədayi ordum!

Söhrab qızıl ürəyini və ürək qanı ilə yazılmış şeirlərini bayrağa döndərib bu fədayi ordusunun ön cərgələrində addımlayır...

And içmişəm
Bir arzuma
Çatım axır öləndə.
Parçalanmış millətləri
Yığım Culfa, Mərəndə.
Bir eləyim ayrıları,
Birə dönüm bir mən də.
Qoy bir olsun dünya özü
Bu birliyi biləndə
Mən də gülüm
İki Culfa
İki sahil güləndə
Rüsxət versə vətənim!

Bu and bütün oxucuların andı kimi səslənir!..

***Sabir Rüstəmxanlı***



## VƏTƏN

Mən vətən deyirəm, gözlərim dolur,
Məgər sən göz yaşı olmusan, Vətən?!
Əriyib, elə bil bir damcı olub
Qəmli gözlərimə dolmusan, Vətən!

Mən vətən deyirəm, dinir arzular,
Ayağa qalxıram vətən deyəndə!
Axı körpəlikdən bu şanlı diyar
Döyüş himni kimi yaşayır məndə!

Mən vətən deyirəm, yanır dil-dodaq,
Vətən də ağızda alovlanarmış!
Yox, hamı bilir ki, sən məndə ancaq
Düyünlü yumruqsan, qəzəbli baxış!

Səni mən duyuram, üzümdə gəzən
Anamın yuxulu öpüşlərində
Səni mən tapıram, tapıram bəzən
Azad qardaşımın gülüşlərində.

Mən vətən deyirəm, tutulur dilim,
Bəs sənin dilini kim aldı, Vətən?!
Nə qədər mən varam, bu dünya bilir,
Sənin dilsizliyin mahaldı, Vətən!

Bir vaxt əsgər idin, döyüşkən, igid,
İndi şeir olursan kitablarda sən.
Bəs haçan döyüşdən, vuruşdan keçib
Böyük azadlığa çevriləcəksən!?

*1961*

## GƏLƏCƏYƏM MƏN

Deyirlər, hər axşam qürub düşəndə
Məni yada salıb sən ağlayırsan.
Könlün eşq evində qərib düşəndə
Anamın boynunu qucaqlayırsan.

Anam dilə tutur səni hər gecə,
Hörür saçlarını, silir gözünü.
Onun ana qəlbi od əllədikcə
Səndən yaşmaqlayır pörtmüş üzünü.

Bəli, o gizlədir dərdini səndən,
Məni itkin bilir hələ öz anam.
Sənə söhbət edib dedikcə məndən
Dağların başında qaralır axşam.

Sən qara gözünü göyə dikirsən,
Qaralır bir anda geniş üfüqlər.
Köyrəlib ürəkdən bir ah çəkirsən,
Ahından od tutub yanır şəfəqlər.

Bizi ayrı salan qara buludlar
Gözünün önündən sürünüb keçir.
Xəyalın gəzdikcə diyarbədiyar
Xəyalım gözünə görünüb keçir.

Sonra incilənir kirpiyində yaş,
Bir cüt ulduz qonur sanki gözünə.
Qəlbində qaynayan o hiss, o təlaş
Boz bir kölgə çəkir əsmər üzünə.

Gözün dumanlanır həsrət içində,
Hər yana elə bil tül pərdə düşür.
Məni düşündükcə möhnət içində
Ürəyin yenə də min dərdə düşür.

Bu zaman görürsən: dağın başından
Mənim kəhər atım sürətlə enir.
Tüfəngim düşməni götürür nişan,
Qılıncım dörd yana qüvvətlə enir.



Qaranlıq doğranıb lay, lay tökülür,
Buludlar qarışır bir yumaq kimi.
Səsimdən zülmətli göylər sökülür,
Ulduzlar parlayır çılçıraq kimi.

Sən silib gözünü xəyal içində
Birdən çağırırsan məni uzaqdan,
Anam həyəcanlı bir hal içində
Sıçrayıb bir anda çıxır otaqdan.

Lakin nə mən varam, nə də işıq var,
Yenə də qaranlıq sallanır göydən.
Yenə də aldadır səni xəyallar,
Utancaq sifətin pörtür yenidən,

Sən hələ bilmirsən, nişanlın sağdır,
Əridir bu şübhə, bu xiffət səni.
Məndən ölüm sözü hələ uzaqdır,
Üzməsin, sevgilim, bu möhnət səni!

Kim deyir ölmüşəm? Hələ sağam mən!
Düşməni od kimi yaxıb keçirəm!
Səngərdən səngərə şığıyıb bəzən
Odlu şimşək kimi çaxıb keçirəm!

Məni qarı düşmən susdura bilməz,
Mən ana vətənin ürəyindəyəm!
Mənim sorağıma ölüm də gəlməz,
Çünki mən azadlıq diləyindəyəm!

Sil qara gözünü zərif əlinlə,
Ağlama, hər axşam yada sal məni.
Səslə nişanlını şirin dilinlə,
Yaşatsın bu istək, bu vüsal məni!

Gələrəm, yolumu gözlə hər səhər,
Mən sənə azadlıq gətirim gərək!
Sabah qızaranda geniş üfüqlər
Əlimi əlinə yetirim gərək!

## MƏN OD OĞLU AZƏRİYƏM

Mən od oğlu azəriyəm!
Azərbaycan övladıyam!
Yarasından qan süzülən,
Arzusundan alov qopan
Bir torpağın
Öz oduyam, öz adıyam.

Məni anam döyüşlərin qucağında,
Alov çəkən bir ölkənin
Torpağında doğub dünən,
Sifətimə su çiləyib lil Arazdan,
Beşiyimə baş əyərək
Deyib qorun hər şaxtadan,
Hər ayazdan.

Anam mənə qılınc verib
Öz xalqımın qəzəbindən.
Axıb onun göz yaşları
Gilə-gilə, noğul-noğul!

Deyib vuruş, deyib güləş,
Basılsan da, ölsən də sən!
Mən yenidən doğacağam
Səni oğul!

## QARDAŞIM!

*Məmməd Araza*

Sən məni bir axşam qonaq saxladın,
Yaramı yaranla yuyub bağladın.
Mənim gözlərimlə bəzən ağladın
Qoymadın gözlərim dola, qardaşım!



Toyuna gəlmişəm, hər yan xonçadır,
Boş əlim bükülmüş qanlı qonçadır.
Bircə ürəyim var, parça-parçadır,
O sənə çatacaq, ala, qardaşım!

Ürəyim şüşədir, ürəyim həlim,
Kim onu ikiyə böldü, nə bilim,
Al, o çilik-çilik, o dilim-dilim,
Onu bir-birinə cala, qardaşım!

Dərələr keçərəm, dağlar keçərəm,
Özümə alovdan paltar biçərəm,
Zülməti əridib sel-sel içərəm,
Qoymaram el darda qala, qardaşım!

Mən Söhrab Tahirəm, nə lazım öyüd,
Bircə oğlum qalır, onu sən böyüt.
Gedirəm vuruşa, silahım ümid...
Qalmayım qardaşdan dala, qardaşım!

*1963*

## ƏL SAXLA

*Şaha*

Sənə bu torpaqda kim haqq verib, kim,
Ey vicdan oğrusu, həyat oğrusu!
Sənin nəqşəni də cırmaq istədim,
Heyfim ruznaməyə gəldi doğrusu.

Yurdumun dilində qanlı nəğmələr,
Yurdum parça-parça, sökük-sökükdür.
Məni bir kiçik xalq sansan da əgər, –
Vüqarım, tarixim səndən böyükdür.

Gücü yox, vicdanı, şərəfi ölçün,
Onda zor gələcək bu millət yəqin!

Sən bir gün ömrünü uzatmaq üçün
Bir xalqı ölümə vermək istədin!

Döyüşə çıxmışam o gündən bəri,
Fil gücü, sel gücü gəlsin dizimə!
Bir yol ömrüm varsa, o bir yol ömrü
Min yol qurban verim mən Təbrizimə!

*1962*

## CAVAB VERSİN TARİX MƏNƏ

Qoy tanısın məni hamı.
Bir əlimdə çəngələyib
Üç inqilab meydanında
Pay aldığım beş yaranı,
Bir əlimdə vətənimin
Qəzəbindən, nifrətindən seyqəl almış
Qılıncımı saxlayıram!
Ürəyimə, düşüncəmə
Uzadılan qara əli
Biləkləyib haqlayıram!
Sinə gərib tanka, topa
Arzulardan at minirəm çapa-çapa
Uçururam zindanları,
Çağırıram insanlığın ucbatından
Məhbus olmuş insanları!
Qırx altıda vuruşmadım,
Qoymadılar...
Əlim bağlı, könlüm dağlı...
Dedilər ki, dünya təzə
Can qurtarmış vuruşlardan, hələ dayan!
Qırx altıda vuruşmadım
İndi, indi vuruşuram!
Öz səhvimin cavabını
Heç kəsdən yox,
Mən özümdən soruşuram.



Cavab versin tarix mənə!
Qırx atlının vuruşunu
Mən borcluyam
Keçmişini gələcəyə
Bələkləmiş bir vətənə!
Cavab versin tarix mənə!
Azadlığım hanı mənim?!
Azadlığın uğrundakı
Şəhidlərin canı mənim,
Qanı mənim,
Azadlığa qurban olmuş
Azadlığım hanı mənim?!
Dözməyirəm zülmə daha,
Mən qarnımın çörəyini dəyişmişəm bir silaha
Gülləsini gözlərimin giləsindən doldurmuşam,
Bir millətin vuruşlarda parçalanmış,
Qana batmış dəlik-dəlik bayrağını
Başım üstə qaldırmışam.

## ZİRVƏLƏR

Sizə əlim deyil, ümidim çatır,
Zirvələr ucadır biri-birindən.
İnsan zirvələrə doğru can atır,
O yüksəliş üçün qopur yerindən.

İnsan qanadlanır yüksəliş deyə,
Sınayır bir daha öz qüvvəsini.
Bəs onda zirvədə olanlar niyə
Axtarır alçaqda öz zirvəsini?

Mən uçdum ulduzlar göydə susanda,
Odlu buludları su kimi içdim.
Həyatda qanadsız bir quş olsam da,
Özümə ən uca bir zirvə seçdim!

Uçaram, uçaram mən birnəfəsə,
Aşağı enməyə can atmaram da.
Zirvəyə çatmamış gücüm tükənsə
Zirvəni özümçün alçaltmaram da.

Qoy məni dostlarım qınamasın çox,
Küçədə düz yoldan çıxaram hərdən.
Ayağım altına baxmayıram, yox!
Uca zirvələrə baxıb gedirəm.

*1964*

## ƏLİNİ VER MƏNƏ

Bir kor yol axtarır, yolundan çəkil,
Gör necə vüqarla tutmuş özünü.
O öz çəliyilə yolları deyil,
Axtarır bəlkə də itmiş gözünü.

Çətindi görməyib gözdən bu sayaq
Sözlə tanıyasan adamları sən.
Çətindi kor olub, özünə ancaq
Səslərdən, sözlərdən göz düzəldəsən.

Mən öz gözlərimi kora borcluyam,
Gərək xoşbaxtlığı bölsün adamlar.
Bir koru görəndə bilir ki, adam
Qaşları altında iki gözü var.

Əlini ver mənə, keçək yenidən
Səngər-səngər olmuş bu yer üzünü.
Bilirəm tapırsan, bilirəm, hərdən
Yaxşı ürəklərdə sən öz gözünü.

Bir səs qulağımda, başımda gəzər,
O, bir kor adamın çəlik səsidir.
Gözümdə işıqsız gəzən o gözlər
Bir hərbin işıqlı xatirəsidir.

*1964*



235806

## SƏSLƏYİRƏM SƏNİ, ANA

Saçlarını dara, ana,
Ağ gümüşü saclarını
Hörük-hörük, salxım-salxım.
Ört sinəni əllərinlə.
Yanıb yüz il dağda sinən.
Qan hayqıran bir zamanın
Nəfəsilə qurum-qurum
Qurumuşdur taxta sinən.
Mənim aslan anam hanı?
Mənim ceyran anam hanı?
Həm cüssəli, həm qüssəli.
Pis gün düşsə, o qoymasın
Bizi ayrı, əyri yola.
O, atamın qırx beş nömrə
başmağına pambıq təpib
Hər gün geysin ayağına,
Sürüm-sürüm o sürünsün
Qürbət elin yollarında!
Səsləyirəm səni ana,
Həm yaxından, həm uzaqdan!
Səsləyirəm, səsləyirəm,
Qapıları dəmir, polad çubuqlarla
Tac qübbəli bir dustaqdan,
Saçlarını dara ana,
Ağ gümüşü saçlarını
Hörük-hörük, salxım-salxım!
Sən ağbirçək, nurlu, göyçək,
Nəfəsi də çiçək-çiçək bir anasan!
Bu nə qüssə, bu nə qəmdir?
Bu nə haldır, nə görkəmdir?
Son oğlun ki hələ sağdır...
Günəş kimi işıq saçıb,
Güllər kimi açıb, açıb,
Quşlar kimi uçub-uçub

Ağ günlərdən tac hörərəm
Ağ başına ana sənin!
Mən qoymaram bu dərdlərdən
Dağ ürəyin yana sənin!
Ana sənin!

## QANLI DƏRS

*Tehranda müəllimlərin nümayişi güllərə tutulmuşdur*

Dünən sən hayqırdın meydan içində
Sənə nişan alıb, güllə atdılar.
Şığıdı üstünə al-qan içində,
Qılıncı, baxışı qanlı atlılar!

Vəzirlər amansız, silahlar odlu,
Güllədən döşünün sümüyü yandı.
Əlində tutduğun o sarı cildli
Tarix kitabı da qana boyandı!

Sən getdin ilk dəfə haqq söz deməyə,
Bilmədin söz demək vaxtı keçibdir.
Bu gün "həyat" deyə, "azadlıq" deyə
Yurdumuz döyüşkən bir yol seçibdir.

Görmədin, döyüşdü, dəyişdi ölkə,
Zəncir çeynəməkdən qudurdu zaman.
Görmədin, gözlərin kor oldu bəlkə
Qanun kitabını varaqlamaqdan.

Xalqlar dönəcəkdir dəmir axına,
Yenə öz haqqını alacaq vətən!
Sən də azad girib dərs otağına
Bu qanlı tarixdən dərs deyəcəksən!



## MƏNİM

Mən ki, şən məclisdə kədərlənirəm,
Bal kimi sözdən də zəhərlənirəm,
Hər toyda-düyündə qəhərlənirəm,
Şənlik olmamışdır qismətim mənim!

Əzəldən ürəyim elə bağlıdır,
Vətən həsrətindən sinəm dağlıdır,
Kimi sevindirir, kimi ağladır
Bu iki sifətli möhnətim mənim!

Məni görməmişlər nə gülər, nə şən,
Döyüşlər, vuruşlar olmuşdur peşəm,
Mən də öz yurduma cənnət demişəm,
Xaraba qalıbdır cənnətim mənim!

Azadlıq bayrağı cərgəbəcərgə
Çıxdı azadlığa çox el, çox ölkə,
O, tək məndən qaçır, bilmərəm, bəlkə
Xoşagəlim deyil sifətim mənim!

Gözəldir, yaxşıdır bu eldə hər yan,
Fəqət unutmayır yurdunu insan,
Bir cüt göz yaşıyla bitir hər zaman
Vətəndən başlanan söhbətim mənim!

Gəlmədim dostlara mehman olmağa,
Vətən, Vətən! – deyə giryan olmağa,
Çatdı döyüşlərdə qurban olmağa,
Şərəflə ölməyə növbətim məni.

## EY ŞƏRQ

*Mirzə Fətəli Axundzadəyə*

Neçə ədib kimi ədibim sən də
Sabahı hamıdan erkən görmüsən.
Sən o vaxt o məzlum ana vətəndə
Bir yeni döyüşkən vətən görmüsən.

"Can qurban", "yar qurban" şerindən uzaq,
Həzin rübablara biganə qaldın.
Şirin xəyallarla yaşadın, ancaq
Acı həqiqətlər şairi oldun.

Şərq səni vəsf edir, bugünkü gündə,
Tarixin döşünə yeni yol salır.
Vurduğun qamçının izi bu gün də
Zülmkar şahlığın üzündə qalır!

İran da vuruşur hələ silahla,
Dəyişir bu yurdun köhnə dövranı,
"Aldanmış ulduzla", aldadan şahla
Aldatmaq olmayır daha İranı.

Təbrizdə heykəlin yoxdur, bəs nədən,
Ondanmı Təbrizin üzü gülməyir?!
Sən elə böyüksən, elə böyüksən
Zaman heykəlini tökə bilməyir!

## SAZ

Aşıq, mizrabını asta vur bir az,
Qırılar sazının telləri bir-bir.
Üstündə ötdüyün o sədəfli saz
Dəmirdən, poladdan yonulub, nədir?

Onun nəğmələnən telləri sim-sim
Üstündə pərdələr qayım çəkilib.
Yox, onlar Arazım, Kürümdür mənim
Sədəfin üstündə tarım çəkilib.

Çaldın yollarımı yollar arası,
Çaldın çaylarımı, çaylarımda səs.
Yoxsa ki, bir quru məftil parçası
Bu qədər ağlamaz, bu qədər gülməz.



Araz insan səsi eşidən zaman
Kövrəlib içindən lillənəcəkdir.
Arazdan götürüb daşı da çalsan
Daş da insan kimi dillənəcəkdir!

Axıb nəğmə-nəğmə gəldin baharla,
Çaldın şır-şır axan buz bulaqları
Nazik simlər üstə çaldın vüqarla
"Uzun dərələri", "Uca dağları".

## ŞİKƏST

Küçədən sürətlə keçdi bir oğlan,
Təkqıçlı bir adam ayaq saxladı.
O baxdı həsrətlə ona arxadan,
Ağacdan yonulmuş qıçı laxladı.

Döşündə darıxdı, təngidi nəfəs,
Göyərdi üzünün köhnə çapığı.
Ağac da, dəmir də saxlaya bilməz
Ürək saxlamasa bir ağırlığı.

Şikəst olmayasan qoca yaşında,
Taxtadan, dəmirdən qıça nə əvəz.
Saatda yüz ağac gedən maşın da
Tək sağlam bir qıçın yerini verməz.

Keçdi ürəyindən o dərd, o fikir,
Heç kəsi dünənin dərdi almasın.
Yox, o, cəbhələrdə şikəst oldu ki,
İnsanın sabahı şikəst olmasın.

Heç kəs saymazyana ötüb keçərək,
Şikəsti özündən dalda qoymasın.
Şikəsti sən elə keçəsən gərək
Öz itmiş qıçını şikəst duymasın.

## İNSANLAR

Mən sizi bu qədər sevirəm, nədən,
Sizdən giley, geybət edə bilmirəm.
Hətta, qəsdən mənə bir pislik edən
Şəxsə də heç nifrət edə bilmirəm.

Mən sizi sevirəm yaxşılı-pisli;
Yox, məndə doğmayır nifrət hissləri.
Seçə bilməyirəm, sizdən nə gizli,
Tamam yaxşıları, tamam pisləri.

Ey mənə dərs vermiş, əziz müəllim!
Mənə nifrət hissi vermədin niyə?!
Axı bu nifrətlə bölə bilərdim
Mən də insanları bu gün ikiyə.

Kimə ki yaxşılıq edirəm hərdən
Ürəyim fərəhlə, işıqla dolur.
Bəzən də yaxşılıq edə bilmirəm,
Bu mənim özümə bir pislik olur.

Ey nifrət hissləri, qəlbimdən köçün,
Nifrətsiz olmağı mən qət edirəm,
Hamını bu qədər sevdiyim üçün
Bəzən də özümə nifrət edirəm.

Ey şair, yaxşı ol, sən dosta-yada
Qəlbini, eşqini, ruhunu bildir.
Ancaq onu da bil, hələ dünyada
Çox yaxşı olmaq da yaxşı deyildir.

## GÖYGÖL

Gəlmişəm yanına bir qardaş kimi,
Yenə bir ərkim var, sözüm var sənə.
Salman göndəribdir mənim dilimdən
Al-qana boyanmış bir diyar sənə.



Ömrümə ən qanlı bir zaman düşüb,
El ağ gün istəyib, eldə qan düşüb,
Sən də bir dilə gəl, de, haçan düşüb
Qardaş həsrətdən bu qubar, sənə?

Yolumu əzəldən düz götürmüşəm,
Neçə dost tapmışam, dost itirmişəm,
Gözümdə bir gilə yaş gətirmişəm
Urmiya gölündən yadigar sənə!

Günəş tellərini daradı keçdi,
Ulduzlar əksini aradı keçdi,
Könlümün içindən yar adı keçdi,
O qaldı hər zaman intizar sənə.

Kəpəz parçalanıb, haçası təndir,
Sənin köynəyinin göyü nədəndir?
Bu yanın günəşdir, o yanın çəndir,
De, kimdən qalmışdır bu bahar sənə?

## NİZAMİNİN QƏBRİ ÜSTƏ

Yaxın bir torpaqdan, uzaq bir eldən
Gəlmişəm mən sənin ziyarətinə.
Yenə də vüqarla baş əyirəm mən
Tək qalmış qəbrinin şeriyyətinə.

Dəyişdi yerini Gəncə də hərdən,
Səninsə bir oldu yurdunun adı.
Şahlara sığınıb yaşamadın sən,
Yox, şahlar sığınıb səndə yaşadı.

Qəbir daşlarının mərmər üzündə
Adını qazmışdır adamlar nədən?
Yaşatmaq istəmiş səni özündə,
Ya da ki, özünü səndə, bilmirəm...

Əməlsiz, əsərsiz bir ad deyilməz,
İstər adam onu mərmərə qazsın.
Adların içində adını hər kəs
Qoy öz işlərinin üstünə yazsın.

İnsan ad qazanmaz, insan ucalmaz,
Dönməsə özünün qətiyyətinə,
Adamdan bir böyük şəxsiyyət olmaz
Sığınsa özgənin şəxsiyyətinə.

## QƏLƏM YOLDAŞIMA

Gəl yüksək saxlayaq dostluq adını,
Qoy şair şairdən üz döndərməsin.
Qoy şair soyumuş istedadını
Tutqun fikirlərlə isindirməsin.

Sən düşmən tutursan, dostu, yoldaşı,
Deyirsən, süst olar düşmənsiz adam.
Doğrusu, ey dostum, mən sənə qarşı
Heç düşmən olmağı bacarmayıram.

Oturduq üz-üzə yenə bu axşam,
Yenə qorxaqlığa bunu yozma sən.
Heç nədən, heç kəsdən mən qorxmamışam,
Qorxmuşam bir fəqət özüm özümdən.

Səsində bir sınıq boşqabın səsi,
Gözündə yarımçıq qalmış bir fikir.
Bəlkə də bugünkü içki məclisi
Bizi müvəqqəti birləşdiribdir.

Qələm dostlarından qaçma həyatda,
Gəl daha birləşək, inaddan əl çək!
Onsuz da biz kiçik müntəxəbatda
Tale adımızı birləşdirəcək!



## SULAR RƏSSAMI

*Amerikanın görkəmli rəssamı*
*Rokuel Kentə*

Ey fırça qanadlı dəniz qartalı,
Suları fırçanda nə saf verirsən.
Nədəndir ey rəssam, yaşın artalı
Suları sən daha yaxşı görürsən.

Divardan asılmış rəsmlər, şəkillər
Qranit bir ömrün parçalarıdır.
O taydan bu taya uzanan əllər
Əl deyil, o Kentin fırçalarıdır.

Sən çəkdin dənizlər durulsun deyə,
Dəniz əks etmədi səni çox zaman.
Su ki rəngsiz olur, onu verməyə,
Bu gözəl rəngləri necə tapırsan?..

Salon bəzənmişdir bayramsayağı,
Baxıram, dalğadır, dənizdir hər yan.
Deyirəm, quruyar dənizlər axı,
Dənizdən gör neçə dəniz almısan...

Qoy nurla doldursun hər bir ürəyi
Ən təmiz sulardan çəkdiyin əsər,
Çək, nədən çəkirsən, rəsmində, təki
Nə sular bulansın, nə də fikirlər.

## TEHRANDA

Tehran, mən baxıram bir qəbristana...
Qəbrin əzəmətli bir sükutu var.
Yatır bu torpaqda qoşa, yan-yana
Həyatda ən qatı düşmən olanlar.

İnsan bu dünyada beş günlük qonaq,
O dözür ən acı ağrıya, cəbrə.
Dünyaya sığmayan ürəyə bir bax,
O bu gün sığmışdır əl boyda qəbrə.

Qəbristan – sükuta qərq olmuş diyar,
Bizim son yurdumuz necə də dardır.
Mərmərdən, kərpicdən əlhəd daşı var,
Qəbrin də zəngini, kasıbı vardır.

Çarşablı bir qadın ağlayır xəlvət,
Kasıb qəbristandan ucalır səsi.
Zəngin qəbirlərə mərmərdir zinət,
Kasıb qəbirlərə insan nəfəsi.

Çox qəbrin başında çarşablı qadın,
Əhsən bu eşqinə ana qadınlıq.
Ölən ərini də sən unutmadın –
Eşqin, məhəbbətin kişidən artıq.

## ÖVLAD HƏSRƏTİ

Göz yaşın yandırır bu odlar kimi,
Gözdə gilə odu saxlamaq olmaz,
Niyə ağlayırsan buludlar kimi,
Məgər insan kimi ağlamaq olmaz?

Ürəyin arzulu, ürəyin xəstə,
Bəzən huşun itir, ümidin itir.
Hələ yaşamayan bir övlad üstə
Yaşayan bir adam aradan gedir.

Gəzdirdin arzunu könül başında,
Səndən bu arzular uzaq düşmədi.
Saçına dən düşdü cavan yaşında,
Ancaq ki, bəxtinə uşaq düşmədi.



Uşaq... Müharibə... Göy qübbəsindən
Üstünə minalar, bombalar gəldi.
Topların, tankların vahiməsindən
Qız ikən bətində analıq öldü.

Övlad həsrətindən, uşaq fikrindən
Şam kimi sozarıb özün solursan.
Uşaq, uşaq deyib ağlayanda sən
Özün də bir nazlı uşaq olursan.

Ağlama, ayrılıq fikrindən çəkin,
Tərsliyin məni də yormuşdur artıq.
Sən övlad sahibi olsaydın, yəqin
Bu tərslik üzündən biz ayılardıq.

## BİZ YENƏ SUSURUQ

Könlüm uzaqları gəzib dolanır,
Könlüm od içində, könlüm həvəsdə.
Üzüm salxımları yerə sallanır,
Ulduz salxımları başımız üstə.

Sən yerin ulduzu, yerin qızısan
Mən sənin göyünəm, bəzə sən məni.
Doğma ulduz kimi qoy ki, hər zaman
Sinəmin üstündə gəzdirim səni.

Meh əsir dənizdən üşüyür gecə,
Örtürəm göyərçin çiyinlərini.
Sən öz dəsmalını düyünlədikcə
Açırsan könlümün düyünlərini.

Baxıram, gülürsən, danışmırıq biz,
Gözdə həsrət olsa, gözlər alışar.
Susuruq, dil açır ürəklərimiz,
Axı dil susanda, ürək danışar.

Baxışın dərindir, dənizə bənzər,
Od oddan alışar, baxış baxışdan.
Biz yenə susuruq, yaxşı deyiblər,
Sevəndə lal olar, kor olar insan.

## QORXMA, GÜLÜM

Biz üzürük göy dənizdə,
Ləpəlidir suyun üzü.
Sevgimizin dənizində
Üzür sanki dəniz özü.

Sən deyirsən, uzaq getmə,
Mən gedirəm, sən gəlirsən,
Çatıb mənə, gülüb mənə
Yenə geri çəkilirsən.

Gülmə, gülmə, susdalarsan,
Dəniz sevməz gülənləri.
Udar bəzən istəmədən
Yaxşı üzə bilənləri.

Biz dənizə bir udumuq,
Dəniz bizə bir udumdur.
Dərində üz, dayaz nədir,
Dayaz çirkdir, təlatümdür.

Qorxma, gülüm, biz dağ boyda
Ləpələrlə güləşmişik.
Biz iki can, iki ürək
Bir ürəkdə birləşmişik.

## AYRILIQ

Biz oturduq, ulduz yandı,
Biz oturduq, ulduz söndü.
Bir gecəlik görüşümüz
Bir kitablıq sözə döndü.



Sən bir ulduz, mən bir səma,
Səni məndən aldı səhər.
Bir görüşün son gecəsi,
Son gündüzü oldu səhər.

Bilməmişdim səhər mənə
Gecədən də toran olar.
Bir gecəlik görüş bizə
Bir ömürlük hicran olar.

Dostluq var ki, bircə sözdən
Uzun ömrü oda düşər.
Dostluq var ki, bir gün olar,
Ömür boyu yada düşər.

Özün getdin, sözün qaldı,
İndi sözdən alışıram.
Sən qəlbimin içindəsən –
Mən qəlbimlə danışıram.

## GET, NƏ OLAR...

Deyərlər, mən sənə yaraşmayıram,
Guya, kiçildirəm şəxsiyyətini..
Qoy sənə tapılsın layiq bir adam,
Görüm mən onun da ləyaqətini.

İlk dostluq, ilk sevgi yadımda hələ,
Yolumuz, fikrimiz, sözümüz eyni...
Mən öz təhqir olmuş xoşbəxtliyimlə
Sənin satın aldım xoşbəxtliyini.

Bilmirəm xalandır, yoxsa nəyindir,
Dalımca deyinib o ki, var mənə.
Gedirsən, nə olar, qərar sənindir,
Bircə qoy şəklini yadigar mənə.

Sevgilə bağlıdır insan həyata,
Bir eşqin gülləri vaxtsız töküldü.
Bizi uzaq yollar ayırmasa da,
Bizi "yaxın dostlar" ayıra bildi.

Sevgilə bağlıdır insan həyata,
Bir eşqin gülləri vaxtsız töküldü.
Bizi uzaq yollar ayırmasa da,
Bizi "yaxın dostlar" ayıra bildi.

## MƏN GÖRDÜM

Körfəzin suları dərindir, dərin,
O, qarət yolunun şah damarıdır.
O, neft aclığından titrəyənlərin
İranı talamaq ixtiyarıdır.

Qızıl neft bəxtini yaşadı İran,
O, qarət bəxtini yaşayır indi.
Onda neft dənizi kəşf olunandan
Sısqa bulağı da özgələrindir.

Bankların ağzında dadı şipşirin,
Qara peşmək kimi udublar onu.
Ancaq nə peşməkdir, nə də ki şirni,
O qandır, qan kimi satıblar onu.

Mən gördüm vətəni, qızıl pul olub
Silah təltifinə xərclənən zaman,
Qərbdə mətbuatın yalanla dolu
Pulgir tərifinə xərclənən zaman.

Hər gələn xarici, hər satqın vəzir
Ağız arşınıyla ölçürdü onu.
İflas dərmanıydı, ataş kəhrizi,
Bizneslər çənlərlə içirdi onu.



O mis, uran idi, neft, filiz, kobalt,
Dağ-dağ boşalırdı yerin qatları.
Qarət mahnısıydı qara bir valda,
Onu oxudurdu neft maqnatları.

İndi turizm olub xəritə bəxti,
Londonun "mədəni" səyyarlarına.
Həyat ampuludur vərşikəst vaxtı,
Milyarderlər vurur damarlarına.

Xalq qəzəb ahları vuracaq hələ
Neft quyularının boş yerlərinə.
Nifrət yükləyəcək bu gündən belə
Neft gəmilərinə, tankerlərinə.

II

"Ağ ev"in əlindən çıxıb deyəsən,
Çıxıb neft anbarı, silah anbarı.
Əlli il neft qusub, dərd yeyən vətən
Çevrilib olubdur qeyrət diyarı.

Döyüş bayrağını o qaldırandan
Tankların gözünə zülmət süzülür.
Tankla yumruqlaşıb vuruşan zaman
Daşlar da meydanda səfə düzülür.

Küçələr bir iclas dəhlizi olub
Meydanlar onların nitq tribunu.
İnsanlar izdiham dənizi olub
Yumruqlar, fəryadlar üsyan qanunu.

Yaylım atəşilə küçə çıraqban.
Qanlı sinələrə yazılır qərar.
Ey Vətən, sən tankla tapdalanandan
Sənin tankdan güclü yumruqların var.

III

Şəhərlər, küçələr tutub əl-ələ,
Məhəllə-məhəllə birləşir bu gün.
Burda analar da gəliblər dilə
Analar ərləşib, şirləşib bu gün.

Uzaq vuran toplar ağız açaraq
Baxır üç milyonluq bir nümayişə.
Dombagöz fantomlar, iynəgöz tanklar
Mat qalıb küçədə gedən döyüşə.

Tanklar udqunaraq durub nigaran,
Toplar çəkilibdir öz qınlarına.
Dünya heyran qalıb, bir ildir, heyran
Xalqın döyüş-vuruş qanunlarına.

Azadlıq pasportum neçə min şəhid,
Dağılır yumruqla sükunət buzu.
Xalqımın ən böyük firqəsi ümid,
Məni o firqənin bir üzvü yazın.

Kəfənim əynimdə, canım ovcumda,
İndi gülləbatmaz zireh kəfəndir.
Döyüşdə, vuruşda, odlar içində
Qırılan millətdir, artan vətəndir.

Döyüşdə kəfənə güllə batmayır,
Üstü gül-gül olur, qızarır ancaq.
Belə bir kəfəndir mənim də payım,
Kəfən geyən xalqım diri qalacaq.

*dekabr, 1979*

## DÖYÜŞ LÖVHƏLƏRİ

Nümayişdə qadınların
Çadraları çadra deyil,
Sanki qara tonqallardır
Od ələyir meydanlara.



Süd qoxuyan çadralardan
Qan yağışı yağır bu gün
Qızıl, mərmər saraylara.

Qan, ərimiş dəmir kimi axıb gedir
Bəlkə meydan alov çəkən bir sobadır?
Burda dəmir iradələr əridilir,
Burda polad iradələr suvarılır,
Yəqin meydan alov çəkən bir sobadır.

Qan şırımı elə bəlkə,
Döyüşlərin öyrətdiyi
Yeni dərsdir, əlifbadır.
Düzülübdür hər tərəfə.
Taleyini qızıl rəngli
Hərflərlə həkk eləyir
Küçələrə xalq bu dəfə.

Dükanların şüşə gözü
Ovulubdur, tökülübdür.
Vəzirliyin bər-bəzəkli
Qapıları sökülübdür.
Boz divarlar, güllələnib
Daşlar olub qırım-qırım,
Güllə yeri qan hayqırır.
Meydanlara qan calanıb
Yox, bəlkə də heç qan deyil,
Yoxsa qızıl şüarlardır
Mıxlanıbdır asfaltlara, divarlara.
Qanlı xəbər yüklənibdir bu günlərdə
Təbriz – Tehran, Təbriz – Zəncan
Yolundakı qatarlara.

Bu tank nədir, bu top nədir,
Bu tank deyil, bu top deyil,
Düyün düşmüş dəmirlərdir
Küçələri, meydanları
Düyünləyir bir-birinə.
Dəmir əkib insanların
Sinəsinin sipərinə.

## MƏMLƏKƏTİM

Ey döyüşən məmləkətim!
Mən bükürəm fəryadı, qəzəbini
Topdan güclü misralara!
Qoşuluram misralardan
Daha güclü sıralara.
Çevrilirəm neçə milyon
Səhifəlik bir kitaba.
Dolub-daşan meydanların
Mənim iri fəsillərim.
Sinələrdə güllə yeri
Nöqtələrim, vergüllərim.
Qalxıb-enən yumruq əllər
Cümlələrdə nidalarım.
Sətirlərdən düşən sözlər
Şəhidlərim, fədalarım.
Çevrilmişəm iki milyon
Səhifəlik bir kitaba.
Çevrilmişəm xalqım boyda,
Yurdum boyda inqilaba.

*yanvar, 1979*

## XALQIM

Ey dağlardan uca xalqım!
Yumruğunu uca qaldır!
Vur, sovrulsun zülmət göyə
"Mən azadlıq yoğururam
Yumruğumla bu gün" – deyə!

Ey məsləki uca xalqım!
Məramını uca qaldır!
Səp vətənə işıq-işıq!
Biz tarixdə heç bir zaman
Gözü qıpıq olmamışıq!



Biz azadlıq arzumuzun qabağında
Heç vaxt borclu qalmamışıq!

Ey tarixdən uca xalqım!
Öz haqqını uca qaldır!
Təp acgözün gözünə sən!
Bir azadlıq qərarı yaz
Bu günlərdə özünə sən!

Ey gecikmiş azadlıqdan uca xalqım!
Azadlığı uca qaldır!
Çevir onu od püskürən sıralara!
Məlhəm elə neçə min il
Qan hayqıran yaralara!
Bayraq elə dünən min-min
Basdırılan şəhidlərin məzarına!
Çevril sən də ədədiyyət baharına!

*dekabr, 1978*

## BİR OVUC TORPAQ

*"Bir ovuc torpaq" şerinin müəllifi*
*Süleyman Rüstəmə*

Döyüşkən şairim, Süleyman Rüstəm,
Ürəyin var olsun, şerin var olsun.
Torpaq istəmişdin, gözlərim üstə,
Təki istəməyə ixtiyar olsun.

Əyildim bir ovuc torpaq götürdüm,
Çırpındı ürəyim ovcumda mənim.
Səni yada saldım, qardaş, sözlərim
Göynədi dilimin ucunda mənim.

Əlimdə bir tikə torpağım qaldı,
Göndərə bilmədim, yollar qolaydır,
Mən xoşbəxt olmadım, döyüşçü oldum,
Barı ovcumdakı xoşbəxt olaydı.

Göndərə bilmədim, göndərim gərək,
Üzümə qapılar, yollar bağlıdır.
Tək yollar deyil ki, Təbrizdə hələ
Çaylar möhürlüdür, dağlar dağlıdır.

Məni çıxarmışdın elə bil yaddan,
Əkdilər otuz il güllə sinəmdə.
Hətta tunc dözümdən, dəmir inaddan
Qurğuşun ağacı göyərdi məndə.

Azadlıq! Var buna mənim də haqqım.
Azadlıq! Çevrildim qan dəryasına.
Hər dəfə beş yüz min ər verdi xalqım
Azadlıq sözünün qan bahasına.

Azadlıq! Düşmədi bu söz dilimdən,
Asdılar, kəsdilər, tutdular dilə:
"Alın azadlığı onun əlindən,
O öz qardaşıyla birləşə bilər".

Salmışam döyüşə mən öz mehrimi,
Gərək ki, dəyişsin dünya təkindən.
Tarixin ən böyük lənət möhrünü
Vururam tanklara yumruğumla mən.

Nə vaxt bayram olur, qardaşım, sizdə
Sayrışır Təbrizdə kəhkəşan yeri.
Nə vaxt aydın olur gecələr bizdə
Təbriz yuxusunu Bakıdan görür.

Yuyunur ümidim qızıl səhərin
Ala gözlərinin yağışlarında.
Gizlədib arzumu yüz ildən bəri
Dünya öz alnının qırışlarında.

Torpaq, onu necə göndərim sənə,
Çırpındı, sızladı ovcumda torpaq.
Bir dəstə gül göndər, söylədi mənə
Gül də qalıb axır torpaq olacaq.



## MƏNİM ANAM

Anam mənə haqq vermədi,
Özüm haqda bir düşünüm.
Gül qızların dodağından
Təbəssümlər dərmək ilə keçsin günüm.

Anam mənə haqq vermədi,
Rütbə deyib, sərvət deyib
Sel eləyim gözlərimin bulağını.
Satın alım ömrüm boyu
Şirin-şərbət yuxuların,
Həkimlərin qucağını.
Sel eləyim gözlərimin bulağını.
İnqilabın kürələri üzərində
Balalayım, nəsil artırım.
Hotellərin menyusundan,
Xanımların işvəsindən
Gənc ömrümə
Təzə-təzə fəsil artırım.
Balalayım, nəsil artırım.

Anam mənə haqq vermədi,
Gəncliyimə çiçək əkim,
Fala baxım, təsbeh çəkim.
O Səttərxan qeyrətimdən
Qan köçürtdü damarıma,
O od vurdu, alov vurdu
Mənim gənclik baharıma.

O, inqilab maşınına qoşdu məni
Otuz milyon at gücündə.
Mən inqilab oğlu oldum
İnqilabçı xalq içində.

Mənim anam, evimizin qu balıncı,
Yun döşəyi olmamışdır.
Mənim anam, nəvəsinin

Naz beşiyi olmamışdır –
Bir inqilab olub anam.

Məni anam insan deyil,
Döyüş doğub, üsyan doğub...
Gündə əzab maşınında
Sümükləri xırçıldayan
Millətlərin haqq işinə
Qurban doğub, qurban doğub.

## SƏNİ ÇAĞIRIRAM

"Sən ana vətənin qurban oğlusan!"
Bu sözlə başlayır döyüş kitabım,
Mən öz taleyimin ucalığından
Səni çağırıram, xalq inqilabı!

Səni çağırıram məmləkət boyu,
Çaylardan, dağlardan gücünü topla.
Qəzəbdən biçdiyin qılıncı sıyır,
Bu qanlı gecənin köksünə sapla.

Səni çağırıram, xalq inqilabı,
Gəl doldur ömrümün varaqlarını.
Gəl, yandır arzumun işıqlarıyla
Böyük Məşrutənin çıraqlarını.

Səni çağırıram, xalq inqilabı,
Sənin tufanını gözləyirəm mən.
Gir dərs otağıma, müəllim kimi,
Başla ilk dərsini təzə tarixdən.

Tökülən qanımla, ey ana torpaq,
Bağla yarasını ana vətənin.
Ey bu gün anadan doğulan uşaq
İnqilab mənimdir, azadlıq sənin.

*may, 1978*



## ŞƏHƏRİN CƏNUB MƏHƏLLƏSİNDƏ

Küçələr şəhərin Babək qolları,
Dağlara uzanır bu küçə yollar.
Tarixin ən haqlı döyüş yolları
Gedib ölməzliyə çatıb bu yolla.

Hərdən yarasına əl atır şəhər,
Sarınmış əlləri çatmır yaraya...
Odur ki, qışqırır hər axşam-səhər,
Dünyanı çağırır tez-tez haraya.

Şəhər qollarını uzadır dağa,
Elə bil, o doğur ilk övladını.
Büküb körpəsini qızıl qundağa
"İnqilab" qoyacaq onun adını.

*oktyabr, 1977*

## AVROPADAN QAYIDANDA

Gəldim gördüm o vətəndir,
Fəqət neçə əyan təzə.
Gəldim gördüm hər şəhərdə,
Hər mahalda zindan təzə.
Köhnə-köhnə binaların
Divarında elan təzə.
Haqq yolunda qurban olmuş
Neçə-neçə qurban təzə.
Köhnə yaram qan hayqırdı,
Qan ağladı, yandım, yandım...
Məni atam göz yaşıyla
Qucaqladı, yandım-yandım...

Karxanada, idarədə
Min-min rəhbər xaricidir,

Qoşundakı əfsərlərə
Hakim əfsər xaricidir.
Ruznamədə xəbər yalan,
Yalan xəbər xaricidir.
Mağazada cilid-cilid
Kitab, əsər xaricidir...
Siyasətlər, tuthatutlar
Dibə qədər xaricidir,
Xaricidir vətənimin
Hər bir yanı, yandım-yandım.
Bəs Hafizin, Firdovsinin
Yurdu hanı, yandım-yandım.

Nə gözəldir bulaqlarda
Göz oxşayan xallı daşlar.
Nə qəmlidir anaların
Gözlərində qanlı yaşlar.
Nə gözəldir gözlərimə
Güzgü tutan ayna göllər
Nə qəmlidir giley tökən,
Qəzəb yayan acı dillər.
Nə gözəldir nəğmələrdə
Həzin vüs`ət, ipək qanad,
Nə qəmlidir zindanları
Yarıb keçən acı fəryad.
Nə gözəldir çəmənlikdə
Əlvan güllər, buz bulaqlar,
Nə bədbəxtdir fərş toxuyan
Maral qızlar, qız uşaqlar.
Gördüm köhnə səhnələri,
Təzadları, yandım-yandım.
Daddım təzə gileyləri,
Fəryadları, yandım-yandım.

*mart, 1978*



## MƏHBUS YAZIÇI

*Fars yazıçısı M.Behazinə*

Millət tarix olmaz, tarix həqiqət,
Qurbanlıq olmasa, meydan olmasa.
Bizi əsgər doğub xalqımız, əlbət,
Xalqı alçaldarıq, qurban olmasa.

Xalqla itiləşən iti ağlını
Tapşırma yalançı küyə, şöhrətə.
Əli qabarlını, könlü dağlını
Keçir ürəyindən, gətir sənətə.

Oxudum, görmədim, ey vətən oğlu,
Qələmində qorxu, gözündə qorxu.
Mən indi bildim ki, qəhrəman olub
Möcüz, Əli Fitrət, Eşqi, Fərruxi.

Yadlar dodaq büzdü sənin yazına,
Dodağın kilidli, qələmin qoruq.
Kim ağzını açıb onun ağzına
Ya rütbə təpiblər, ya da ki, yumruq.

Məhbuslar yan-yana, üz-üzə yatır,
Həbsə döndəriblər böyük vətəni.
Zamanda hökmə bax, zindana atır
Təsvir olunanı, təsvir edəni.

Millət tarix olmaz, tarix həqiqət
Qurbanlıq olmasa, meydan olmasa.
Bizi qurban doğub xalqımız, əlbət
Xalqı alçaldarıq, qurban olmasa.

*yanvar, 1978*

## BİRLİK

Birləşək! Dünyada güclər birləşib,
Qalalar birləşib, bürclər birləşib.
Birləşib dünyada dili ayrılar,
Torpağı ayrılar, eli ayrılar.
Alıblar dünyadan öz haqlarını,
Behişt eləyibdir torpaqlarını.

Birləşsin bizim də məskənlərimiz!
Qalaya çevrilsin ürəklərimiz!
Birləşsin ən güclü qollar, qələmlər!
İrəli atılan dəmir qədəmlər.
Birləşsin, birləşib qala bilənlər!
Birləşsin, birlikdə ölə bilənlər!

Çaylar birləşəndə dənizə dönür,
Dənizlər düşmənə qorxunc görünür.
Dənizi içməklə qurtarmaq olmaz,
Dənizi ölümlə qorxutmaq olmaz.
Birləşmək hər yerdə iti silahdır.
Birlik haqlılara böyük pənahdır.
Birlik günəş dolu dirilik yolu.
Xalqın haqq yoludur – bu birlik yolu.

*may, 1977*

## ÖLƏNƏ QƏDƏR

Mən səndə tapmışam eşqi, vüqarı,
Sənin olacağam ölənə qədər.
Ey qış xislətimin sevgi baharı,
Sənin olacağam ölənə qədər.

Apar ölməzliyi məni özünlə,
Ulduzlar at çapsın bizə bizimlə,
Görüm gələcəyi sənin gözündə,
Sənin olacağam ölənə qədər.



Büllur buludlardan bir qayıq minək,
Yığıb dərələrin qoynuna enək,
Bir bulaq başında biz qoşa dinək:
Sənin olacağam ölənə qədər.

Kəhər küləkləri saxla, yəhərlə,
Çimim gözündəki qızıl səhərdə,
Məni kirpiyinlə qoru, çəpərlə,
Sənin olacağam ölənə qədər.

Gəlin paltarının ətəyi uzun,
Əlimə toxunan əllərin quzu,
Qonubdur alnına tale ulduzum,
Sənin olacağam ölənə qədər.

Kürk elə çiynimdə mehriban qışı,
Açılsın güllərin alın qırışı,
Niyə gözlərində şübhə qımışır?
Sənin olacağam ölənə qədər.

## BƏHANƏ

Bəhanə gəzirdin hər bir sözümdə,
Evdə bir heyvalıq bəhanə rəngi.
Sənin bəhanənli eşqin üzündə
Ayrılıq boynumdan asdı çələngi.

Yersiz bəhanələr ayırdı bizi,
Dünya bəhanəsiz olaydı barı.
Bəhanə başlanan yerdən, əzizim,
Ən ülvi sevginin ömrü qurtarır.

Daha gedərisən nə deyim sənə,
Vardır sevginin də qırdı-qaçdısı.
Bəhanən dalından boylanır mənə
Səndən vəfalısı, səndən yaxşısı.

Görürəm məndən də yaxşısı vardır,
Bəlkə yaxşıdan da yaxşı tapılar.
Bəhanə əlində qızıl açardır,
Açılmaz onunla bağlı qapılar.

## MƏNƏ MİNNƏT VURMA

Badəmə bərk vurma, badəm dağılar,
Dünya ləbriz olar dodaqlarımda.
Sən belə ah çəkmə, soyuyub solar
Öpüş badələri yanaqlarımda.

Qarğış tufanları bizlərdən uzaq,
Eşqin gül-gül olsun əsmər üzümdə.
İçək bu badəni bir az məst olaq,
Dünya beş qurtumdur indi gözümdə.

Məni çox danlama, sevgim naşıdır,
Qopar qısqanclığı baxışlarımdan.
Göz dolu nəvaziş daha yaxşıdır
Tərifin şıdırğı yağışlarından.

Mənə minnət vurma yaş fərqimizdən,
Ayrılıb bir itkin minnət olarıq.
Mən özüm sən yaşda olmuşam dünən
Fərqləri unutsaq, xoşbəxt olarıq.

Badəmə bərk vurma, badəm dağılar,
Düşər ümid gülü titrək əlimdən
İndi bir badəyəm titrək halım var,
İtmişəm küsülü istəklərimdə.

## SƏN GETDİN

Səni gözləyirəm o gündən bəri
Qalıb gəlincikdə əlinin yeri.
Qalıb güzgümüzdə ağarmış əksin,
Qalıb evimizdə mehriban səsin.



Ağarmış saçımda çəkilib tarım
Sənin o alovlu pıçıltıların.
Sözünün ətri var üz yaylığımda,
O bir yadigardır subaylığımdan.
Sən atıb getsən də o gündən məni
Dibçək taleyimdə əkmişəm səni.
Məni atıb getməz güllər, gülüşlər.
Tənha yuxularda incik görüşlər.
Gecələr yuxusuz, gileyli, incik,
Oynayar mənimlə sınıq gəlincik,
Soyuq, dilsiz, cansız olsa da onlar
Sənin vüsalıdan qalıb yadigar.
Məni atıb getməz səndən qalanlar,
Məni atıb getməz sənsiz olanlar.
Səndən vəfalıdır, istidir bəlkə
Sənin baş qoyduğun bu qu mütəkkə.
Sənin əvəzində, ürəyi incik,
Məni qucaqlayar, öpər gəlincik.

## KÖMƏK ELƏ

Mənə kömək elə, mənim əzizim,
Unudum o keçmiş məhəbbətimi.
Mənə kömək elə, mənim əzizim,
Tapım son sevgidə səadətimi.

Bilirəm, görürəm, sən də sevirsən,
Düşürsən bəzən də itkin izimə.
Bilirəm, görürəm, sən də sevirsən,
Əriyib dolursan qəmli gözümə.

Şəklimi asıbsan yuxarı başda,
Tez-tez dəyişirsən çərçivəsini.
Hər gün azaldırsan, hər gün bir az da
Özünlə o şəklin məsafəsini.

Mənə kömək elə, unudum daha
Sevgimi, səhvimi, peşmanlığımı.
Mənə kömək elə, unudum daha
Hələ qocalmayan cavanlığımı.

Hanı əldən tutan yardımçı bir əl,
Arxa uçurumdur, qabaq aşırım.
Mənə kömək elə, mehriban gözəl,
Sevgi taleyimi sənə tapşırım.

## HAQLI DEYİLƏM

Çatır qarğışların qulaqlarıma,
Bu həsrət həkk olur dodaqlarıma,
Nə cavab verərəm uşaqlarıma,
Sən cavan, mən yaşlı, dil gəlir dilə,
Mən səni sevməyə haqlı deyiləm.

Məni qarğışlama, mehriban çiçək,
Ruhum cavanlaşır hər səni görcək,
Saçların ipəkdir, əllərin ipək,
Mən səni sevsəm də, sevsəm də belə,
Mən səni sevməyə haqlı deyiləm.

Mənə qorxaq deyir incik baxışın,
Sevgi taleyimdə gözüm acışır,
Yağıb üzərimə ömrün yağışı,
Səni sevən oğlan çox yaxşı bilər,
Mən səni sevməyə haqlı deyiləm

Sənin öz taleyin, mənim öz yolum,
Fərq var aramızda, qurbanın olum,
Məni çox danlama, ürəyim dolub,
Mən yaşda olanlar çox yaxşı bilər,
Mən səni sevməyə haqlı deyiləm.



## YALAN

Yalan, necə gözəl, necə də şirin,
Səni yalanlara öyrətmişdilər.
Sənin ürəyində sevgi şerinin
Şah misralarını seyrətmişdilər.

Mən yalan vədləri çilçıraq edib
Gəlin otağına köçürməliydim.
Dünyanı qiymətli bir qolbaq edib
Sənin biləyinə keçirməliydim.

Barmağında yanan üzük-çilçıraq,
Qalıb gözlərimdə işıltıları.
Sənə xoş gəlirdi yalandan, ancaq
Vədə üzüklərin parıltıları.

Sənin yanındaydım, sən görməyirdin,
"Fikrin harda gəzir" deyirdin mənə.
Ləzzət verməyirdi, dad verməyirdi
Yalansız yanında olmağım sənə.

Daha görüşmürük, o günlər yalan,
Ağrıdın qıvrılıb ilbiz olmuşam.
Mən sənin gözündə yalan olandan
Mən sənə daha çox əziz olmuşam.

## ÜRƏK

Demişdi bir daha sevməyəcəyəm,
Bəs niyə bir daha səhv etdi ürək.
Bu səhvin qızaran gün batımında
Məni quzu kimi mələtdi ürək.

Necə də ağırdır bu sevgi – sovqat,
Haraya çapırsan, ey yəhərsiz at,
Məni kitab kimi büküb ikiqat
Səhifə-səhifə seyrəltdi ürək.

Tap onu, tap onu mehriban falçı,
Nədir dağ sinəmi yaxan bu sancı,
O bir nağıl oldu, mən bir nağılçı,
Danışıb hamını kövrəltdi ürək.

Ona öyüd verdim, sözümü kəsdi,
Bu mənə birinci, sonuncu dərsdir,
Dedim ki, dünyadan yapışaq, bəsdir,
Başıma dünyanı hərlətdi ürək.

Yandı özü yanmış dünya halıma,
Düşdü sınıq səslər ömür valıma,
Bulud gözlərini sıxdı yoluma,
Mənə ağlamağı öyrətdi ürək.

Ucalıq yolunu sevgidə gördü,
Axdı gözlərimə Füzuli dərdi,
Hər şeyi sevgiyə sədəqə verdi,
Gözünü dünyaya bərəltdi ürək.

## ÖYRƏT MƏNƏ

Ey ustad şairim, xalqa çevrilib
Xalqdan söz salmağı sən öyrət mənə.
Coşqun dəniz kimi nərildəməyi
Bulud tək dolmağı sən öyrət mənə.

Şişməkdən hörüldü qızıl məramın,
Uçan şəlaləydi təbin, ilhamın,
Yazıldı tarixə Müşfiq kəlamı,
Tarixdə qalmağı sən öyrət mənə.

Uçurub dünyanı bizcə qurubsan,
Harda zəncir olub dartıb qırıbsan,
Sən öz dövründən də uca durubsan,
Belə ucalmağı sən öyrət mənə.



Şerin gözəllikdən, oddan yoğrulub,
Sən haqlı çıxandan şübhəm dağılıb,
İki yol yaşayıb, bir yol doğulub
Tunc heykəl olmağı sən öyrət mənə.

Şairlər içində ilk qəhrəmansan,
Köhnə şerimizdə taza üsyansan,
70 yaşında da bizdən cavansan,
Belə gənc qalmağı sən öyrət mənə.

## ÖLƏNDƏ

Öləndə kəfənim ikiqat olsun,
Mən həm o tayınam, həm də bu tayın.
Qoy bütün dünyaya belə yayılsın
Öləndən sonra da birlik harayım.

Öləndə kəfənim iki qat olsun,
Ruhum o taydadır, qəbrim bu tayda.
Dözümlü xalqıma heykəl qoyulsun
Ortadan qurumuş bir dəli çayda.

Tabutum üstündə oynasın xəzan,
Bölünsün bir xalqın şairi iki.
Ayrı bacıların göz yaşlarından
Mənə iki tayda bir qəbir tikin.

İkili yaşadım həyatımı mən,
İkili səsimdə birləşdi xalqım.
Qovdum ikiliyi öz ürəyimdən,
Böyük ürəyimdə birləşdi xalqım.

Bir gün xalqım üçün şairləşəndə
Şair torpağıma quylanacağam.
Vətən birləşəndə,
Xalq birləşəndə
Mən də öz qəbrimdən boylanacağam.

## NOVXANIDADIR

Yaşıl təpələrin cığırı burma,
Şanı salxımları yatmışdır quma,
Üzümün salxımı, giləsi xurma,
Şanının şərbəti Novxanıdadır.

Dəniz ayağının altında qalır,
Sahil ipək qumdan döşəkcə salır,
Çimənlər huşumu başımdan alır,
Dənizin ləzzəti Novxanıdadır.

Burda hörmət vardır dosta, qonağa,
Gül verib gül ilə dodaq dodağı,
Ay xanım, ay gəlin, dur, gedər bağa,
Dünyanın neməti Novxanıdadır.

Çək quyu suyundan bir qurtum içim,
Çimənlər içindən bəs necə keçim,
Yavaş ol, gözaltı bir gözəl seçim,
Gözəlin şöhrəti Novxanıdadır.

Tahir, yavaş yeri quma batarsan,
Yolu kəsə gəlsən, bağa çatarsan,
Hər yerin gözəli, cənnəti varsa,
Bakının cənnəti Novxanıdadır.

## ÖMÜR ATIMA

Döyüşlər, vuruşlar mənim yaşıdım,
Sınıq ürəklərə ümid daşıdım,
Ümid sevincimin əzəl başıdır,
Düşüb gözlərimin kirpik qatına,
Çataram bunu da ömür atıma.

Sinəmi yandırıb cadarlayırsan,
Azadlıq eşqimi hasarlayırsan,



Saçımın ağını tumarlayırsan,
Dönübsən ömrümün şirin dadına,
Çataram bunu da ömür atıma.

Mən heç istəmədim olanlar ola,
Sən özün qoşuldun mən gedən yola,
Dönübsən turşumuş ağzımda bala,
Yaman heyfim gəlir təmiz adına,
Çataram bunu da ömür atıma.

O qız təbəssümdən görən nə xəbər,
Görən nə yerdədir biz olan yerlər,
Ağaclar nə təhər, evlər nə təhər,
Sənin gözəlliyin çatsın dadıma,
Çataram bunu da ömür atıma.

Bunlar da bir gündür sabahı aydın,
Günləri ağarmış saçımda saydın,
Bir günlük dünyana ortaq olaydım,
Ey dünya, ölümü salma yadıma,
Çataram onu da ömür atıma.

## TƏLƏSDİR MƏNİ

Nə soyuqdur ayrılığın tənha nəfəsi,
Nə ötəri hicran, vüsal, sevgi həvəsi,
Nə acıdır, nə qarlıdır ömrün zirvəsi,
Dünya baba, ölməzliyə tələsdir məni.

Mey ver mənə, dünya kimi qartım, qocalım,
Od ver mənə, taleyimdən qızıl bac alım,
Elə yanım, öz əslimə qalxım, ucalım,
Dünya baba, ölməzliyə tələsdir məni.

Məndən sonra bərk yağışlar yağacaq hələ,
Gün bu gündən daha parlaq doğacaq hələ,
Ümidlərim ulduz-ulduz axacaq hələ,
Dünya baba, ölməzliyə tələsdir məni.

Güldüm hər gün "o tay, bu tay" lətifəsinə,
Taleyimin iki rəngli xatirəsinə,
Döndüm arzu gələcəyin firiştəsinə,
Dünya baba, ölməzliyə tələsdir məni.

Mən doğuldum iki xlqın xoş gümanından,
Çıxdım qoşa qardaş ahın ox kamanından,
Tək qalmışam arzuların biyabanında
Dünya baba, ölməzliyi tələsdir məni.

Mən gedirəm, gedişimlə dünya şən olsun,
Bizdən güclü nəsillərin yeri gen olsun,
Məndən başqa bölünənlər barı tən olsun,
Dünya baba, ölməzliyə tələsdir məni.

## TƏNQİD

Səndə olmayanı özgədən umma,
Belə umacaqda tənqid zor olar.
Əyrilik gördünsə, gözünü yumma,
Yumsan, həqiqətin gözü kor olar.

Sənin də ünvanın döyülər bir az
Başqa bir ünvanı döyəndə tənqid.
Bir qayış səsidir, bir yağlı qapaz, –
Qayıdıb özünə dəyəndə tənqid.

Qaşları çatıqdır, gözləri oynaq,
Onu aldatmayır tərif gözəli.
Kimsə tənqid edib məni, işə bax,
Mənim əvəzimdə özü düzəlib.

Ağıllı adamın nöqsanlarını
Təriflə, bu ona tənqidə dönər,
Dayaz adamlarsa əksinə olur,
Tənqiddən alışar, tərifdən sönər.



Tənqidlə üstünün tozunu püflə,
Tərif küçəsində yolunu azma.
Tərifli iş varsa, onu təriflə,
Onda sən heç kəsə paxıl olmazsan.

## QARABAĞ

Torpağına qurban olum,
Torpağına dönərəm.
Sinən üstə cığ vuraram
Gül dilində dinərəm,
Ətəyindən öpmək üçün
Öz zirvəmdən enərəm,
Qarabağım, Qarabağ.

Can da verdin, yer də verdin
Ev də verdin, çörək də.
Utanmadı, usanmadı
Yad "mənimdir" deməkdən.
Yersiz gəldi, yerli qaçdı,
Bu dağ-daşda, ətəkdə,
Qarabağım, Qarabağ.

Bu Təbrizin hədiyyəsi,
Bu Sarabın sovqatı,
Şorqoğala anam özü
Göz yaşından duz qatıb.
Xankəndində hava qatı,
Çiskin qatı, sis qatı,
Qarabağım, Qarabağ.

Nə gözəldir, nə qoçaqdır,
Nə igiddir ellərin,
Nə şirindir mahnıların,
Söhbətlərin, dillərin.
Qızlarının həyasından

Sevinc qapıb güllərin,
Qarabağım, Qarabağ.

Qan sağıbdır dərin, dayaz
Göllərinin gözünə,
Qara bulud saqqal qoyub
Qar ələyir düzünə.
Ümid qalıb bir Allahın,
Bir millətin özünə,
Qarabağım, Qarabağ.

Qanlı gözlər, qanlı sular,
Qanlı çaylar durulsun,
Qızılgülün budaqları
Bir-birinə sarılsın,
Qızlarının bəxt evində
Toy məclisi qurulsun,
Qarabağım, Qarabağ.

## GÖRDÜM BURADA

Şəhidlərin qəbri olmur,
Onlar köçür qəbirdən,
Ruhlarıdır bəzən bizi
Yerimizdən dəbərdən.
Ön cəbhədə şəhidlərdir
Düşmənləri gəbərdən.
Ön cəbhədə səngərləri
Dəmir qanlı sipərdən.
Çox görmüşdüm,
Bir də gördüm burada.

Mən görmüşdüm bir andaca
İnsan dönür məzara,
Tank şütüyür, insanları
Pərçimləyir divara.
Sinələrdə qızıl güllə,



Bənzər qızıl mismara.
Cənazələr buldozerlə
Yüklənirlər qatara,
Çox görmüşdüm,
Bir də gördüm burada.

Mən görmüşdüm rəqabəti,
Paxıllığı, həsədi,
Vətənimdə üzüsoyuq
Dəbilqəli qürbəti,
Yad pasportla qırıq-qırıq
Yaşamağı, möhləti,
Qabağıma tulazlanan
Əski-para qiyməti,
Çox görmüşdüm,
Bir də gördüm burada.

Allah bizə dözüm versin,
Necə verib hər işdə.
Qalib gələn dözüm idi
Alçaqlara döyüşdə.
Çətin vaxtda qonşu yaxşı,
Uzaq tanış-bilişdən.
Bir tərpəniş, yürüş üstün
Deyinməkdən, söyüşdən.
Çox görmüşdüm,
Bir də gördüm burada.

Mən görmüşdüm quraqlıqlar
Cənnət olub qeyrətlə.
Şəxsiyyətlər, ləyaqətlər
Alçaldılıb minnətlə.
Ölkə düşüb, xalq soyulub
Oğurluqla, rüşvətlə.
İsrafçılıq bu milləti
Üzləşdirib zillətlə.
Çox görmüşdüm,
Bir də gördüm burada.

Qardaş var ki, qardaşından
Rüşvət alır, şellənir,
Övlad var ki, öz evindən
Oğurlayır, veyllənir.
Millət var ki, lal-dinməzdir
Dib tarixi bellənir.
Elə xalq var, susmaq bilmir,
Yumruq ilə dillənir
Çox görmüşdüm,
Bir də gördüm burada.

## AYRILIQ

Dünya birləşirdi, biz ayrılırdıq,
Ağaclar saç yolub, yarpaq tökürdü.
Qara buludlardan alıb bir qırıq
Üfüqlər gözünə sürmə çəkirdi.

Gülüb bəzənirdi hərzə ayrılıq,
Mənim göz yaşımın güzgülərində.
O, paltar geymişdi hər yeri açıq,
Sarı yarpaqların hörüklərindən.

Nə pislik etmişdik ona yahalıb,
Bizi öz rənginə döndərmişdi o.
Ümidi arzuya minnətçi salıb,
Həsrətin dalınca göndərmişdi o.

Özünü atmışdı dünya tələsik,
Bizim aramızda divar olmuşdu.
Sənin gözlərində işıq, incəlik
Sarı rəngə çalan qubar olmuşdu.

Ayrılıq, son görüş, bu qərib sözlər
Ömrü son gümana girov qoymuşdu.
İsti göz yaşında boğulan gözlər
Yaylıq isladırdı, yaylıq yuyurdu.



Dəniz utanırdı, dağ büzüşürdü.
Tikanlı məftillər güllənirdilər.
Küləklər fit verib qışqırışırdı,
Buludlar rəqs edib şellənirdilər.

Bir alnı xınalı quzu etmişdi,
Dünya sevgimizi qurban kəsirdi.
Mən qəmdən tutulub misə dönmüşdüm,
Sənsə yarpaq olub tir-tir əsirdin.

## QAYIDARAM

Mənim gülüm, bu dünyada heç bir şey itmir,
Bu gedənlər bu dünyadan bir yolluq getmir,
Qayıdırlar neçə vaxtdan sonra yenidən,
Bir gün ölsəm, gözlə məni, gələcəyəm mən.
Ancaq hələ bilməyirəm hansı fəsildə,
Hansı üzdə, hansı yerdə, hansı şəkildə.
Yarpaq kimi bəlkə gəldim dünyaya bir də,
Yarpaqların xışıltısı sevinən yerdə
Gözlə məni son payızda son yarpaq kimi.

Ağac kimi bəlkə gəldim, bitdim həyətdə,
Bəlkə elə bir gül oldum, solğun sifətdə,
Bəlkə yağış damlası tək hopdum saçına,
Şəlalə tək sıçrayaraq çıxdım qarşına,
Bəlkə xəbər tutmaq üçün sənin halından,
Budaq olub boylanaram şüşə dalından,
Gözlə məni ilk baharda tər budaq kimi.

İnsan kimi bəlkə gəldim ömür arası,
Etmədim yaxşılıqlar yetim qalmasın.
Bəlkə elə külək oldum, qayıtdım yenə,
Sən qulaq as küləklərin həzin səsinə.

Gözlə məni, gözlə məni, gülüm, həyatda,
Gələcəyəm bu dünyaya xoş bir saatda.

Ya bir çıraq, ya quş kimi, ya bulaq kimi,
Gözlə illər arxasından bir mayak kimi.

Çünki, gülüm, bu dünyada heç bir şey itmir,
Bu gedənlər bu dünyadan bir yolluq getmir,
Qayıdırlar neçə vaxtdan sonra yenidən,
Bir gün ölsəm, gözlə məni, gələcəyəm mən.

## GÜLÜŞÜN SƏNİN

Bir də gülüşünlə sevindir məni,
Özündən gözəldir gülüşün sənin.
Dünya gözəli də olsan, yaxşı bil,
Özündən gözəldir gülüşün sənin.

Bir gün uzaq düşsəm ana torpaqdan,
Səni soruşaram güldən, budaqdan,
Mənə sovqat göndər onu uzaqdan,
Özündən gözəldir gülüşün sənin.

Pay verim payıma düşən illərə,
Çevrilsin ətirli sərin güllərə,
Qarışsın qəlbimdən axan sellərə,
Özündən gözəldir gülüşün sənin.

Onu bəbəyimdə silib saxlaram,
Eşqilə yaşaram, yanıb çağlaram,
Sən gülsən, sevinib mən də ağlaram,
Özündən gözəldir gülüşün sənin.

O sevinc, o sevgi qaldı vətəndə,
Şəkil gülüşünü öpürəm mən də.
Güzgüyə baxarsan bir gün güləndə,
Özündən gözəldir gülüşün, sənin.



## SAVALAN

Duman olsam,
Qarış-qarış biçilərəm boyuna,
Yağış olsam,
Qayaların zirvə-zirvə yuyunar,
Bahar olsam,
Ətəklərin ağ donunu soyunar,
Günəş olsam,
Çevrilərəm sənin çiçək toyuna
Savalanım, Savalan.

Qayalardan sallanaram,
Salxım-şüşə buz kimi,
Quzu olub daşlarını yalayaram duz kimi,
Sən buluddan yaşmaq tutsan
Bir nişanlı qız kimi,
Dağıdaram buludları
Qılınc kimi, gürz kimi,
Savalanım, Savalan.

Biç zirehli qayalardan
Daş əzmini əynimə,
Dərələri xurcun kimi
Aşır, aşır çiynimə,
Çiçək-çiçək, ətir-ətir
Dol ruhuma, beynimə
Mən qalmadım, heç olmasa
Sən qal xalqın qeydinə,
Savalanım, Savalan.

Düşmən gəlib sürü-sürü
Ətəyində ağnaşıb,
Şiş zirvəni tutmaq üçün
Boz buludlar bağlaşıb,
Çox təpələr sənə baxıb,
İftixardan dağlaşıb

Dağım, səndən ayrılanda
Sellər ağlaşıb,
Savalanım, Savalan

Dərələrim gül xırmanı,
Gül içinə bataram,
Qayaların sərin kölgə,
Kölgələnib yataram,
Güllə edib daşlarını
Tüfəngimdə ataram,
Sənin zirvən azadlıqdır
O zirvənə çataram,
Savalanım, Savalan.

## ŞAH GÖLÜ

Günəşin gözündən düşüb elə bil,
Mavi günəş olub bizə Şahgölü.
O qədər sevgili yolu gözləyib,
Çevrilib intizar gözə Şahgölü.

Pıçıldar eşqiylə nazlı hovuzlar,
Dönər sahilində arzuya qızlar.
Qızıl kəcavədə gələr ulduzlar,
Qızıl sahilini gəzər, Şahgölü.

Bir ürkək maraldır çəkilib düzə,
Gizli bir eşq var bənzər dənizə
Qız kimi qısılıb ana Təbrizə,
Odur ki, çıxmayıb üzə Şahgölü.

Mavi can köynəyi biçib sazaqdan,
Üstündə düymələr sarı yarpaqdan,
Kimi gözləyir ki,
Görən bayaqdan
Dikib gözlərini düzə Şahgölü.



Çaylar şirinləşib ona qarışar,
Küsən sevgililər burda barışar,
Yel vurar, eşqinin odu alışar,
Gələr ilham ilə sözə Şahgölü.

Dağlar pillə-pillə enər aşağı,
Düşər su içəndə suya "papağı",
Gələndə uzaqdan əziz qonağı,
Salar duvağını üzə Şahgölü.

Əyildim bir öpüş alım üzündən,
Oxudum bu sözü ala gözündən:
"Mən bir az nazlıyam,
Bir az küsəyən,
Tahir, elə yazma, küsər Şahgölü".

## ƏRDƏBİL

Savalan altında bardaş quraraq
Çubuq tüstülədir qoca Ərdəbil.
Tarixdən boylanıb mənə baxsa da
Görünür tarixdən uca Ərdəbil.

"Şahsəfi" çiynində şahlıq quşudur,
Bu şöhrət tacıyla şəhər qonşudur,
Məscidlər bəs niyə üz-göz turşudur
Bu qızıl qübbəli taca, Ərdəbil?

Çatıb qaşlarını qartallı yallar,
Burda ilmə buzdan toxunub şallar,
Niyə düyün düşüb gədikdə yollar,
Qorxub tənhalıqdan qaça Ərdəbil.

Dağ çayı at kimi köpüklü, yorğa,
Ulduzlar ovcunda qızıl qovurğa.
Evlər yerə yatıb nədənsə qorxar,
Tutub günbəzlərdən xonça Ərdəbil

Gedim muzeylərdən yığım varını,
Qucum dağlarımla dağ vüqarını,
Yazım "Şahsəfi"nin şah baharını,
Gül açsın "dörd fəsil" xalçan Ərdəbil.

Qıçımda qar qışın buz patavası,
Dolar ürəyimə qürbət havası,
Ağlayar vətənin Tahir yarası,
Gözümün bulağı sancar, Ərdəbil.

## TƏBRİZİM

Küçələri dolayaram boynuma.
Günəş çıxar, gül tökülər qoynuna,
Gülüstanda gül ömrümü əkərəm,
Şahgölünün qız nazını çəkərəm,
Təbrizim, ay Təbrizim.

Qızılgüllər gül-gül olar üzündə,
Ərk gizlənər gecə qara gözündə,
Dağlar ipək bulud çəkər başına,
Yad baxmasın sənin əyri qaşına,
Təbrizim, ay Təbrizim.

Hovuzların güzgü tutar üzünə,
Güzgülərdə gəlinlərin bəzənər.
Kəhrizlərin pıçıldaşar gecələr,
Kəhrizlərdə nəğmələnər küçələr,
Təbrizim, ay Təbrizim.

Nəğmələrin hicran, həsrət, toy-düyün,
Həsrətinlə, hörmətinlə sən öyün,
Bir söz desəm, qəm gözündən silinər,
Öz dilində danış, qurban dilinə.
Təbrizim, ay Təbrizim.



Peşmək, qaymaq dadı verər salamın.
O gül açar yanağında adamın,
Salam uca, gülüş asta, göz oynaq...
"Asta danış, Təbrizdəsən, ay qonaq!"
Təbrizim, ay Təbrizim.

Yuxun azdır, az yatırsan gecələr,
Dik alnında qırış qalar küçələr,
Sayıq durub keşik çəkər timçələr,
Səhər yatar, ayaq üstə dincələr,
Təbrizim, ay Təbrizim.

## ƏRK QALASI

Əzmini ver mənə, əcdadım, atam!
Sənə ərkim vardır, Ərk qalasısan.
Mən sənin çiynində ucalmalıyam,
Sən mənim çiynimdə ucalasısan!
Mənim neçə yerdən top yaralamış
Daşları yaralı tarix kitabım.
Dünyadan ucasan, uca bir qarış,
Mənim dağ görkəmli daş inqilabım.
Niyə pərişansan, ölmüşəm məgər?
Olmaya, oğlunu ölmüş bilibsən.
Sənin ucalığın yaşasın deyə,
Alçaq düşmənlərlə vuruşuram mən.
Mənim uca başım, enli kürəyim.
Tüfəng nişangahım sənsən, ey qalam!
Çırpınır yaranda mənim ürəyim,
Ey mənim yaralı ürəyim, salam!
Uca tut başını, dünya calalım!
Qonsun əfsanələr məğrur başına.
Qoy zəfər möhrünü tarixdən alım,
Azadlıq sözünü yazım daşına!
Ərkin yarasını incitmə, duman,
Alışsın bir daha döyüş həyatım!
Mənə icazə ver, öpüm yarandan,
Qoy mən də bu gecə yaranda yatım.

## MƏRƏND

Niyə bəs arxamca qəmli baxırsan,
Səsini azaltma, zilə çək, Mərənd.
Bir gün qərib yerdə köməksiz olsam,
Biliram dalımca gələcək Mərənd.

Hər kəs bu dünyada bir yol seçəcək,
Ömrünü o keçmiş yolla ölçəcək,
Dünyanın yaşından min il keçəcək,
Bizim qədrimizi biləcək Mərənd.

Dərələr anamın qarğışlarıdır,
Ulduzlar yağmamış yağışlarıdır,
Bu yollar alnının qırışlarıdır,
Yolda yol-yol olub güləcək Mərənd.

Çapacaq ömrünün kəhərlərini,
Keçəcək dünyanın şəhərlərini,
Dağılmış Məşrutə səngərlərini
Barıt tüstüsündən siləcək Mərənd.

Dostlar yaşamamış heç zaman ayrı,
Dostluqdur, mərdlikdir insanın varı,
Təbrizlə dost kimi yarıbayarı
Böyük şöhrətini böləcək Mərənd.

## YANDIM, YANDIM

Dünən vətən sözü dedim,
Öz ağzımda dilim yandı,
Barmaq ilə nişan verdim,
Barmaqlarım, əlim yandı.
Kül sovruldu gözlərimə,
Yelqarışıq külüm yandı,



Əl uzadıb bulağından su götürdüm,
Yandım, yandım...
Tüstülənib bulud kimi qar gətirdim,
Yandım, yandım.

Şəhərlərin danlaq görüb,
Qərib qalıb, kənd olubdur.
Azadlığın mal-dövlətin
Xırman olub, sovrulubdur.
"Qızıl əsrin" tufanında
Qayaların ovulubdur.
Daş qarışıq od sovruldu gözlərimə,
Yandım, yandım.
İynə-iynə ağrı doldu dizlərimə,
Yandım, yandım.

Öz yerini dəyişibdir
Küskün düşən uca dağlar,
Təpələrin arxasında
Sızıldayır buz bulaqlar.
Çəpərlərdən yaşmaq tutub
Gizlənibdir sarı bağlar,
Heç bir şeyi mən görmədim öz yerində,
Yandım, yandım.
Vətən dedim, fəğan qopdu yüz yerimdən,
Yandım, yandım.

Başın üstdə dövrə vuran
O günəşdir, ya çərpələng?
Kimlər yatıb yer altında,
Burda niyə yer tərpənər,
Hara belə dağılırsan,
Qurban sənin hər qəlpənə.
Qan hayqırdı yaralarım, qana döndü,
Yandım, yandım.
Düşmənlərin bir xalq kimi səni dandı,
Yandım, yandım.

Dünya səni yaman çəkib
Bu dünyada bərkə-boşa,
Dağ sinəndə dağ ürəyin
Haçalanıb qoşa-qoşa.
Hey dırmaşıb sürüşürsən
Ömründəki bir yoxuşa,
Sil gözünü az qalıbdır.
O "bivəfa" qurtuluşa.
Döz bir qədər, mən dözmədim,
Bu dağlara, yandım, yandım.
Düşdüm səndən, el-obadan
Uzaqlara yandım, yandım!

## ÖLÜMDƏN BİR GÜN QABAQ

Anam mənə son görüşdə,
Batan günəş rəngi almış
Tutqun, titrək bir gülüşlə
Belə dedi:
"– Oğlum, tarix
Haqq yolunda şəhid olmaq
Haqqı verib bizə ancaq.
Ondan sonra verilənlər
Bil ki, səni aldadacaq.

Biz ölməyi öyrədirik
Milyonlara haqq yolunda.
Yaşamaqsa çox asandır
Alçaqların qoltuğunda.
Oğlum, sənin özgəsi tək
Yaşamağa haqqın yoxdur.
Sabah edam olacaqsan,
Düşünməyə haqqın yoxdur.

Oğlum, atan, üç qardaşın, iki bacın
Şəhid olub haqq yolunda.



Biz çıxmışıq haqq yoluna,
Biz gedirik xalq yolunda.
Namərdlərin qabağında
Mən ağlasam, ləkə olar mənə, oğlum.
Ləkə olar sənə, oğlum.
Vaxtım olsa ağlamağa
Buludların, bulaqların
Gözlərilə ağlayaram
Sənə, oğlum!

Kirpiyini qırpmayasan
Güllələrin qabağında.
İgid dayan atan kimi
Sən də ölüm ayağında.
Sən dirəyə bağlansan da,
Sabah edam olan zaman,
Dirək deyil, ip deyildir,
Oğlum, bil ki, səni sıxan –
Öz qundağın, beşiyindir.
Vətən səni bələyibdir,
Bil ki, ölüm ayağında,
Ölən kimi igid, oğlum,
Sən anadan olacaqsan
Əsl anan
Əbədiyyət qucağında".

## ŞAİRİ ÖLDÜRDÜLƏR

Dünən bir şairi güllələdilər,
Sızladı bir xalqın oğul qayğısı
Sınıb səpələndi çölə bir səhər
Misra ulduzların boyunbağısı.

Bir nəğmə yarımçıq qaldı sözündə,
Qapıdan qayıdan qonaqlar kimi.
Qırılıb səsləndi bir sim sözündə,
Yuxudan diksinmiş uşaqlar kimi.

Doldu gözlərinə güllə bir daraq,
Şüşə baxışları çiləndi düzə.
Gecə güllələndi o şair, ancaq
Çevrildi yurdunda parlaq gündüzə.

Qızaran şeirdir, yerdə qan deyil,
Şair övladını oxuyur ölkə.
Qanadı səhərin gözü elə bil,
Günəşin gözünə qan sızdı, bəlkə.

Doldu dərələrin qulaqlarına
Yaralı bir şerin sızıltıları.
Düşdü bulaqların dodaqlarına
Bir nakam şairin pıçıltıları.

## BAYRAM

Bayram meşələrə səpdi ağ noğul,
Nənəm öz kürkünü çıxartdı mağıl,
Hardasan, ay bala, hardasan, oğul,
Ağladım gözümdə lilləndi bayram.

Hacının daxlına töküldü sərvət,
Kasıb öz evində sızladı xəlvət,
Birində ziyafət, birində xiffət
Görüb, öz dilində dilləndi bayram.

Borcunu istədi bu günü katda,
Kişi baş götürüb getdi elatdan,
Kəndli balasının ayağı altda
Tapdana-tapdana gülləndi bayram.

Yolçuya pay verdi xanım nimçədə,
Nə şirin dad olur qənddə, külçədə.
Bayramdır, boynunu burma küçədə,
Öz şirin diliylə dilləndi bayram.



## TƏBRİZDƏ

Təbriz göylərində bulud seyrəlib,
Buludlar gözlərdə, ürəklərdədir.
Dağların zəhmində qəzəb kövrəlib,
Qəzəb yumruqlarda, biləklərdədir.

On yaşlı uşağa hirsləndim bica,
Onun əlli illik dərdi partladı.
Satdı boynundakı şərfi bir qoca
Şaxtanı odladı, qışı odladı.

Tutub saatını Təbriz ovcunda
Sabahı gözləyir, anları sayır.
Qalıb əqrəblərin iti ucunda
Qatil ağaların məhkəmə payı.

Təbriz saatında əriyir zaman,
Udur o gərəksiz saniyələri.
Sayır bu millətdən intiqam alan
Gizli ölümləri, faciələri.

Şəhər qaraqabaq olubdur deyən,
Baxanda vahimə basır adamı.
Bəlkə də yayınsın deyə polisdən
Gözlə danışmağı öyrənir hamı.

Gülür küçələrdə vitrin xanımlar,
Gülmək öyrədirlər təbrizlilərə.
Ancaq qisas adlı bir gülüş də var,
Ordan öz payını götürür hərə.

## DƏNİZDƏ

Dənizdə ağlaram, suyun üzündə,
Görməsin gözünün yaşını heç kəs.
Dənizdə ağlaram, indi gözümdə
Dəniz bir qurtumdur, dünya bir nəfəs.

Səsim uzaqlara yetişən deyil,
Mənim gözlərimlə ağlar uzaqlar
Mənim gözlərimdən axıb elə bil,
Tökülür dənizə isti bulaqlar.

Dolanıb əlimə, belimə qayım
Kəhər ləpələrin köpüklü yalı.
Dalğalar balıncım, qollar avarım
Köpüklər gözümün ipək dəsmalı.

Gözümü hər dəfə silir ləpələr,
Boşal, qəlbimdəki kədər bulağı!
Daha balıncımın üstdə hər səhər
Ləkə görməyəcək arvad-uşağım.

Ümid mənə baxır dağlar başından,
Qayalar dərdimi biləcək mənim.
Nə yaxşı dəniz var gözüm yaşında,
Dəniz göz yaşımı siləcək mənim.

## ÜÇ KƏLMƏ

Otuz ildir ana Vətən,
Cəmləşibdir üç kəlmədə:
"Mən azadlıq istəyirəm!"

Otuz ildir ana Vətən
İstintaqda, məhkəmədə:
"Mən azadlıq istəyirəm!"

Otuz ildir ana Vətən,
Ölüm-dirim divanında:
"Mən azadlıq istəyirəm!"

Otuz ildir ana Vətən,
Güllələnmə meydanında:
"Mən azadlıq istəyirəm!"



Otuz ildir ana Vətən,
Səhər vaxtı qürublanır.
Otuz ildir ana Vətən,
Dözümüylə qürurlanır.

Anaların göz yaşları,
Ana dilli kitab olub.
Gəlinlərin hıçqırtısı,
Yaylıqlarda gülab olub.

Gözlər nida nöqtələri,
Yaşlar odlu xitab olub.
Azadlıqdan söhbət açmaq
Bir cinayət hesab olub.
Baş kəsənlər, zor deyənlər
Ad götürüb, cənab olub.

Otuz ildir güllə yağır
Dodaqlardan, ağızlardan.
Otuz ildir fəryad qopur
Kitablardan, kağızlardan:

Vətən böyük bir cənnətdir,
Gülü xanın, külü xalqın.
Vətən böyük bir nemətdir
Yağı xanın, dağı xalqın.
Vətən nədir, hamı bilir,
Vətən yada müftə gəlir.
Vətən nədir, Vətən əzab,
Burda itib hesab – kitab.
"İsrailli" dırnaq çəkir, –
Həbsxanalar dırnaq tökür.
"Vaşenqtonlu" iynə sancır, –
Zindan olur sancı-sancı.
Məhbusların fəryadıyla
Qopur zindan suvaqları.

Anaların fəryadıyla
Dolur Şərqin qulaqları.
İgidlərin döyüşüylə
Yanır ümid çıraqları.

Gərək ümid çırağından
İşığını ala Vətən.
Gərək yadın, dərbarın yox,
Mənim, sənin ola Vətən.
Ah, ağlayır necə, necə
Yaslı evlər gecə-gecə.
Ağlayacaq bulud bacım
Ana Vətən gülməyincə.

## ANAM VƏTƏN

Bu yol hara gedir belə,
Buludları pillə-pillə.
Niyə susur qızılgüllər,
Anam vətən, bacım qürbət.

Göz yaşıma bu cür yanma,
Gülüşümə çox inanma,
Burda məni qərib sanma,
Anam vətən, bacım qürbət.

İki gözüm, iki qolum,
İki yurdum, iki yolum,
Heç bilmirəm necə olum,
Anam vətən, bacım qürbət.

Yol gedirəm, yolum uzaq,
Yolun gözü bulaq-bulaq.
Mən doğmayam, yoxsa qonaq,
Anam vətən, bacım qürbət.



## KÜR QIRAĞI

Kürü yamsılayır durna qatarı,
Burula-burula gedir havada.
İstəyib şəlalə olsun dağ qarı,
Qorxub sallaq qalıb elə qayada.

Kür baxır qayadan sallanmış qara,
Gülür, neçə yerdən yanağı batır.
Payız köç bağlayıb, köçür uzağa,
Yarpaqlar yelkəni, ləpələr atı.

Sahildən ağ quşlar havaya qalxır,
Elə bil meşədən qar yağır göyə.
Kötük ovuğundan düşüb su arxı,
Gözü qamaşmasın günəşdən deyə.

Tökür köç qabağı zər-yarpaq yerə,
Yolunu yumuşaq eləyir payız.
Meşədən səs gəlir, ceyrandı, bəlkə
Azmış ceyran kimi mələyir payız.

Tahir, bu payızı çox çəkmə bərkə,
Payız bu yerlərin il qonağıdır.
Günəşin yaylağı olmayır bəlkə,
Günəşin qışlığı Kür qırağıdır.

## PAYIZ YARPAQLARI

Kəklik yerişidir turac yerişi,
Ruhuma köçürüm yerişlərini.
Payız gülüşümdür sarı yarpaqlar,
Yığım meşələrdən gülüşlərimi.

Sarı noğul tökür ağaclar yerə,
Başlayır güllərin zər-xonça toyu,
Külək də gülləri əzməsin deyə,
Atını səyirdi, çapır Kür boyu.

Yarpaq yağımıdır qəhqəhələrim,
Bu qızıl yağışda meşə yuyunur.
Yol alıb gedirəm, sarı yarpaqlar
Şahlıq quşu kimi çiynimə qonur.

Günəşin soyumuş təbəssümləri
Yarpaq-yarpaq olub yerə ələnir.
İlişib ağca hələ neçəsi
Dəcəl uşaq kimi göydə yellənir.

Çıraq piltəsidir sarı yarpaqlar,
Köhnə lampalardan bəlkə küsüblər.
Bəlkə buna görə köhnə çıraqlar
Təzə mənzillərdən ayaq kəsiblər.

Tökülür yarpaqlar bəlkə də aydan,
Ayın gecələri, günləri sarı.
Kitab cilidləyim bəlkə onlardan,
Qışda oxuyaram bu kitabları.

## PAYIZ YOLA DÜŞÜR

Kür süd yuxusuna gedib elə bil,
Hərdən uşaq kimi dodağı qaçır.
Kür əyri qamçıya bənzəyir, nədi,
Dağların əlindən düşübdü bu qamçı.

Sığınıb qovağın mərmər köksünə
Çimirəm mən yarpaq yağışlarında.
Günəş gözlərini zilləyib mənə,
Yağır sarı yarpaq baxışlarından.

Bir ovuc su saxlar öz qucağında,
Ağacın beş illik qabıq yarası.
Yan-yana qonşudur Kür qırağında
Qaban eşənəyi, turac yuvası.



Qırqovul, yaşılbaş, soltantoyuğu
Oxuyur quşların xoşbəxti burda.
Bəlkə dinclik bilib bizim qoruğu
Səsləyir dünyanı bu doğma yurda.

Quşların səsindən bulud diksinir,
Tökülür üstümə pambıq gülüşü.
Buludun süd dolu döşləri çini,
Meşə sapsarıdır, dağlar gümüşü.

## DƏYƏR

*Dostum Adi.*

Söz demə ovçunun sözünün üstdən
Deyərsən, ağsaqqal sözünə dəyər.
Qeybət də hədəfsiz güllə kimidir
İzinə atarsan, düzünə dəyər.

Köçürtdün gözünə meşəni, çayı,
Yoxsa azalardı quşların sayı,
Atmadım güllənі, çəkmədim yayı
Dedim, üzdən iraq, gözünə dəyər.

Göylər quşa dönər tətiyi dartsan,
Çiyninə quş qonar bərəyə yatsan,
O qədər quş var ki, birinə atsan,
Gedib atdıqların yüzünə dəyər.

Bir az ayaq saxla, bir qədər otur,
Burda quşlar ötür, meşələr yatır,
Bir ağac qırılıb cığırı tutub,
Gəl, götür, ceyranın dizinə dəyər.

Mən ova gəlmişdim, düşdü tərsinə,
Özüm ova döndüm burda əksinə,
Tahir, güllə atma,
Quşlar diksinər,
Güllən yumarlanıb özünə dəyər.

## DURNA QATARI

Bu durna qatarı hansı gəlinin
Gümüş kəməridir uçur havada.
İndi o dilbərin, o incəbelin
Kəməri harada, özü harada?

Bu bizim həyətin kəhriz arxıdır,
Bəlkə su aparır uzaq ellərə.
Oğlumun mindiyi qamış qarğıdır,
Anası sındırıb verib yellərə.

Bəlkə sevgilimə bağışladığım
Sapı qırıq düşmüş boyunbağıdır.
Atamın arxamca tolazladığı
Bir sınıq həndəsə üçbucağıdır.

Kimin arzusudur, kimin dözümü
Uçur ömür boyu durna adında.
Anamın ağarmış kirpik düzümü
Durna qatarı tək qalıb yadımda.

Bu oxu kim atıb, nişansız hədəf,
Hara dəyəcəkdir bu ox görəsən?
Uç, durna qatarı, uç bizə tərəf,
Məndən xəbər tutub sevinsin vətən.

## MƏNZƏRƏ

Cığırlar burulub dırmaşıb dağa,
Elə bil dağ, dağa kəmənd atıbdır.
Oturub diz-dizə, dodaq-dodağa,
Qayalar elə bil yalda yatıbdır.

Döşünü irəli verib sərt qaya,
Kölgəsi çay üstdə sərin ipəkdir.
Şəlalə qayadan atılır çaya,
Çay həyat deməkdir, birlik deməkdir.



Çayı iki başdan ip kimi tutub
Ölçür, elə bil ki, dərəni dağlar.
Daşlar hər addımda suları dartır,
Çay düyün düşməsin burulan vaxtlar.

Yoldan çay tərəfə bir daş sürüşüb,
Dizini qatlayıb kündələyibdir.
Bu gecə zirvədən neçə daş enib
Çayın köynəyini düymələyibdir.

## DƏRƏ QIRAĞINDA

Dərə qırağında sallaq duraraq,
Uçuş səadəti gözləyirdi daş.
Dərənin dibində laləylə zanbaq
Onu səsləyirdi dərəyə birbaş.

Daşdan boylanırdı quş təbiəti,
Çil-çil sifətində sevinc var idi.
Ağır görünsə də daşlıq xisləti,
Uçmaq möhlətinə intizar idi.

Nə ağır keçirdi intizar illər,
Qolunu salmışdı güllər boynuna.
Nə xoşbəxt olardı uçsaydı, əgər
Dərin dərələrin güllü qoynuna.

Daşın quş olmağı necə də xoşdur,
Bir anlıq uçuşu olsa da belə.
Elə bil o, dərə ağzında quşdur,
Quş olmaq istəyir çaylar da elə.

Bir yanım dərədir, bir yanım da dağ,
Uçurum gözünü zillər gözümə.
Talesiz daşlar da gördüm burada,
Dağ özünə çəkir, dərə özünə.

## DAĞ ÇAYI

Dəniz bir ağ saçlı qocasa əgər,
Dağ çayı dənizin uşaqlığıdır.
Sıçram şəlalələr, sıçram ləpələr
Onun uşaq yaşlı şıltaqlığıdır.

Çay mavi fırfıra alıb əlinə,
Dərəni uşaq tək yüyürüb qaçar.
Daşları düyünlər biri-birinə,
Düyünlü yolları uçurub açar.

Əgər çıxmasaydı yoluna daşlar
Şıltağı, sürəti çox-çox olardı.
Çayla qanadlaşa bilməzdi quşlar
O, kamandan çıxmış bir ox olardı.

Bir az sakitləşir, bir az kiriyir,
Gəlib yetişəndə aran yaşına.
Yaşlı adam kimi asta yeriyir,
Dünya məhəbbəti dolur başına.

Çəkib dağ çayını sınağa bürkü,
O gülüb enlənir, yayılır düzə.
Dəniz cavanlaşır, qocalır hər gün,
Çünki dağ çayları axır dənizə.

Başlanır qabaqda düzənlik, aran,
Şıltaqlıq çaylara olur yad kimi.
Aranda buğlanır dağ çayı yaman,
Bərk qaçıb dayanan kəhər at kimi.

## QAYA

Bir kişi su vurur ağ saqqalına,
Dağ çayı gümüşü rəngə boyanır.
Lalə suda baxır öz camalına,
Qızarır sinəsi məğrur qayanın.



Ağzından daş qopur süd dişi boyda,
Dərə cingildəyir, çay mavi çini.
Neçə dağ, neçə çay qorxur o tayda,
Körpə yuxusunda güllər diksinir.

Dağ çayı oxuyur, körpəcə güllər
Qorxub saralmasın daş uçqunundan.
At kimi kişnəyib harın şəlalə
Buludu aşırır yalsız boynundan.

Mehriban dağların gül qucağında
Bulud süfrə olub yamyaşıl yala.
Nə qəmli görünür çay qırağında
Uca qayalardan qopan qayalar.

## ZİRVƏDƏ

Bulud ağ döşünü zirvəyə sürtür,
Boynuna ip atır şimşəklər dağın.
Yağmış buludlardan ağ cuna örtür
Güllü dərələrin gəlin qucağı.

Mənim ilham atım qalxar yoxuşu,
Quyruğu çay üstdə şəlalə olar.
Qopan qayaların qərib duruşu
Kirpiyimə qonar, ruhuma dolar

Dərə yarıyacan qar ilə dolub
Saxsı kasadakı südə bənzəyər.
Söyüd qar altında bir gəlin olub,
Oxşar dağ çiynində mərmər kuzəyə.

Yel vurar buludu döşdən kürüyər,
Kürünən buludun göyərər yeri.
Köpüklü çay kimi axar dərəyə
Yağışda yuyunub ağaran sürü.

Qar yağıb bu gecə döşə nə vaxtsa,
Quzeydə sürülər qardan seçilməz.
Gecə ulduzlara zirvədən baxsan,
Ulduzlar yetişmiş nardan seçilməz.

İpək qanadını qurudub dağda
Tez-tez tüstülənib yayılar duman.
Dərənin ağzından göyə qalxdıqca
Süzülmüş ipəyə bənzər uzaqdan.

## DAĞ YOLU

Dağın ağ qurşağı açılıb nədir,
Sürüşüb yol olub dağ ətəyində,
Dağdan sallanan yol şələ ipidir.
Onu dağ aşırıb öz kürəyindən.

Dağa qalxa-qalxa baş əyir yollar,
Yollar diz qatlayıb ikiqat olur.
Dağın da ağsaqqal qanunları var,
Dağa qalxa bilməz düz aran yolu.

Ey yolum, dik tutub dartma özünü,
Hərdən dirsəklənib aşağı sallan.
Qatla dağ önündə hərdən dizini,
Qalxıb, enə-enə zirvəyə yollan.

## ÇAYIN ŞIRILTISI

Layla çalır dağ çayı,
Huş aparır qayanı.
Xumarlanır dağ, dərə,
Bulud göydə dayanır.

Layla çalır dağ çayı,
Dağlar yatır yan-yana.
Hərdən yatan zirvələr
Dərələrə boylanar.



Daş düşər dağdan çaya,
Sınar suyun aynası.
Daş düşər, meşələrin,
Düymələnər yaxası.

Güllər yatır çay boyu,
Rəngi qızıl, gümüşü.
İncə dodaqlarında
Gəzir payız gülüşü.

Baldan şirin gülüşlər
Bulağın dodağında.
Bulaq xumar oxuyur
Daşların qucağında.

Layla çalır dağ çayı,
Ovsunlanıb dağ, dərə.
Güllər də heyran qalıb
Çaydan axan səslərə.

Uçurumu, qayanı
Huşa verib bu avaz.
Yoxsa oyansa dağlar
Dərələrə yer qalmaz.

## BOŞ QALMIŞ QƏBİR

Mənim 46-da qazılan qəbrim
Səngərlər içində səngərə döndü.
46 olsaydı. bir də ölərdim,
Məğrur ölüm üçün qəlbim döyündü!

Gərək öz vaxtında ölə hər adam,
Gec ölən özünü hörmətdən salar.
Bəzən bir ölümlə dəyişir zaman,
Onunla bir xalqı yaşatmaq olar.

Gərək öz vaxtında öləydim mən də,
Ancaq döyüşlərə əlim çatmadı.
Düşmənim dişliydi, zor idi, həm də
Dişli düşmənimə dişim batmadı.

Tarixdən bir içim ömrü borc alıb,
Mən vuruş gəzirəm doğma vətəndə.
Ancaq ürəyimdə bir arzu qalıb,
Gərək öz vaxtında öləydim mən də!

Gəzirəm, alnımda gəzdirirəm mən
Şərəfli bir xalqın ölüm andını.
Daha gizlətmirəm dodaqlarımda
Vaxtında ölməyin şirin dadını

Tarix, əlimdən tut, əlindən tutum,
Məni öz vətənim döyüşə səslər!
Azadlıq yolunda, ey ana yurdum,
Boş qalmış qəbrimi özümə göstər!

## ANAM

Xiffətlər yolumu yarıda qoydu,
Ümidlər qəlbimi taladı, soydu,
Ürəyim özündən bezikdi, qoydu,
Mənə ürəyini yetirsin anam!

Çalınsın fəryadım neydə, təbildə,
Sümüyüm çürüməz yoxsa qəbirdə.
Mən gedə bilmədim Təbrizə bir də –
Təbrizi yanıma gətirsin anam!

Çəkin üzərimə qara yapıncı,
Qoyun qapıları taybatay açıq,
Vətənə son şerim qaldı yarımçıq,
Şerimin sonunu bitirsin anam!



O tayın, bu tayın qulağı səsdə,
Qulağım tutulub bu son nəfəsdə.
Qoyun tüfəngimi sinəmin üstə,
Ölsəm, tüfəngimi götürsün anam!

Ey dünya, bu dərdim səni də yordu,
Gözümə tökdüyün güllədir, qordur.
Ana hər ölümdən güclüdür, zordur,
Məni son evimə ötürsün anam!

Ay zalım, atdığın dəydi hədəfə,
Gənclik arzularım döndü kələfə.
Mən körpə deyiləm, ancaq son dəfə
Məni qucağında yatırsın anam!

## SƏHVİM

Sakit küçələrdə, qərib çöllərdə
Qəlbim qanadlanar, həsrətlə gəzər,
Evlər ağlasa da bizim ellərdə,
Küçələr ağlamaz, küçələr dözər.

Su kimi üzümə çilənər hər gün
Bir adsız yetimin boğuq nəfəsi.
Qəlbimi yerindən oynadar bütün
Yurdumu bürüyən sızıltı səsi.

– Sənin adın nədir, yazıq yetimçə?
– Adımı Səhv qoyub babam – Nəticə...
Mən Səhvəm, kim doğdu məni, bilmirəm?
Boynuna almayır heç kəs səhvini.
Hamı məndə görür, məndə axtarır
Böyük azadlığın kiçik məhvini.

– Sən mənim səhvimsən, yaralı balam,
Gəzib keçmişini sən dilənirsən.
Bir səhvin düzündə didərgin qalan
Yaralı arzunla veyllənirsən.

Sən mənim, sən mənim səhvimsən bala,
Tarix səhv etmədi, zor etdi bizə.
Bir yol ayrıcında – döngə başında
Səhv ilə Nəticə durdu üz-üzə.

Sil, mənim yetimim, qara gözünü,
Səni görməyənlər səhv edir indi.
Sən mənim səhvimsən, daha ağlama,
Nə yaxşı mənim də səhvim bilindi.

## İKİ TALEYİM

Başlandı ömrümün misra yığımı,
Qəlbimin çağırış səsi yüksəldi.
Mən qoydum o tayda uşaqlığımı,
Döyüşkən taleyim mənimlə gəldi.

Bir dildə ikili könlümü dindir,
Bir ikən ikili olmusan, Vətən.
İkili yaşamaq sənə çətindir,
İkili həyata öyrənmişəm mən.

Qayğım ikilidir, imzam ikili,
İki paytaxtım var, yolu ikili
İkili ömrümü yaşamaq üçün
Sinəmin üstündən bir yol çəkilir.

Məndəki ikilik həmişə artır,
Ayrılır bir xalqın iki taleyi.
Qoşa qollarımın üstündə yatır,
Xoşbəxt taleyimlə bədbəxt taleyim.

Mən isə bir kiçik evdə onları
Güclü qollarımla birləşdirmişəm.
Mən iki taleyi, iki dünyanı
Kiçik bir ürəkdə yerləşdirmişəm.



Mən iki ürəkdə bir məhəbbətəm,
Mən iki sahildə bir böyük vətən.
Ey xoşbəxt taleyim, bədbəxt taleyim,
Bəs necə qurtarım ikiliyimdən?!

## TƏRİF

Tərifin qəribə hörməti vardır,
Tərifin neçə cür sifəti vardır.
Vardır başqasını pisləyən tərif,
Bir söyüş tərif var, bir ögey tərif,
Borc tərif, bey tərif, həm giley tərif.

Bir az tərifinin vaxtı keçəndə
Köhnə rezin kimi boşalır adam,
Durub tərif üçün qapılar gəzir,
Tərif naqqalını tapıb dincəlir,
Köhnə rezin kimi boşalır adam.
Acı xəmir kimi turşalır adam.

Hansı iclasdasa dəliqanlını
Dilucu təriflə cilovlayırlar,
Necə qarınqulu indi hardasa
Nəsə tərifləyib pilovlayırlar.

Olanı deyəndə ləzzəti olmur,
Olanı deyəndə bu tərif olmur,
İstəyir ver ona olan dünyanı,
Ləzzət vermək üçün gərək deyəsən
Onun qalmayanla, olmayanını.

Bəzən özləri də utanıb qalır
Başsızı başlıca tərifləyənlər.
Bir yaxşı adamı pisləmək üçün
Bir pisi yaxşıca tərifləyənlər.

Tərifin nə yaman hörməti vardır,
Tərifin necə cür sifəti vardır,
Ancaq tərif yoxdur,
Var düz, var yalan,
Tərifdir – yalandır nə varsa qalan.

## ÇAY DAŞLARI

Yuvarlaq üzləri safdır, hamardır,
Kirpiksiz gözləri çapıqlı, çil-çil.
Hamısı bir şəklə, bir rəngə düşüb
Dəvə loğmasıdır, sanki daş deyil.

Yeyib bir-birini kiçildib yaman,
Sürtüb bir-birini qırıb dağıdıb.
Yuvarlaq daşları, kiçik daşları
Çaylar dığırladıb, sular axıdıb.

Belə sürtünmədən nə alov çıxar,
Belə didhadiddən çaylar xoşlanar.
Bu dilsiz-ağızsız, əlsiz-ayaqsız
Daşlarda ayrılıq belə başlanar.

Sürüşkən, yuvarlaq olduqlarıyçün
Birləşə bilməyir,
Dağılır daşlar,
Kəsilməyə gedən sürülər kimi,
Dənizin ağzına yığılır daşlar.

## ŞÖHRƏT

Bir qu balıncına bənzəyir şöhrət,
Bir şirin yuxunu yamsılayır o.
Bəzən ayaqyalın çıxıb qabağa
Tərif gözəlini qarşılayır o.



Böyüklər bir adi şöhrətə uydu,
Kiçildi adında böyük məzəndə.
Axır istedadı avara qoydu
O, dahilikdən də, adilikdən də...

Mən bir məhəlləlik şöhrət qazandım,
Onu da itirdi kimsəsizliyim.
Mənə şöhrət oldu vətənə andım,
Bir də ki, vətəndə mənsəbsizliyim.

Şöhrətsiz gəzirəm iyirmi ildir,
Yolunu dəyişir şöhrət adamın.
Şöhrət dirilərə gərək deyildir,
Şöhrətsiz oğluyam mən də atamın.

Şöhrət eşqi vardır hər bir adamda.
Bir şöhrət qazanır dünyada hərə.
Şöhrətsiz olsam da, adsız olsam da
Qibtə etməmişəm şöhrətlilərə.

Şöhrəti tələsən şəxsə vermişəm,
Damcıyam düşmüşəm mən dənizlərə.
Şöhrəti hər yerdə sərxoş görmüşəm,
Gəlib qoşulmuşam şöhrətsizlərə...

## ŞÜŞƏ

Qarabağ – bir şair
Bir də nəğməkar,
Şüşə gülüşlərlə gülür üzümə,
Vaqif misrasına bənzəyən qızlar
Şirin yuxu kimi dolur gözümə.

Bir şüşə görmüşəm Cıdır düzündə,
Dağlar qucağında yatıb uyuyur,
Bir şüşə saxlayıb Şuşa özündə
Şüşədən hörülmüş nəğmə oxuyur.

Boylanma zirvədən, ey şimşək xəyal,
Yoxsa ki, ay kimi gözün qaralar.
Yavaş uç, qıy vurma, ey ana qartal,
Sınar qayalarda şüşə misralar.

Ey qızıl qələmli şüşə sənətkar,
Abidən hər eldə təzə qoyulsun!
Sən özün şüşəydin daşlar içində,
Gərək məzarın da şüşədən olsun!

## LÖVHƏ

Günəş harda çimir, görən, səhərlər,
Bağlıdır suların buz pəncərəsi,
Qışın sal körpüsü sərilib çaya,
Bağlanıb suların bəndi-bərəsi.

Çay üstə buz dəsmal çəkərək şaxta
Onu ütüləyir buz ütüsüylə.
O qış yuxusuna gedib nə vaxtdır
Çayın layla deyən iniltisiylə.

Yazın dəcəl qızı əlində qayçı,
Təzə paltar biçir vadiyə, çaya.
Çayların buzunu o kağız kimi
Qayçıyla doğrayıb tullayır suya.

Buzdan sınıq şüşə tutub gözünə
Çay baxır, günəşi yamsılayaraq.
Qatıb qabağına qovur dənizə
Ləpələr buzları qamçılayaraq.

## YARIMÇIQ QALMIŞ MƏKTUBLAR

Uzaq bir şəhərdə, tək bir otaqda
Şəklini qoymuşam kitab rəfimə.
Sən şüşə ardından baxırsan mənim
Sükuta qərq olmuş soyuq evimə.



Dəli bir qısqanclıq ayırdı bizi,
Bir səhvin düzündə didərgin qaldıq.
Arzudan tikilmiş mənzilimizi
Şübhə qurumları bürümüş artıq.

Sənə hər gün, hər gün məktub yazıram,
Yazdığım məktublar yarımçıq qalır.
Narahat sevgimdən aralandıqca
Sevgim azalmayır, sevgim çoxalır.

Şəklinə baxıram, gülüm, arada,
Yox, deyən, şəklinə qulaq asıram.
Yarımçıq qoyduğum məktublara da
Mən özüm yarımçıq cavab yazıram.

## GƏMİ BOŞ QALIR

Yenə küsülüyük, yenə gileyli,
Ayrılıq uzaqdan göz vurur bizə.
Qumların üstündə quru çınqılla
Bir gəmi çəkirsən üzü dənizə.

Sonra da minirsən, gözlərin dolur,
Qalırsan sən ilə mən arasında.
Ən kövrək, ən ülvi düşüncələrdən
Ağ yelkən açırsan qum səhrasında.

Hələ ayrılmamış geri dönürsən,
Mənim sahilimə tələsir gəmin.
Mənsə o yolları gedib gəlmişəm,
Dəyişib yollarda o ilk görkəmim.

Umular, küsülər qalır arxada
Üzünə bir qorxaq təbəssüm qonur.
Məsum bir gülüşlə, peşman dönüşlə
Açılır bir eşqin gileylik donu.

Güzəşt körpüsündə qucaqlaşırıq,
Sevgimiz güzəştdən bir lövbər salır.
Biz yenə dönürük sevgi evinə,
Qumlara çəkdiyin gəmi boş qalır.

## NƏĞMƏ

*Təbrizin "Qaragilə" mahnısına*

Yenə hardan uçub göyərçin kimi
Oturdun sinəmin qübbəsi üstə?!
Eşqi daşa dəymiş bir gəlin kimi
Ağladın ilk eşqin qönçəsi üstə!

Səsin axıb gedən bir bulaqmıdır,
Mənə pıçıldayıb sən nə deyirsən?
Sinən alov çəkən bir ocaqmıdır,
Mənə od verirsən, od istəyirsən.

De görüm, o məğrur həzin səsində
Sən kimi daima səsləməkdəsən?!
Ürəklər yandıran od nəfəsində
Kimin arzusunu bəsləməkdəsən?

Sən oldun ağzına qıfıl vurulan,
Dilsiz sevgilərin mehriban dili.
Sən çəkdin hicrandan, qəmdən yorulan
Bir qızın saçına nəvaziş əli.

Səsləndin zamanın qulaqlarında,
Doğdu öz qoynundan arzular səni.
Əsgərin qurumuş dodaqlarında
Hücuma apardı ordular səni.

Sənə qanad verən, sənə can verən
Odlu sözlərini hicran yazıbdır.
Havanı, hər gündə bir hava görən
Bir qanlı, alovlu zaman yazıbdır.



Bilmirəm qədimsən, təzəsən, nəsən,
Baş əyir ən qədim məbədlər sənə.
Sədd çəkə bilməyir, mənə sədd çəkən
Xəndəkli, tikanlı sərhədlər sənə.

Ağlama, qoy silim gözünü yaşdan,
Zaman öz hökmünü bildirəcəkdir!
Təbriz ağladıbdır səni bir zaman,
Səni Təbriz özü güldürəcəkdir!

## VİCDAN

Səndən izn istədi hər söz, hər dilək,
Sənə insan verdi bu həqiqəti.
Hakimsən, hökmünü söyləyir ürək
Hökmün ildırımdan, qılıncdan iti!

Gah ürək ağrısı, gah dərd olursan,
Qüdrətin, verdiyin əzabındadır.
Sənin yarandığın, olduğun ünvan
İnsanlıq sözünün kitabındadır.

Sənə gah gec baxan, gah yalan deyən
Səndən ulduz qədər uzaq olubdur.
Sənin göstərdiyin yolla getməyən,
Özü öz içində dustaq olubdur.

Demə sən yerini, görünmə yada,
Desən zindanlayar min günah səni.
İnsan yaradıbdır bizim dünyada,
İnsanın özünə son pənah, səni.

*1958*

## QARDAŞ

Mən sənin bacınam, qocaldım, aman!
Qara saçlarıma çökdü ağ duman.
Səni mən gəzirəm, səni hər zaman,
Ey mənim ömrümün dayağı, qardaş!

Hər it öz burnunu uzatdı mənə,
Hər kəs eşqə düşüb əl atdı mənə,
Hər vicdan oğrusu göz etdi mənə,
Qaçmadı bacının dodağı, qardaş!

Mən vətən demişəm, dilim yanıbdır,
Mən bahar demişəm, gülüm yanıbdır.
Odumla odlanıb elim yanıbdır,
Qanayıb nəğməmin dodağı, qardaş!

Başımdan tufanlar dolaşdı keçdi,
Sinəmin üstündən sel aşdı keçdi.
Ömrüm bir çay idi, o daşdı keçdi,
Sındı qızılgülün budağı, qardaş!

Düşmən unutmasın qoy sözlərimi,
O, bükə bilmədi bu dizlərimi,
Tutsa da bir anlıq yaş, gözlərimi
Yenə də görürəm uzağı, qardaş!

Görürəm, gəlirsən yüz ər içində,
Atın şeyhə çəkir qan-tər içində,
Səni gözləyirəm ellər içində,
Gəl ey ümidimin mayağı, qardaş!

## ŞANLI ƏSGƏR

Şanlı əsgər, düz nişan al hədəfi,
Vətən sənə oğul deyib güvənsin!
Qoru doğma vətənini, xalqını,
Vətən sənə oğul deyib güvənsin!

Xalq yolunda səngər-səngər dayan, dur,
Qarı düşmən qəsd eləyir, amandır,
Vur döşündən, kəs yolunu, dayandır,
Vətən sənə oğul deyib güvənsin!



Vətən ana qucağıdır oğula,
İgid oğul döyüşlərdə doğular,
Vur düşməni, dizə çöksün yağılar,
Vətən sənə oğul deyib güvənsin!

Şanlı əsgər, yolun vətən yoludur,
Vətən yolu müqəddəsdir, uludur.
İrəli get, sil bu yoldan buludu,
Vətən sənə oğul deyib güvənsin!

## AZƏRBAYCAN ORDUSU

*Marş*

Sən qeyrətdən, rəşadətdən doğuldun,
Şanlı doğma, Azərbaycan Ordusu!
Haqdır yolun, ədalətdir istəyin,
Şanlı doğma, Azərbaycan Ordusu!

Bayrağında ay-ulduzdan ağ çələng,
İrəli get, dəniz kimi ləpələn,
Düşmən üstə mərmi kimi səpələn,
Şanlı doğma, Azərbaycan Ordusu!

Müqəddəsdir ana yurdun torpağı,
Zəfərlərdən gəlsin daim sorağın,
Sənsən böyük bir millətin dayağı,
Şanlı doğma, Azərbaycan Ordusu!

Hər bir zəfər səninlədir döyüşdə,
İrəli get bir yenilməz yürüşlə,
Allah sənə kömək olsun bu işdə,
Şanlı doğma, Azərbaycan Ordusu!

## ÇAĞIRIŞ

Oğlum, ana Vətən alovda yanır,
Fəryadı, harayı ərşə dayanır,
Yandır yandıranı, cəzası budur!
Öldür öldürəni, qisası budur!

Qana qan, gücə güc, zora zor elə!
Vətəni düşmənə qanlı gor elə!

Qardaş, doğram-doğram olub uşaqlar,
Qan gölü üstündə üzür qundaqlar,
Tək sənə güvənir didərgin ellər,
Topa top, oda od, gülləyə güllə!

Atam, çağırıram, cəbhəyə səni,
Mən sənin ananam, ana vətənin!
Gülləni azğının tuşla gözünə,
Qanını səpələ dünya üzünə!

Bayrağım, dalğalan başımın üstə,
Kölgə sal alovlu döşümün üstə!
Qeyrət babalardan sənsən yadigar,
Qansan, məhəbbətsən, bir də iftixar!

*aprel, 1992*

## BURA CƏBHƏ XƏTTİDİR

Tuğ dağının buludları sıxlaşıb,
Dərələri dərdlə dolub, dağlaşıb,
Çaylar, yollar kəsişərək bağlaşıb,
Döyüşçülər Tuğa çıxıb tuğlaşıb,
Bura cəbhə xəttidir.

Bu il burda bənövşəni dərən yox,
Çəmənliyin gülüşünü görən yox,
Bulaqlara qız öpüşü verən yox,
Baxt evinə maşın qovub sürən yox,
Bura cəbhə xəttidir.



Ceyranların sürüləri ürküşüb,
Çöl toyuğu göl içində kür düşüb,
Səngər evlər çəkiş-çəkiş bərkişib,
Quzuların süd nəfəsi təngişib,
Bura cəbhə xəttidir.

Gül götürüb nəm barıtın iyini,
Çalır çoban tüfəngində neyini,
Qorxu kəsib mal-qaranın heyini,
Qız bulaqlar pıçıldaşır, deyinir,
Bura cəbhə xəttidir.

Qara tüstü ağ buludu yallayır,
Çulsuz duman dağ çayını çullayır,
Mərmi kəhər küləkləri nallayır,
Dovşan qurda xəbərdarlıq yollayır,
Bura cəbhə xəttidir.

Alma, armud, ərik tikan gətirib,
Bu gün lalə al rəngini itirib,
Nə əkirlər torpaq giliz bitirir,
Tarlalarda qızlar silah götürüb,
Bura cəbhə xəttidir.

Yaralı yol, qanlı yamac küsülü,
Bülbüllərin gül cəh-cəhi kəsilib,
Çay quruyub beli, qolu nəzilib,
Qıy vuraraq qartal bizi səsləyir,
Bura cəbhə xəttidir.

## HÜCUM

Axşam vuruşu idi, günəş batırdı,
Tanklar danışırdı, toplar, qradlar,
Düşmən ümidini top-top atırdı,
Göydə ulayırdı uçan poladlar.

Hərdən "Əli" sözü havalanırdı,
Bir də son nəfəslə çıxan bağırtı.
Uzaqda boşalan bir kənd yanırdı,
Yanğınlar içində dəli hayqırtı.

Qrad yağışını yarıb keçərək,
Tanklar dırmaşırdı ümid dağına,
Bu gecə ön cəbhə çıxaydı gərək,
Ağdərə yolunun sol qırağına.

Yanımda yaralı cavan bir əsgər,
Əlimi tutaraq bərk-bərk sıxırdı,
Başının altında cırıq bir təkər,
Hərdən gülə-gülə mənə baxırdı.

Gecə titrəyirdi top nərəsindən,
Dolurdu tankların bəbəklərinə.
Toplar qızıl düymə tikirdi hərdən,
Yaşıl yamacların ətəklərinə.

Yaralı əsgərin damırdı qanı,
Ağrılar içində tez-tez gülürdü.
Bu gecə o qalib olacağını,
Bir də ölümünü yaxşı bilirdi.

## ALLAH, MƏNƏ ÖZ GÜCÜNDƏN GÜC VER BİR AZ DA

Qabaqdakı o təpəni almalıyam mən,
Allah, mənə öz gücündən güc ver bir az da.
Mərmi olub səngərlərə dolmalıyam mən,
Allah, mənə öz gücündən güc ver bir az da.

Qradları, minaları göyə sovururam,
Köksüm üstə qorğa kimi güllə qovuram,
Üstümüzə gələn tankdan xəmir yoğururam,
Allah, mənə öz gücündən güc ver bir az da.



Məni xalqın qabağında üzü ağ elə,
Atam, anam nigarandır, saxla, sağ elə,
İradəmi döyüşlərdə uca dağ elə
Allah, mənə öz gücündən güc ver bir az da.

Budur, düşmən hədəfimi uzaqdan seçir,
Mən duyuram gülləm onun alnından keçir,
Tankım çapır, qaçanları arxadan biçir,
Allah, mənə öz gücündən güc ver bir az da.

Məndən hər gün dostlarıma xoş xəbər çatsın,
Vətənimin iftixarı, qüruru artsın,
Hər hücumum bayrağımı bir boy ucaltsın.
Allah, mənə öz gücündən güc ver bir az da.

## APAR BU MƏKTUBU ANAMA ÇATDIR

*Ağdərə cəbhəsində bir əsgər Ağoğlan Hüseynova məktub verib xahiş etdi ki, onu anasına çatdırsın.*

Sənə yalan deyə bilmədiyimdən,
Səndən gizli gəldim cəbhəyə, ana.
Bağışla bir yol da günahımı sən,
Öpüb baş əydiyin böyük Qurana.

Bilirdim, ağlayıb yalvaracaqdın
"Mənə rəhmin gəlsin, gözlə özünü!"
Mənimlə cəbhədə olur nə vaxtdır
Ana tapşırığın, ata dözümün.

Bəlkə də Allaha çatıbdır duan,
Məni güllə tutmur heç bir hücumda.
Sənin göz yaşını görürəm, ana
Bir də ağ saçını vətən borcumda.

Yüz gəldik, sayımız azalıb yüzdən,
Ancaq qoruyuruq ana torpağı.
Sənə baş əyirik biz üçümüz də
Bir tankın içində hücum qabağı.

Bayrağım üstündə "Ay-ulduz"um sən
Bayrağım, vətənim, hər sözüm – ana.
Qayıdıb zəfərlə öpər əlindən
Ya qanlı köynəyim, ya özüm, ana.

Düşmənin amanı kəsilib bütün,
Bu gecə üç kəndi almalıyıq biz.
Əgər qismət olsa sabah, biri gün
Şəhid zirvəsində olmalıyıq biz.

## ELƏ

*Şair dostum Şamil Əsgərə*

Şamil qardaş, yol açılıb gəlirəm,
Az bu qələm dostlarına lağ elə.
Bir tüfəngdən ikimiz də atarıq,
Mən gələnə tüfəngini çağ elə.

Bayrağımı dağ çiyninə örtərəm,
Üz-gözümü dağ-daşına sürtərəm,
Qarışaram səngərlərdə itərəm,
Qollarını başım üstə tağ elə.

Yüz cür daşın, min cür orda rəngin var,
Qayalarda nərildəyən çəngi var,
Döyüşlərdə dağ havası, həngi var,
Allah, belə xalqı, yeri sağ elə.

Gülləbatmaz bir sipərsən vətənə,
Tər çiçəksən, qantəpərsən vətənə,
Həm qalasan, həm çəpərsən vətənə,
Nər döşünü yad önündə dağ elə.

O dağlarda yad kölgələr sürünür,
Düşmən aşıb sərhədimə dirənib,
Tahir, indi dağlar dağa güvənir,
Xalqa güvən, damağını çağ elə.



## QURBANAM

Dağ gücü var, dağ dözümü, qeyrəti,
Bu ellərin qeyrətinə qurbanam.
Azəri, kürd, ləzgi, talış, gürcü, rus
Hamısının millətinə qurbanam.

Torpaq olub doğma vətən hamıya,
Burda hamı bir bayrağı tanıyar,
Bir-birinin yarasını sarıyar,
Millətlərin vəhdətinə qurbanam.

Dünya böyük, tamah cılız, nədəndir,
Sarsaq düşmən kiçilərək gedəndir,
Qeyrət olsa əl boyda yer vətəndir,
Bu vətənin şöhrətinə qurbanam.

Qeyrət elə düşmən aşıb həddini,
Viran qoyub şəhərimi, kəndimi,
Qır qolunu, ürəyinin bəndini,
Qıran əlin qüvvətinə qurbanam.

Neçə əsgər yığılıbdır dövrəmə,
İstəyirlər oynamağı öyrənəm,
Vedrə çalıb şadlığından kövrələn
Oğulların söhbətinə qurbanam.

## YAXŞILIQ

Bir Allah var, yaxşılıqdır gözümdə,
O var olub hər bir kəsin özündə,
Gəz Allahı sən yaxşılıq sözündə,
Kasıbların pənahıdır yaxşılıq,
Allahların Allahıdır yaxşılıq.

Yaxşı olma yaxşılıqdan ötəri,
Yaxşılıq et, qoy olmasın xəbəri,
Ək, dünyada birə yüzdür səməri,

Qızıl taxıl dənəsidir yaxşılıq,
Kimə versən dənəsidir yaxşılıq.

Ay acı dil şirin söz qoy dilinə,
Əl uzatdım əlini ver əlimə,
Sən də əl tut öz xalqına, elinə,
Əl atmaq yox, əl tutmaqdır yaxşılıq,
Öz-özünü unutmaqdır yaxşılıq.

Yaxşılığa qoyulmayıb tərəzi,
Yaxşılıq et sil qəlbindən qərəzi,
Böyüklükdə yoxdur onun əvəzi,
Arşın ilə ölçülməyib yaxşılıq,
Pislik ilə kiçilməyib yaxşılıq.

Pislik etmə, heç vaxt üzün ağ olmaz,
Pislik gəzən yaxşı olmaz, sağ olmaz,
Eşələrsən, dərə olar, dağ olmaz,
Dərələri nurla doldur, yaxşılıq,
Yaxşı olmaq çətin yoldur, yaxşılıq.

Yaxşılıqla yola gətir hər pisi,
Qızıl elə qara daşı, göy misi,
Al tənbəli, ev yıxanı, hərisi,
Bu dünyaya layiq elə, yaxşılıq,
Layiqləri ayıq elə, yaxşılıq.

Mən xalqımdan çox yaxşılıq görmüşəm,
Öz payımdan hamıya pay vermişəm,
Yaxşılıqdan qızıl saray hörmüşəm,
Qal baxtımın sarayında, yaxşılıq,
O tayında, bu tayında, yaxşılıq.

## SAĞ OL

Gətirdiyin bu hədyədən nə qəsdin,
Mənə sağ ol deyibsənsə, bu, bəsdir,
Bundan sonra nə versən də əbəsdir,
Mən "sağol"un qurbanıyam, sağolmuş,
Sağ olmayıb kim "sağol"a" ağ olmuş.



Babam pula can deyənə qul dedi,
Qul nədir ki, iki üzlü pul dedi,
Mal-dövlətə palan dedi, çul dedi,
Sağol idi hər səfərdən sovqatı,
Sağol idi başdan-başa həyatı.

Saqqalının süd işığı bulaqda,
Əllərinin bərəkəti budaqda,
Alın təri dən-dən olub torpaqda,
Sağ ol baba, əlin, qolun var olsun,
Allah sənə hər bir yerdə yar olsun.

Mən dadmışam xalqın "sağol" balından,
"Sağol" tutub hər bir yerdə qolumdan,
Neçə illik səfərimdən yolumdan,
Evə bir cüt qəşəng "sağol" gətirdim,
Hər şey verdi, mən "sağolu" götürdüm.

Mənim xalqın sağolluqdan doğuldu,
O, hər xalqa, hər millətə oğuldu.
Xalqın elə bir adı da "Sağoldu",
Xalq nədir ki, salamlardır, sağollar.
Bir sağola yüz yaşayan oğullar.

Atam düşdü dağa-daşa, meşəyə,
Qoymadı ki, möhtac olaq bir şeyə,
Bir yol sağol deməmişəm kişiyə.
Nə olar ki, mən gedənə sağ ola,
Gedib dönüm qabağında "sağola"

Mənim xalqım sağolluqda birinci
Hər sağolu bir səadət, bir inci.
Mənəm onun sağolunun sevinci
Mən xalqımdan bir "sağol" da alaram
Qismət olsa sağol baba olaram.

## SALAM

Babaların, nənələrin ruhu nur,
Ağ saqqalı, ağ birçəyi şah qurur,
Sən hər salam söyləyəndə onların
Xalq sevinci gözlərində bərq vurur.

Salam söylə, eşitməsə qocalar,
Xalq eşidər, xalqın başı ucalar,
İnsanların dodağında güllənər
Salamdakı qoşa-qoşa hecalar.

Salamını udma, udan dönükdür,
Xalq işində o soyuqdur, sönükdür,
Nə fərqi var, – böyük olsun, ya kiçik,
Kim olsa da salam verən böyükdür.

Mən dünyanı sevindirdim salamla,
Dəyişmədim onu pislə, haramla,
Salamının səsi gəlsin uzaqdan,
Mən sevinim qürbət eldə balamla.

Salam borcdur, borcunu ver hamıya,
Bu borc ilə hamı səni tanıyar,
Bir gün salam eşitməsə hamıdan
Qocaların kövrək qəlbi qanıyar.

O, sərvətdir, paya gənclik zamanı,
O, hörmətdir, hörmətləndir insanı,
Qocalanda yığacaqsan birbəbir
O hörməti, o izzəti, o şanı.

Tahir, salam hər ürəyə pəncərə,
Onun ilə umu-küsü incələr,
Narahatdır təbiəti insanın,
O, salamla, xoş kalamla dincələr.



## MƏN

Mən elə bir qəhrəmanam
Kirpiklərim arasında
İldırımlar yuxlamışdır,
Səttarxanla, Xiyabani
Öz alovlu qılıncını
Kəmərimə bağlamışdır.
Yumruqları düyünlənmiş
Azərbaycan səngərimdir
Ana torpaq, ata yurdum,
Məşrutiyyət bəşərimdir!
Heç kəs, heç kəs qıra bilməz
Mübarizə qürurumu,
Özüm, özüm çalacağam
Köhnə əsrin başı üstdən
Öz qələbə şeypurumu!
Mən düşmənəm bir millətin
Ürəyinin tellərindən
Cıqqa qoymuş bir düşmənə!
Yaxındasan, ey qələbə!
Tut əlimdən, ey gələcək!
Xalq zirehli inqilabdan
Toy paltarı biçir sənə!
Toy paltarı biçir sənə!

## QAYITMIŞAM SƏNGƏRİMƏ

On doqquz il
Gəmirsə də zülmət məni.
Mən zülmətə baş əymədim,
Ona iman gətirmədim.
Beş addımlıq bir məhbəsdə
On doqquz il yol yeridim,
Öz yolumu itirmədim.

Yol gözləmək adətilə,
Bir də işıq həsrətilə
Kirpiklərim uzanmışdır.
Azadlığın yolundakı
Ağartdığım yollar isə
Qurşaq kimi kəmərimə
Dolanmışdır...
Qabaqdakı yollarımı
Qılınc ilə doğradılar,
Yamadılar sifətimə;
Mən bir illik azadlığı
Satın aldım on doqquz il
Dustaq olmaq qiymətinə.
Qabağımdan çəkil yağı!
Üzərimdən sovuş, çovğun!
Mən gedirəm on doqquz il
Ürəyimdə qövr eyləyən
İnqilabı bir də doğum.
Mən gedirəm,
On doqquz il bundan qabaq
Şahə qalxmış tufanları
Cilovlayıb bir də çapım;
Çıx qarşıma, qoca tarix,
Aç qolunu, ana torpaq,
Zindanları uçurmağı
Tapşır mənə,
Göstər mənim öz yerimi
Döyüşlərin səngərində!..

## TƏBRİZİ GƏZİRƏM

Dağlar içi, bağlar içi
Evlər yastı, evlər kiçik.
Mən Təbrizi axtarıram,
Qırış-qırış üz görürəm.
Boş damların,
İşsiz gəzən adamların



Kirpiyində
Salxım-salxım buz görürəm,
Yarı canın yer altında,
Yarı canın yer üstündə;
Qəbristanlıq daşlarından
Çəpər çəkdi dörd yanına,
Bəlkə sirrin görünməsin
Başqasına...
Qaranlıqda evimizi
Axtarıram,
Əlim dəyir sərbazların süngüsünə,
Ajanların şaşqasına

Sən bu saat boy-buxunda
Nyu-Yorka, Vaşinqtona çatmalıydın,
Şəbüstəri, Mamağanı
Sən özünə qatmalıydın.
Dırnaq-dırnaq qopartdılar,
Noxud-noxud çeynədilər,
Kərpic-kərpic apardılar.
Bir məhəllən daşınaraq
Nyu-Yorkda tikilmişdir;
Bir məhəllən Tehrandadır,
Hələ neçə məhəllən var –
Öz içində zindandadır.

## DAHA

Dərdi dərd olmuşdur elin də mənə,
Ağladım, bir naşı güləndə mənə,
Heç kəs ağlamasın öləndə mənə,
Mən heç vaxt, heç zaman ölmərəm daha!

Azad qardaşım var, onunla xoşam,
Mən gərək sahili sahilə qoşam,
İki bölünməkdən elə qorxmuşam
Çöpü də ikiyə bölmərəm daha!

Dənizlər, dəryalar mənə dayazdır,
Ən dərin bir çay var, o da Arazdır.
Mənə görüş verin, azadlıq azdır,
Görüşsəm ayrılmaq bilmərəm daha.

Ömrümdən qürbətlər, yadlar qovulsun,
Keçmişim yiyəsiz qaldı, qoy olsun!..
Ancaq gələcəyim mənimki olsun,
Mən onu ömrümdən silmərəm daha!

Mənim səadətim hardasa itdi,
O asan gəlmişdi, asan da getdi,
Mənə nə etdisə səadət etdi,
Bədbəxt səadətə gülmərəm daha!

Qorxaqlar önümdə çöküb əyilsin,
Vətənsiz vüqarım göyə dikəlsin;
Deyin azadlığa ardımca gəlsin,
Mən onun ardınca gəlmərəm daha.

## AZADLIQ

Bir söz yayılmışdır el arasında,
Mənə insan kimi azadlıq gərək!
Azadlıq, durmuşam boy sırasında,
Görüm, mənə haçan növbə gələcək.

Tarix kitab-kitab, nəsilbənəsil
Aşığı olmuşdur bu doğma yerin.
Sabahkı azadlıq mənə bəs deyil,
Mənə daha böyük azadlıq verin.

Böyüklər qoy əvvəl azadlıq alsın,
Mən isə kiçiyəm, dözərəm bəlkə.
Yox, qoy bu kiçiklik, böyüklük qalsın
Azadlıq alanda hər hansı ölkə.



Gurulda ildırım, parılda şimşək,
Bir də ayaq altda qalmasın vətən.
Bir odlu-alovlu bayraq edərək
Onu başım üstə qaldırmışam mən.

Azadlıq istəyir qəhrəman elim,
Odur inqilabın gücü, arxası.
Gərək azadlığa mən qurban verim,
Qurbansız yaşasın onu başqası.

Canımda odu var dəmirin, misin,
Canımdan sıyırıb qılınc çalaram.
Heç kəs azadlığı mənə verməsin,
Mən onu tarixdən özüm alaram!

## KİMƏ NƏ ETMİŞƏM

Sona buludların qəmli köçündə
Gözümü sabahkı günə dikirəm.
Mən fikri başımdan qovmaq üçün də
Təzədən nə qədər fikir çəkirəm.

Göz fikri asılır kirpiklərimdən,
Bəzən də isladır yanaqlarımı.
Söz fikri əlindən yorulmuşam mən,
Söz fikri batırdı qulaqlarımı.

Fikir yelkənilə yol gedir insan,
O bəzən fikirli bir bulud olur
Mən bulud olandan, bulud olandan
Ürəyim boşalır, gözlərim dolur.

Kimə nə etmişəm pislik adına,
Bu yerdə yaxşılıq etdim o ki var.
Bir-bir o günləri saldım yadıma,
Gördüm, pislik olub o yaxşılıqlar.

Mən öz düşmənimə rəhm etdim nədən,
Dedim, bağışlasın düşmən düşməni.
Mən küsdüm dostlaşmış düşmənlərimdən
Vurdu düşmənləşmiş dostlarım məni.

Gizlədib sarsılmış qibtələrimi,
Qəlbimdən həsrəti, kədəri sildim.
Ağlımın çatmayan nöqtələrini
Yaxşı ki, şeirlə doldura bildim.

## ZİNDANDA MƏHBUS

Ölümün əlini tutdum əlimdə,
O yandım deyərək əlini çəkdi.
Qaçır, məndən qaçır daha ölüm də,
Mənə ölüm gülə bilməyəcəkdir.

Ürəyim ağrıyır, başımda ağrı...
Ağrılar arzumun üsyan səsidir.
Bəlkə də gedirəm ölümə doğru,
Ölüm də həyatın bir hissəsidir.

Ölüm, aparanda o iki əlli,
Həyatsa verəndə tək əlli verir.
Gör, mən nə gündəyəm, düşünüb məni
Hamı öz bəxtinə təsəlli verir.

Mənim bu günümə gül, ey hərami!
Mənim sabahımın adını çəkmə.
Elə öləcəyəm dirilər hamı
Qibtə edəcəkdir bu ölməyimə.

Sən bil ki, bu qandal, bu zor, bu söyüş
Önündə iradəm əyilməyəcək.
Gözlərimdən qəzəb, üzümdən gülüş
Heç zaman, heç zaman əskilməyəcək!



Ölsəm də, qoy anam batmasın yasa,
Bu həyat vuruşa bilmək üçündür.
Şərəfsiz həyatda bir insan olsa
Bilin, o şərəflə ölmək üçündür!..

## ÖLÜM QARŞISINDA

Bu gün mən ölümü gördüm salonda,
O artıq mənimlə üz-üzə durmuş.
Arıq çiyinləri zərli paqonda
Qaşqabaq tökərək tənha oturmuş.

Qan damır ölümün kirpiklərindən,
O öz qüruruyla bizdən seçilir.
Azadlıq, səadət çağırdıqca mən
Gözümdə qəzəbli ölüm kiçilir.

Qaralır elə bil gözünün ağı,
Sifətində qorxu, döşündə xəfə.
Ölüm də ölərmiş, doğrudur, axı
Ruzbeh öldürmüşdü onu bir dəfə.

Qoy ölüm əyilsin mənə həmişə,
Onu öldürərəm ölməzdən qabaq.
Nə qədər ölümü öldürməmişəm
Zindanla məhkəmə boş qalmayacaq.

Gözləyir məni də neçə qurğuşun
Sərbazla, süngüylə kəsilib önüm.
Gör neçə ildir ki, burda vuruşur
Ölən ölüm ilə yaşayan ölüm.

## TƏNHALIQ

Elə ki mən ondan uzaqlaşıram,
Buludlar od tutub yanır ahımla.
Onun xəyalıyla qucaqlaşıram,
Yatıram sevimli tənhalığımla.

Tənhalıq, yat, gülüm, bir qədər uyu,
Unut sən nağılı, sən laylanı da.
Qolumu başının altına qoyum,
Yerimiz daralır bir çarpayıda.

Bəs niyə dünyada dostum qalmadı,
Düşmən qazanmışam dostluq edəndən.
Qapımı o qədər açan olmadı
Səni də qapımdan qovlamadım mən.

Sükutda əriyir fikirlərimiz,
Nə az danışansan, necə də sərin.
O qədər yaşadıq bir mənzildə biz
Axır ki, dilini öyrəndim sənin.

Kimdir səni sayan bu xoş zamanda,
Saymazlar içində sən məni saydın.
Gəl, orda oturma, otur bu yanda,
Sən nə edəcəkdin, mən olmasaydım.

## AĞIL

Mənə elə gəlir hər şeyi duyan
Ürək özü hələ duyulmamışdır.
Həm də bu dünyanı xaraba qoyan
Ürəksiz ağıllı az olmamışdır.

Ağlın yollarıyla yüksəlir insan
Ağla haqq yol deyən düzü ürəkdir.
Böyük ağılları xalqa tanıdan
Ağıllı ürəklər bizə gərəkdir.

Sevgim ürəyimdə sətirbəsətir,
Sevgiyə ağlımın gözləri dardır.
Məktəblər, kitablar ağıl öyrədir,
Ürəksə əvvəldən hamıda vardır.



Bəzən qəribədir, mən ağlım ilə
Nə razılaşıram, nə birləşirəm.
Mənə qoy ağılsız desinlər elə
Mən öz ürəyimlə fikirləşirəm.

## GƏNCLİYİM

Ey payız gəncliyim, əyil, qoy sənin
Alnından yorğunluq tərini silim.
Qoy öz gəncliyimin bir hissəsini
Mən də qocalığa saxlaya bilim.

Gəncliyim vuruşdu, dərədə, dağda,
O odlar-alovlar yolunu seçdi.
Nə deyim, nə yazım gəncliyim haqda,
Gəncliyim qocalar içində keçdi.

Qocalıq deyirlər ömrün qışıdır;
Onu tanıyıram gəncliyimdə mən.
Qocalıq, qocalıq mənə tanışdır
Hələ ən ağıllı körpəliyimdən.

Yandırın, yandırın göy işıqları
Gənclik günlərimin karvanı getsin.
Gəncliyim təbəssüm bilmədi, barı,
Qocalıq üzümə təbəssüm etsin.

## DÜŞMƏNSİZƏM

Mən yenə qalıram öz inadımda,
Düşmənsiz olmuşam iyirmi ildir.
Yoxdur bir düşmənim düşmən adında,
Varsa, onlar dostdur, düşmən deyildir.

Əbədi deyildir dostluq deyirlər,
İnsana yenə də dostluq qalacaq.
Ancaq üzü dönsə dostunun əgər
O sənə ən qəddar düşmən olacaq.

Yaxşılıq gəzmişəm hər bir insanda,
Onun pisliyindən iyrənməmişəm.
Mənə dost deyiblər, düzü, hər yanda,
Mən düşmən olmağa öyrənməmişəm.

Dostluq badəsini içib sərinlə,
Ey qərəzsiz ürək, incimə məndən.
Bütün kiçik-kiçik düşmənlərimlə
Yenə də, yenə də düşmənsizəm mən!

## HƏQİQƏT

Həqiqəti axtarırıq
Qapı-qapı bu nə işdir?
Həqiqətsə gözlərdəki
Parıltıdır,
Üzlərdəki qızartıdır,
Sözlərdəki titrəyişdir.

Gec deyilmiş həqiqətin
Kişilərdən nə minnəti,
Çox vaxt düzü, qadınlardır
Kişilərdən daha artıq
Üzə çəkən həqiqəti.

Sıyıranda qılıncını
Qılıncları yerə əyir;
O, ağıllı söylənilmiş
Yalanlardan başqa daha
Heç bir şeydən çəkinməyir.

Həqiqəti eşidəndə
Bir az qorxur adam, düzü,
Hətta qorxur, cəsarətlə
Onu tapıb deyən özü
Həqiqətsə səbirlidir,
Gecikdirir son sözünü;



Əvvəldə yox, sonda deyir
Bəzən yalan, ya iftira
Öz işini başa vurur.
Həqiqətsə öz hökmünü
Onda verir.

## XALQ

Hamı xalq adından danışsın, ancaq
Xalqın inamına inamı varsa.
Dünyada ən güclü adam olacaq
Kim onu özünə inandırarsa.

Oğrunun, caninin axı hər yanda
Xalq ilə açılır pası-paxırı.
Xalqı talayan da, xalqı soyan da
Pis gündə köməyə xalqı çağırır.

Xalq səngər kimidir çətin işində
Hamı boğazacan onda gizlənir.
Adam var əlinə bir iş düşəndə
Xalqa minnət vurur, xalqa hirslənir.

Xalq ümid deməkdir, gələcək demək,
Ümidsiz nə varsa, ondan uzaqdır.
Dünyada hər bir şey ölüb gedəcək,
Heç zaman ölməyən dünyada xalqdır.

"Xalq" sözü deyəndə, nədənsə insan
Əvvəl yuxarı yox, aşağı baxır.
Hamı öz çiynindən aşağı duran
Kiçik adamları xalq bilir axı.

Xalqda dözüm də çox, mətanət də çox,
Boylanma ucalan, ey doğma ürək!
Xalqı görmək üçün xalqdan uca yox,
Sən xalqdan aşağı durasan gərək!

## YER

Hər kəs öz yerini seçir həyatda,
Hər kəs, öz yerinə görə əyləşir.
İş var, vəzifə var bir neçə adda,
İş yox, vəzifəyçin hamı əlləşir.

Mənim yerim deyib, gəzir durmadan
Özündən, yerindən incik adamlar.
Olub, olacaqdır bir də hər zaman
Öz yerinə görə kiçik adamlar,
Öz yerinə görə böyük adamlar.

Ancaq ki, dünyanın hər bir yerində
Yerinə düşməyən adamlar da var.
Neçə adamları, neçə yerləri
Yerindən oynadır belə adamlar.

Mənim gözlərimdə bir tikan olub
Yerlərin üstündə bu çəkişmələr.
Yerlərin özünü hörmətdən salıb
Bu qədər, bu qədər yerdəyişmələr.

Mənə yer verilib aşağı başda,
Ölüncə yerimi saxlayacağam.
Böyük taleyimi elə bu başdan
Aşağı yerlərə bağlayacağam.

## SÜKUT ETMİŞƏM

Durmuşam sahildə, üzümdə vüqar,
Ləpələr yanımda yuxlayıb yatır.
Çırpınır bəzən də qəzəbli sular,
Yaxama, saçıma mənim əl atır.

Dönüb mən baxıram ana vətənə,
Fikirlər başımda qığılcım saçır.
O qədər vətənsiz deyiblər mənə,
Vətən ayağımın altından qaçır.



Bütün böhtanlara susub dözürəm,
Baxın, baxışlarım nizə-nizədir.
Mən sükut etmişəm, məqam gəzirəm,
Mənim sükutum da mübarizədir.

## ÜRƏK

Səni bəzən mən zorladım,
Qan uddurdum, qan qusdurdum,
Oxuduğun yerdə səni mən susdurdum.
Mən gürz etdim döyüşlərdə
Səni, ürək
Yastıladıb kitab etdim.
Döydüm səni qılınc etdim,
Alov çəkən hisslərimə
Səni nazlı balınc etdim.
Mən ağlımı səndən aldım,
Mən eşqimi səndən aldım.
Mən gücümü səndən aldım
Sənə heç nə qaytarmadım.
Mən öləndə səni, ürək,
Bir parafin şüşəsində
Saxlasınlar...
Hər gün səni yoxlasınlar.
Mən bilirəm, mənsiz qalıb
Sən həyatdan bezəcəksən.
Onda məni sən axtarıb
Gəzəcəksən...

## GÜZƏŞT

İnsanda ən böyük qəzəbdir güzəşt,
İnsana ən böyük cəzadır güzəşt.
Güzəştin yumuşaq dili dilimdə,
Bəzən qılınc olur güzəşt əlimdə,
Bəzən də küsülü, incik dostları

Mən öz güzəştimlə görüşdürürəm;
Mən güzəşt edəndə dostluq adına,
Böyük qəzəbləri öpüşdürürəm,
Güzəştdir ucaldan dostluq adını,
Dad sən də güzəştin acı dadını,
Yaxşılığa dönmüş güzəşt itməsin;
Yox, güzəşt etsə də dostuna insan
Gərək öz-özünə güzəşt etməsin.
Xırdaçı olmayım, qalmayım deyə,
Bütün dostlarıma güzəşt edirəm;
Mən öz dostlarımla düşmən üstünə
Güzəştsiz gedirəm, qəddar gedirəm!

## ÇÖRƏK

Mənə minnət vurma, dostum,
Minnət dosta başdaşıdır.
Çörək deyil, daş yeyərəm,
Çox minnətli çöreklərdən
Daş yaxşıdır!

Adam var ki, satqın, rəzil
Eli soyur, xalqı soyur;
Cibinə də bilet deyil,
Cilidli bir çörək qoyur.
Həm çörəyin, həm vicdanın
Qüvvətini yoxlamışam,
Mən çörəyi, vəzifəni
Zəif düşən vaxtlarıma
Saxlamışam.
Çörək deyil, vicdanımın
Arxasınca mən getmişəm,
Çörək dalda, mən qabaqda,
Nə çörəyi alçaldaram,
Nə çörəyə alçalaram,
And içmişəm,
Əhd etmişəm.



## QOBUSTAN QARTALI

*İ.Cəfərzadəyə*

İnsanda gücə bax, inada bax sən,
Qaya varaqlamaq olmuş peşəsi.
Su içib boy atır qartal gözündən
Çopur qayaların seyrək meşəsi.

Gözünün nurunu daşa səpərək
Axtardın daşda da yurdun varını.
Bakının boynuna boyunbağıtək
Saldın sən Qobustan qayalarını.

Hicranı, həsrəti sarsıdır insan,
Sən qalx Qobustanın şiş qayasına;
Bir şən xəbər yetir Qız qalasından
Gözü yolda qalmış Ərk qalasına.

Oxu, alim baba, daşı, qayanı,
Dünyanın beşiyi bu diyardadır.
De, bəs qayaları yazanlar hanı –
Mənim itkin düşmüş babam hardadır?

Qobustan, xalqımın qranit səsi,
Qurbanam mən onun hər bir daşına.
Deyin, qaya babam xonça bəzəsin,
Çatdı alim babam yetmiş yaşına.

Sənətin qranit, ürəyin həlim,
Necə dost olmusan qayalarla sən?!
Sən o qayalardan qopdun, müəllim,
Sən o qayalarla birləşəcəksən.

## QARDAŞ TORPAĞINDA BİR ƏSGƏR YATIR

Bir əsgər qəbri var, sinəsi mərmər,
Qar, yağış döymüşdür o mərmər daşı.
İyirmi yaşında ölmüşdür əsgər,
Qəbrin də tamamdır iyirmi yaşı.

O öz ölümüylə qələbə çaldı,
Daradı döşünü odlu güllələr.
Düşməndən nə qədər o, yerlər aldı,
Öləndə yer tutdu öz boyu qədər.

Ucalıb qüllələr vermiş baş-başa,
Qızıl qüllələrə baş əyən hanı.
Ancaq bir daş vardır, o mərmər daşa
Keçəndə dayanıb baş əyir hamı.

Nə böyük vüqarla görünür bu gün
Rütbəsiz, medalsız sadə bir əsgər.
Onun vüqarını göstərmək üçün
Burda nə daş çatar, nə də ki, mərmər.

Baharla gəlmişdi, getdi baharla,
Heç kəs unutmadı igidliyini
O, qoca dünyada böyük vüqarla
Yaşadı özünün kiçikliyini.

## TƏBRİZLİ QIZA

Boylan pəncərədən, boylan, ey çiçək,
Soyuq şüşələrdən baxma gələnə.
Mən külək oluram, sərin bir külək,
Çırpıram özümü daş pəncərənə.

Şüşələr qırılır, şüşə nə gərək,
Çıx, baxım şüşəsiz boyuna bu gün.
Toysuz sevgimizi götürüb gedək
Sənin rəfiqənin toyuna bu gün.

Gəl, küçə başında durmuşam yenə,
Fərəhlər, sevinclər gözləyir bizi.
Kimlərsə sirr açıb bir-birinə
Bağlamış bu sirli taleyimizi.



O qədər şüşəyə baxıram, ay qız,
Özüm də şüşəyə dönürəm hərdən.
Düşüb qırılmaqdan qorxuram yalnız
Bu daş divarların arasında mən.

## GƏLMƏDİN

Dedin, beş dəqiqə gecikəcəyəm,
Sən kimdən öyrəndin bu səliqəni?
Gör, neçə saatdır gözləyirəm mən
Sənin gecikdiyin beş dəqiqəni.

Bir gəlin saatı soruşdu məndən,
Görən hansı vaxtı deyim gəlinə.
O mənə sataşdı elə bil qəsdən,
Daş atdı fikrimin sakit gölünə.

Yel vurdu, havaya sovruldu torpaq,
Çiynimə ağacın gülü töküldü.
Məni müəllimim gördü bu sayaq
Başıma dünyanın külü töküldü.

Kim öz sevgisini gözləsə, hələ
Saata baxmasın, vaxta baxmasın.
Səhərə qədər də gözləyə billəm,
Təki onun sözü yalan çıxmasın.

Bir daş səki üstdə oturmuşam mən,
Bir şüşə olmuşam, daşa düşmüşəm.
Yox, gülüm, sən mənə yalan deməzsən,
Görünür, mən yalan başa düşmüşəm.

## UŞAQ

Qəhrəmanlar diyarında,
Bir meşənin kənarında kənddən uzaq
Kuklasını qucaqlayıb ölüb uşaq...
Güllə dəyib o körpəyə,

Fəqət uşaq
Qoymamışdır güllə dəysin
Onun kukla balasına...
Dəymə, dəymə, alçaq düşmən,
O uşağın kuklasına.

Çəkil yana, ey qəsbkar!
Dur kənarda, uçmuş şəhər,
Bu uşaqda böyüklüyə,
Böyükdəsə kiçikliyə
Baxsın bəşər.
Uşaq ölmüş, kuklasını
Qorumuşdur qucağında,
Kukla gülür
Bir uşağın ana eşqi dodağında.
Uşaq ölmüş, kukla sağdır,
Kukla gülür sevinmədən
Sayıqlayan güllələrə.
Kukla gülür dil-dil ötən şölələrə,
Kukla gülür bir uşağın
Ölümünə gülənlərə.
Kukla gülür, özgəsinin
Torpağında ölənlərə.

## SUMQAYIT

Budur, təzə şəhər, təzə binalar,
Gəzdiyim yerləri gəzirəm bir də.
Baxıram fərəhlə, nə istəsən var,
Təkcə qəbristanlıq yoxdur bu yerdə.

On birə çatmışdır şəhərin yaşı,
Ancaq ölüm nədir hələ bilməmiş.
Bağçalar, çəmənlər gülür, nə yaxşı
Bu təzə şəhərdə insan ölməmiş.



Bilirəm, qocalıb ölən olacaq,
Axı bu dünyada ölüm də haqdır.
Şərəflə ömrünü başa vuraraq
Hamı bu torpağa qovuşacaqdır.

Sən çağla, fərəhlən, ey cavan şəhər,
Qoynunda insanın ömrü solmasın.
Səndə qəbristanlıq olsa da əgər,
Nakam adamların qəbri olmasın.

## SƏNİN HEYKƏLİN

*Səməd Vurğuna*

Sən heykəl, sən yenə canlı bir insan,
Gözündə sabahkı səhər sökülüb.
Heykəlin nə daşdan, nə ki tuncdan,
Heykəlin sənətdən, sözdən tökülüb.

Gözlərin Muğanda, özün fikirdə,
Heykəl də düşünüb, fikrə dalarmış!
Deyirəm, işə bax, daş da, dəmir də
Ürəyə bu qədər yaxın olarmış...
Sən güclü bir şair, sadə bir insan,
Gücün Azərbaycan elindən gəlir.
Bakıdan boylanır, şeir oxuyursan,
Səsin Moskvadan, Berlindən gəlir.

Buludlar, ulduzlar gözündə çin-çin,
Dəmir baxışından tunc şəfəq yağır,
Sən ki səhərlərin müğənnisiydin,
Bəs niyə gözlərin qüruba baxır?!

Yenə də şeir oxu, qaldır əlini,
Sənin ilk andını ilk sözdə görüm.
Gün o gün olsun ki, tunc heykəlini
Bir yol görmədiyin Təbrizdə görüm.

## BƏŞƏRİN ARZUSU

Şerim geciksə də, gecikmədim mən,
Şimşək qanadlıdır Yerin sürəti.
Raket sürətinə çatmayır nədən
Bugünkü döyüşkən şerin sürəti?!

Ucaltdın fəzaya ana torpağı,
Ancaq nəbzin vurdu yer qatlarında.
Raketlə uçmadın, uçdun sən axı
Xalqın arzusunun qanadlarında.

Sən uçdun, gözündə qayğı, məhəbbət,
Lord baxdı dalınca gözləri solğun,
Sən Yerin başına fırlandın, fəqət
Xofdan yer başına fırlandı onun.

Bəşərin arzusu, gözü intizar,
Arzular rəngbərəng, naxış-naxışdır.
Bəs yerə sığmayan böyük arzular
Kiçik otağına necə sığışdı?!

Yurdumun taleyi mənim əlimdə,
Onun göylərindən bir də gəlib keç.
Söylə, azad insan, söylə mənim də
Arazım, Təbrizim göründümü heç?

Tapmasan, qoy sənə nişanə verim,
Təbrizin üstü çən, sinəsi qandır.
Mənim o döyüşkən, doğma ellərim
Döyüş məqamını güdür haçandır.

Harda yollar boyu tökülüb gedən
İşsizlər, uşaqlar, analar gördün.
Onda yaxşı bil ki, yaxşı bil ki, sən
O mənim yurdumdur, o mənim yurdum!



Sən indi torpaqdan, insandan uzaq,
Bir gün ayrılıq da insana çoxdur.
Bir gün insanlardan ayrı yaşamaq
Özü də ən böyük qəhrəmanlıqdır.

## YARALI ABİDƏ

*Borodino çöl muzeyind*

Keçib yüz əlli il o döyüşlərdən,
Pas atıb topların zənciri, bəndi.
Kim ki bu torpaqda can qoyub dünən
Mərmər sütun kimi ucalıb indi.

Baxıram yüksələn mərmər sütuna,
Mərmərin döşündə güllə yeri var.
Deyirəm: faşistlər, faşistlər ona
Bəlkə də qorxudan güllə atıblar.

İnsanda gücə bax, qüdrətə bax sən,
O ölür, mərmərdən bir əsər olur;
Düşmənlə vuruşan xalqa yenidən
Onun abidəsi bir səngər olur.

Yüz əlli il qabaq, döyüş zamanı
O, tək bir gülədən yıxıldı belə.
İkinci döyüşdə daş qəhrəmanı
Nə tank yıxa bildi, nə də ki, güllə.

Tarixi böyükdür bu ağ mərmərin,
Döşündə bu sözlər sıralanıbdır:
Dünən yaralanıb, ölən əsgərin
Bu gün abidəsi yaralanıbdır.

Mərmərin döşündə güllə parçası,
Deməyin bu güllə, bu yara nədir.
Yox, daş abidənin güllə yarası
Özü də ən böyük bir abidədir.

## OXU

*Rübabə Muradovaya*

Oxudun dərdini Leyli dilində,
Sən ki öz eşqində Leyli deyildin.
Bəs necə bu xoşbəxt Azər elində
Leyli kədərini yaşaya bildin?

Aç öz ürəyini nəğmədə bir-bir,
O çinar boyun da nəğməyə bənzər.
Hörüyün Arazdır burulub gedir,
Səsin ləpə-ləpə kükrəyən Xəzər.

Kədərin, sevincin, ürəyin yarı,
Çay iki sahili yalayıb yuyur.
Bakının qoşduğu şən mahnıları
Hələ ana Təbriz qəmli oxuyur.

Təbrizdən söz açıb kədərlənirsən,
Bakıdan deyəndə gül üzün gülür.
Ən xoşbəxt mahnı da oxuyanda sən
Bir gözün ağlayır, bir gözün gülür.

Sən oxu Təbrizdən, qulaq asım mən,
Nəğmən toxtaq olsun bir məlhəm kimi
Təkcə səhnədə yox, həyatda da sən
Vuruş Həcər kimi, Şahsənəm kimi.

## HƏYAT NƏĞMƏSİ

Mən Ruzbehəm, Səyaməkəm,
Günəş-günəş od deməyəm...
İbrahimi, Tağızadə,
Sübhi olub mənim adım.
Bu adlarda öldümsə də,
Başqa adda mən yaşadım!
Güllələndim Kələntəri,
Mübəşşiri familində!
Güllələndim yad əlində!



Kirpiyimdən, saçlarımdan
Qan qurumu sallanmışdır.
Ürəyimin ocağında
Od od üstdə qalanmışdır.
Yad əllərlə mənim varım,
Mənim yurdum talanmışdır!
Şəhər-şəhər sürünmüşəm,
Ətək-ətək qanlı tikan
Çıxartmışam ayağımdan!
Düşmən məni yüz il, min il
Öz yurdumda zindanlamış!
Saçlarımla yer süpürüb
Ayağıma nal sıxlamış!
Tanklar məni, atlar məni
Tapdalamış, ayaqlamış.
O basdırıb diri-diri
Məni qanlı torpaqlara,
Ancaq ki, mən ölməmişəm,
Mən ölümdən qorxmayıram!
Mən ölməkdən qorxmayıram!
Mən ölsəm də vətən üçün
Yaşadacaq, yaşadacaq
Ölüm məni, ölüm məni!
Yaşadacaq bir də, bir də
Elim məni, elim məni!

## QIFIL

Gəzirəm küçədə bir axşamçağı,
Dörd yanım qıfıllı, bağlı dükanlar.
Deyirəm həsrətlə, nə olar axı,
Qıfılsız, kilidsiz ola insanlar.

Paslı qıfılların dili min cürə,
Heç gəlin onları salmayaq yada.
Təhqir olunuram, düzü, min kərə
Hər qıfıl görəndə qapı-bacada.

Mənim də öz yolum, öz məsləkim var,
Sabahı görürəm söz aynasında.
Necə gülməlidir paslı qıfıllar
Böyük gələcəyin astanasında.

Keçək ömrümüzün bariz yolunu,
Yığışsın qıfıllar yerin üzündən.
Qıfıllar, kilidlər xalqın malını
Gizli saxlamasın xalqın özündən.

Çəkilsin qıfıllar qapımdan uzaq!
Dəmir qıfılları acmağa nə var.
Ən böyük qoruqdur, ən böyük dayaq
İnsana etibar, xalqa etibar!

## YARPAQLAR

Yenə varaqlandı bir kitab kimi,
Tökülüb önümdən keçdi yarpaqlar.
Sarı cücələri ley vurdu, sanki
Anadan dağınıq düşdü yarpaqlar.

Payızın nəfəsi dəydi torpağa,
Sarı bir xal qondu yaşıl budağa.
Köçəri quş kimi düşüb sorağa
Bu eldən, o elə köçdü yarpaqlar.

Yenə də güllərin boynu büküldü,
Bağçanın xoş ətri göyə çəkildi,
Qırılıb soyuqdan yerə töküldü
Öz ana kökünü qucdu yarpaqlar.

Saraldı hər bağça, saraldı hər bağ,
Yenə tənha qaldı, lüt qaldı budaq,
Körpə quşlar kimi qanadlanaraq
Yerə dəyə-dəyə uçdu yarpaqlar.



Nə gözəl, mehriban payızdır bu il,
Yox, sarı bahardır, bu payız deyil,
Ömür budağından düşüb elə bil
Ömrün yollarını ölçdü yarpaqlar.

196.

## SƏRHƏDDƏ DAĞ

Baxmışam mən neçə dağ sərhədinə,
Sərhəddə dağı da qəm-kədər alır.
Yox, dağ da düşəndə sərhəd xəttinə
O da bir dağ kimi yiyəsiz qalır.

Yox, sərhəd xəttinə çevrilən zaman
Həsrətdə keçirir dağ həyatını.
Hansı dağ sərhədə düşsə, kitabdan
Onun bir dağ kimi silin adını.

Nədəndir, el dağdan qüvvət alandı,
Dağın da çiçəyi, gülü bol olur.
Xalqlar dost olanda, qardaş olanda
Dağlar sərhəd olmur, dağlar yol olur.

## BULUDLAR

Qızıl haşiyəli, gümüş baxışlı,
Zərli şəfəqlərdən döşü naxışlı;
Göyə bəzən odlu, bəzən yağışlı
Bəzən də tufanlı çıxır buludlar.

Gah quşa bənzəyir, gah da dovşana,
Gah ağ yapıncıyla yatan çobana,
Bəzən də düzülüb gedir yan-yana,
Çayda buzlar kimi axır buludlar.

Yel əsir, qurşaqdan, beldən qırılır,
Tov almış ip kimi hərdən qıvrılır,
Yağıb qurtaranda göyə sovrulur,
Sallanır aşağı ağır buludlar.

Elə ki yaz gəlir, dəyişir zaman,
Torpaq xilas olur qırovlu qışdan,
Hovlayıb əlini tez-tez, yağışdan
İslaq köynəyini sıxır buludlar.

Vətənsiz dedilər sizə, nədəndir,
Siz göydə uçdunuz, göy də vətəndir.
Siz gedin, mən qaldım, yollarım çəndir,
Sizə uğur olsun, uğur buludlar!

*1963*

## AYNA

Üzümə qırışlar düşüb bu səfər,
Batinim tufanlı, görkəmim mətin.
Yox, fikir çəkməyi bilsəydin əgər
Sən də qocalardın, sən də düşərdin.

Gözünü bərəldib dikmə bir yana,
De, nədir bu baxış, bu maraq səndə.
Bu sayaq qalmazdın həyatda, ayna,
Görsəydin özünü bu sayaq məndə.

Gözümdə yarımçıq, ürkək fikirlər,
Nələr oxunmayır insan gözündə.
Yox, sənə min dəfə baxsa da, əgər
Qoy hər kəs özünü görsün özündə.

*1958*

## XAQANİ

Sən Məlhəm kəndində doğuldun, ancaq
Özün məlhəm deyil, sərt qaya oldun.
Sən o saraylarda qanlı hökmə bax,
Şerin alqışlandı, özün qovuldun.



Yayıldı Şirvana odlu fəryadın,
Zamanın gözündən yuxu çəkildi!
Sən elə ağladın, elə ağladın
Gözündən yaş deyil, alov töküldü!

Göz yaşı deyirəm, səhv edirəm mən,
Sənin sözlərindən alov ələnib.
O göz yaşlarıyla, özün demişkən,
Zamanın dəyirman daşı hərlənib.

Böyük "Həbsiyyə"nin misralarında
Zindanın özünü sən ağlatmısan.
Mənim dağıtdığım zindanların da
İlk dəfə daşını sən laxlatmısan!

Döşündən misralar sel kimi axdı,
Axdı misra-misra alnının təri.
Şerində yenidən tikilib qalxdı
Dağılmış "Mədain xərabələri".

Gözümdə yaş vardır, əlimdə kitab,
Nə xoşdur şerinin mehmanı olmaq.
Həm böyük şərəfdir, həm böyük əzab
Şair, Xaqani yox, Xəlqani olmaq.

*19(*

## KARVAN

Yol uzun, yol palçıq, hava da yağış,
Biz dalda gedirik, qabaqda tabut,
Hamıda kədərli, məlhəm bir baxış,
Hamının üzündə qatı bir sükut.

Bizimlə yol gedir əlil bir qoca,
Qolunda güc yoxdur, sifətində qan.
Karvan qəbristana addımladıqca
Onu nə görən var, nə də tanıyan.

– Qoca, yol uzundur, yel-yağış vurur,
Sən qayıt, soyuqdur, azarlayarsan...
Qoca əsasına söykənib durur,
Bükülmüş belini düzəldir bir an.

O, boğuq bir səslə üz tutur mənə:
– Yox, çovğun olsa da dönmərəm dala,
Hamı öz borcunu verir ölənə,
Mən də öləcəyəm axı, ay bala.

Gedirəm fikirli, yorğun, utancaq,
Gedirəm qocayla qədəmbəqədəm.
Ölənin ardınca getsəm də, ancaq,
Mən öz ölümümü düşünməyirəm.

İnsan sabahına inansın gərək,
İnsanın bu eşqi, bu fikri haqdır.
Hamı elə bilir, o ölənədək
Ölümə bir əlac tapılacaqdır.

*1961*

## LERMONTOV QAFQAZDA

Sən ey rus şerinin möhtəşəm bürcü,
Nədir ömründəki bu ölüm-itim?
Sənin bir şerindən aldığım gücü
Qafqaz dağlarından ala bilmədim.

Sən öz ilhamının incilərinə
Qafqaz dağlarını düzmüsən, nədir?!
Qafqaz şairləri bilmədim niyə
Qafqazı sənintək görə bilmədi.

Qafqaz sadiq qalır şer ordusunun
Azadlıq, səadət, qardaş sözünə.
Yenə də gözləri səndədir onun,
Sənin gözlərinlə baxır özünə.



Qanlı duel hara, şair sən hara,
Mənliyi mənliyə ucuz satdılar.
Hətta Axundovun şerindən sonra
Şairə yenə də güllə atdılar.

Üzür "Tək ağaran yelkən"in hələ,
O, suda, quruda, fikirdə üzür.
O yelkən yol gedir, öz sənətilə
Fikir tarixinə incilər düzür.

"Tək yola çıxıram" – dedin, – özüm, tək,
Gertsen Rusiyası səninlə gəldi.
Sənin başladığın yolla gedərək,
Rusiya bu günə yüksələ bildi.

*1962*

## YOL VER

Mənə qanad verdin, uç dedin göyə,
Uç dedin, məndən də uzağa uç sən.
Mən uçdum, uçduqca əzizim niyə
Sən mənə kənardan dodaq büzürsən.

Mən sənə borcluyam, borcluyam hələ,
Ancaq qul deyiləm sənin önündə.
Mən qala bilmədim kiçikliyimlə
Sənin o mötəbər böyüklüyündə.

Soyuqluq duyuram nəfəsində mən
Yüksəliş istəsən bu yolla getmə!
Mənə alçaqlığı öyrətmədin sən,
Məndən alçalmağı tələb də etmə!

Yol ver uçuşlardan yenə kam alım,
Bu ürək sındırmaq səndə nə işdir.
Nə sən alçalt məni, nə mən alçalım,
Alçaqlıq heç kəsi yüksəltməmişdir.

*1962*

## BÜLBÜL

Qoyma ürəyini ümid tərgidə,
Şaqraq nəğmələrin öz sevinci var.
Ən çətin ayaqda, axı bəlkə də
Quşlar qəmlənməyi bacarmayırlar.

Ah, necə dözürsən bu qəfəsdə sən
İsti yuva hara, bu qəfəs hara.
Sən kimə, sən nəyə isinişmisən,
İnsana, ya dəmir barmaqlıqlara?

Olsaydı sənin də iti dimdiyin,
İti caynaqların, qanad açardın.
Quzğundan, bayquşdan qaçdığı kimi
İnsanlar səndən də uzaq qaçardı.

"Mən bir quş olaydım" – deyib özünə
Babam hər sözündə, hər söhbətində.
Bir quş azadlığı səslənir yenə
Qanadsız insanın təbiətində.

Bəlkə sevinirsən, ey sarı bülbül,
Nə yaxşı insanla qonşu olmusan.
Dərin meşəlikdə, kolluqda deyil,
İnsanın ömründə yuva salmısan.

*1960*

## VƏTƏN

Ey Vətən, alnında parlayır günəş,
Təzə şəhərlərin çağırır məni.
Sən elə təzələn, elə gözəlləş,
Həmişə qabaqla öz xəritəni.

Gəlmişdir bir nazlı bahar qoynuna,
Gül gülü, quş quşu, el eli haylar.
Gözəl şəhərlərin mərmər boynuna
Mavi qollarını dolamış çaylar.



Dağlar yallı gedir, ipək buluddan
Ağ yaylıq hərlədir dağlar başına.
Vətən, Vətən! – deyib gəzdiyim zaman
Göllər ayna tutub çıxır qarşıma.

Gəlmişəm səninlə verim səs-səsə,
Vətən, nə gözəlsən bu xoş zamanda!
Anam bir də məni doğmaq istəsə,
Qoy doğsun yenə də Azərbaycanda!

*1963*

## QƏHRƏMANLIQ NƏĞMƏSİ

*"Koroğlu" operasının uvertürasına qulaq asarkən*

Yer göstərin, əkilməmiş,
Qarış-qarış əkim-biçim!
Mən ətəşəm, bulaq nədir,
Dəniz verin mənə içim!

Dağ göstərin yumruğumun
zərbəsilə parçalayım,
İnsanlardan sirr gizlədən
Boz dağların zirvəsini
Kəpəz kimi haçalayım!

Adım əvvəl başlamayır
Hürüfların sırasında,
Ancaq məni əvvəl yazın
Siyahıda – əsgər gedən
Cavanların arasında...

Şitil verin meşə salım
Mən Bakıdan Yevlaxacan!
Su olmasa, külək qovan
Buludları dayandırıb
Sağım Şirvan çöllərinə!

Su çatmasa, yağış kimi
Yağım Şirvan çöllərinə!
Meşə düşsün, düz dincəlsin!
Adım baxsın, göz dincəlsin!

## BURUQLARIN HİMNİ

Bu gün Xəzər çox çırpınıb yorulmuşdur,
Xəzər yatır, mışıldayır uşaq kimi.
Xəzər yenə gözlərindən durulmuşdur,
O təmizdir yazılmamış varaq kimi.

Xəzər gülür, min qat düşür göy sulara,
Bir neftçinin alnındakı qatlar kimi.
Dənizdəki buruqlarım sıra-sıra, –
Ağ varaqda sıralanmış notlar kimi.

Gənc bəstəkar fikrə gedir, dağın üstən
Qulaq asır ahənginə bu notların.
Buruqların notlarından gələn səsdən
Sinələri parçalanır buludların.

Dənizdəki buruqlarım uca-uca,
Göy sulara buruqların əksi düşür.
Zəhmət himni, şöhrət himni çalındıqca
Yer üzünə yurdumuzun səsi düşür.

## KOBZAR

*Taras Şevçenkoya*

Mən şair oluram, rəssam oluram
Səni görən zaman, eşidən zaman.
Ey şair, şerində nə böyük rəssam,
Rəsmində nə böyük şair olmusan?!



Çoxları şair də qoydu adını,
Fəqət el dərdinə dözə bilmədi.
Hamı sənin kimi sevdi yurdunu,
Hamı sənin kimi yaza bilmədi.

Səni əsgər doğdu o doğma ölkə,
Qarşında misralar səf çəkdi min-min.
Çar əsgər apardı səni ki, bəlkə
Alsın qarşısını əsgərliyinin.

Dərdinlə, eşqinlə sarsıldı zaman,
Heyranam səndəki ülvi sənətə.
Fırçayla vurmusan, rənglə vurmusan
Ən böyük zərbəni mütləqiyyətə.

Kobzar qonaq gəlir Qafqaza hər il,
O durub aranda, dağda oxuyur.
O, artıq kədərli mahnılar deyil,
Azadlıq, xoşbəxtlik haqda oxuyur.

## AQDEL ÇAYI

Suların döşündə rəqs edib bahar,
Çay bəzən daralır, bəzən enlənir.
Elə yer də var ki, burulur sular,
Elə bil ip kimi çay düyünlənir.

Gedirəm bir gümrah qocayla qoşa,
Qoca addım-addım gəzir sahili.
O yüz on yaşını vursa da başa,
Özünə bir ata sayır Aqdeli.

Yüz ildir qocanın ömrü bu çaya,
Çay isə qocanın ömrünə axır.
İstəsən qovuşsun o tay bu taya
Çayı bu qocanın diliylə çağır.

Çəkilib yarğanlı sahillər tarım,
Ağır, təngənəfəs yeriyir sular.
Aqdelin üstündə ağ buludların,
Mavi kölgələrin ağırlığı var.

Çayla birləşdirib qoca yolunu,
Acır dalğa-dalğa Başqırdıstana,
Qoy Başqırd torpağı görüb oğlunu,
Sakit qəhrəmanlıq ad versin ona.

Qocanın gözündən sanki nur yağır,
O çayın gözüylə baxır, deyirəm.
Məndən soruşsalar çay hara axır,
Çaylar ömürlərə axır, deyirəm.

## BAYKAL

Mən qonaq gəlmişəm qardaş bir eldən
Sənin, ey gözəlim, ilk görüşünə.
Gümüş lövhə kimi sancılmısan sən
Sibir torpağının yaşıl döşünə.

Bu təmiz baxışı məsum körpələr
Sənə bəxş etmişdir elə bil, ey göl.
Qara olmasaydı gözlərim, deyər
Bir gözüm Baykaldır, bir gözüm Göygöl.

Səni birnəfəsə içəm az qala,
Necə valeh etmiş bu göllər məni.
O qədər baxıram gözəl Baykala
Baykala qısqanır gözəllər məni.

Gəzib sıx meşəni, yaşıl çəməni,
Gözəllik hüsnündən gül dərəcəyəm,
Hətta gözlərimdə aparıb səni
Doğma Göygölümə göstərəcəyəm.



Baykalın şöhrəti yayılsın elə,
Bu Sibir qızını bütün el sevir.
Mənim ürəyimdə bu gündən belə
Sibirsiz Baykal yox, Baykalsız Sibir.

## NƏ GÖRMÜŞƏM HƏLƏ MƏN

Nə görmüşəm bu dünyada hələ mən,
Vaxtlı-vaxtsız bu dünyaya gələndən.
Üfüqünün çöhrəsini qan-qızıl,
Güllərini, çaylarını qırmızı,
Qıratının yalmanı qan, yalı qan,
Azadlığın taleyi qan, yolu qan,
Qılıncının qabağı qan, dalı qan,
Səbr evinin quyuları dolu qan,
Şəhid olmuş düzlərində ulu qan,
Nə görmüşəm sənlə hələ mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm!

Nə görmüşəm, gördüklərim heç oldu,
Ömrüm mənə üç ömürlük köç oldu,
Yarım milyon ölü gördüm, yarımcan,
İki milyon sürgün gəldi dalımca,
Milyon-milyon uşaq gördüm yalınçaq,
Verdi neçə can çəkənə canım can,
Son nəfəsim, son qərarım qalınca!
Nə görmüşəm sənlə hələ mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm!

Nə görmüşəm, gördüklərim yüz olsun,
Ümid verən gələcəyim düz olsun.
Gördü məni, dolan gözü qanadı,
Yüz ildir ki, süfrəmizdə qan dadı,
Yüz il xalq yox, şəhid olub xalq adım,
Həsrət quşun qoşa sınıq qanadı
Səsimdəki sınıqlığı yamadı.

Nə görmüşəm sənlə hələ mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm!

Nə görmüşəm, görəcəyəm qabaqda,
Sorağımı alın sorğu-soraqdan.
Görəcəyəm düşməyincə ayaqdan.
Mən haqqımı qanla satın alıram,
Ümid olub tüfənglərə doluram,
Öz bəxtimin səngərində qalıram,
Güclüləri güclə gücdən salıram,
Qabaqda da gözləyirəm mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm!

*1984*

## MƏNƏM

Nə susub giribsən qınına, arzum,
Xalqın təzə-təzə cidalı mənəm.
Tarixdən vaxt alıb borc istəmişdin,
Tarixin bu vaxtsız macalı mənəm.

Ölüb başqa adda doğulmaq nədir?
Doğulub tufanda boğulmaq nədir?
Bir gündə otuz min dağılmaq nədir?
Vətənin dağılmış cəlalı mənəm.

Nədir gözlərində bu kövrək yatım,
Niyə yorğa gedir bu tez-tov atım,
Ən qanlı, maraqlı şerin, həyatın
Ən böyük faciə misalı mənəm.

Gəldik bu dünyaya qoşa təcnisdə,
Bizi saymadılar çox-çox məclisdə,
Ey dünya, sən ayır yaxşını pisdən,
Dünyanın nəcabət kamalı mənəm.



Ömürün altmış il oldum qonağı,
Pis yola getmədi bir yol ayağım,
Çatıbdır şərəflə köç etmək çağım,
Bir xalqın nakamlıq babalı mənəm.

Dünya, halal elə sən məni, halal,
Mən məzara enim, sən isə ucal,
Çox məzar daşları döşündə medal,
Döşünün ən layiq medalı mənəm.

Mənəm bu ölkənin Azərazəri,
Millətə bənzəri, xalqa bənzəri,
Düşsə allahların burdan güzəri,
Görəcək bu xalqın iqbalı mənəm.

*1984*

## ÖZ YERİMİ MƏN BİLİRƏM

Vəzifələr paylananda,
Hamı birdən bir nöqtəyə,
Bir cəhətə haylananda,
Yoldaşlarım mükafata,
Fəxri ada boylananda
Medalların, ordenlərin
Əl çatmayan zirvəsində
Tamahcıllar quylananda
Qızğın şöhrət dəvəsinə
Dadlı tərif taylananda,
Telefonlar söhbətində,
Qəbul-minnət xəlvətində
Bulaq gözlər çaylananda,
Həm ağlayıb, həm gülürəm,
Bu alhaal məclisində
Öz yerimi mən bilirəm!

Uca-uca kürsülərdən
Uca dostlar ad çəkəndə,

Uca-uca çiyinlərə
Zər ələyib, var tökəndə,
Təriflərdən bir-birinə
Daşı qızıl ev tikəndə,
Bir-birinin dağ başına
Qapaz vurub, turp əkəndə.
Həm ağlayıb, həm gülürəm,
Bu gəlhagəl məclisində
Öz yerimi mən bilirəm.

Mən bilirəm öz yerimi,
İkinci yer, dördüncü yer.
Mən bilirəm öz yerimi
Daldalarda görümcül yer.
Ya əlavə yardımçı yer,
Belə doğru yer seçməyim
Taleyimin vergisidir.
Öz yerimdə dayanmağım
Öz içimin güzgüsüdür.

Bu dünyada hər bir kəsin
Öz yeri var, öz vətəni.
Öz yerimdə axtaracaq
Vətən məni! Tarix məni!

*1984*

## GEDƏK

Gedək, bəxt evimdə nağıl tikirlər,
Nağıldan qayıdan yollar bizimdir.
Gedək, bir taledən kino çəkirlər,
Orda sevgiləşən yollar bizimdir.

Gedək, ev tikmişəm, dirəksiz qalıb,
Gedək, ocağımın tüstüsü yoxdur.
Bir sınıq gümandan sallaqdır halım,
Sınıq gümanların istisi yoxdur.



Əlini ver mənə, ev tikim, təzə,
Qəlbini ver mənə, gül əkim, təzə,
Sevgini ver mənə, qanadım olsun.
Sevgini bələklə, övladım olsun.

Qon mənim bəxtimə, qıraqda qalma,
Gecikən sevgimiz qisas olmasın.
Sevgi qocalmayır, sən də qocalma,
Sevgimin gözləri yaşlı qalmasın.

*198*

## VƏTƏNİMƏ HƏDİYYƏDİR

Götür gedək yarpaqların
Çiçəklərin məxmərini!
Götür gedək dalğaların
Mavi, gümüş kəmərini!
Götür gedək çay daşının
Gülüşünün çil-çilini!
Götür gedək saçlarının
Buruğunda dağ yelini,
Bunlar mənim vətənimdən
Vətənimə hədiyyədir.

Bir az Sabir babamızın
Duzlu, müdrik gülüşündən,
Bir az Bakı səhərinin
Qaşqabaqlı gümüşündən,
Bir az sevən yaşlıların
Umu-küsü görüşündən,
Heykəllərin bir nöqtədə
Dayanmağı vərdişindən,
Bunlar mənim vətənimdən
Vətənimə hədiyyədir.

Al bu duzu, göz yaşıdır,
Qurutmuşam gilə-gilə,
Al bu şeri, yarımçıqdır,

Bitirmədim bilə-bilə,
Al bu gülü, ağlatmışam,
Bu gözəli gülə-gülə,
Al bu adı, qazanmışam
Onu hər gün ölə-ölə,
Bunlar mənim vətənimdən
Vətənimə hədiyyədir.

Gəl, aparaq nağılların
Şirin-şirin yuxusunu,
Gəl, aparaq öyüdlərin
İsti çörək qoxusunu.
Gəl, aparaq babaların
Təzə dünya qurğusunu.
Gəl, aparaq iki əsrin
Son cavabsız sorğusunu.
Bunlar mənim vətənimdən
Vətənimə hədiyyədir.

*1984*

## ARAZIM

Ovuclayıb içdim səni,
Dənizləşdi gözlərim.
Mən suvardım gözlərimlə
Həsrət qalan düzləri.
Adın mənə qüvvət verdi,
Bükülmədi dizlərim.
Qoy alnına həkk olunsun
Taleyimin sözləri.
Çay bəxtini girov qoyan,
Yazıq, nəcib Arazım!
Öz yurdunda lənətlənmiş
Doğma, qərib Arazım!

Qayaların kölgəsindən
Yaşmaq tutma bu sayaq.



Səndə batmış illərimi
Gəl, bir yerdə biz sayaq,
Daha qopur qəzəblərin
Sarayından daş, suvaq,
Bu dünyadan sərhədləri
Bir götürək,
Bir udaq,
Taleyinin dirəkləri
Göyə dəyən Arazım,
Məftilləri gül açmayan,
Göyərməyən Arazım.

## BAKI

Yaxın gələcəyi özündən böyük,
Uzaq keçmişi də özündən böyük,
Küçələr dolanbac, nağıllar kimi,
Lampalar qızılı noğullar kimi.
Dəniz ürəyinin ömür şüşəsi,
Şüşədə göyərib dəmir meşəsi.

Təbrizi görməkçin boylanır hərdən,
On yeddi mərtəbə evlərin üstən.
Şairlər ən gözəl qız sanır onu,
Şairlər özgəyə qısqanır onu.

Sahil qayaları oyma-oymadır,
Bakı əzəmətli bir poemadır.
Küçələr misradır, döngələr misra,
İkinci paytaxtdır Təbrizdən sonra.

Sahil qayaları oyma-oymadır,
Bakı əzəmətli bir poemadır.
Mən bu poemanı əzbər bilirəm,
İkinci paytaxtım Təbrizdən sonra
Bakını ən gözəl şəhər bilirəm.

## BORCUMU QAYTARIM

Sularının gümüşünü ver mənə.
Çaylarının gümüşünü ver mənə,
Baharının gəlişini ver mənə,
Bəlkə sənə son borcumu qaytarım.

Məni dağın dağ çiyninə kürk elə,
Daşlarının bərkliyində bərk elə,
Ümidini qurban göndər, ərk elə,
Bəlkə sənə son borcumu qaytarım.

Keçib qırx il o alovlu yaşımdan,
Nə zamandır öpməmişəm daşından,
Uçur məni öz arzunun başından,
Bəlkə sənə son borcumu qaytarım.

Ayağımda dəmir çarıq yırtılıb,
Dəmir əsam yol ölçməkdən sürtülüb,
Çaylarımın qəzəb yayı dartılıb,
Bəlkə sənə son borcumu qaytarım.

Zindanlarda solğun çıraq olmuşam,
Təzə nəslə köhnə yamaq olmuşam,
Minnətlərə qırx il qonaq olmuşam,
Bəlkə sənə son borcumu qaytarım.

Yaralarım qan hayqırıb yolunda,
Başı uca hər ölümdə, olumda,
Bir də yapış qələm tutan qolumdan,
Bəlkə sənə son borcumu qaytarım.

Sual vermə, haradaydın, nə yerdə,
Gərək bir də düşmənini bəyirdəm,
Qor atımı, qır atımı səyirdəm,
Bəlkə sənə son borcumu qaytarım.



## GÖRƏCƏKSƏN O TUFANI

Külək əsir, yağış yağır,
Onlar yerə ümid əkir.
Dalğa sahil qayalara
Kəmənd atır qulac-qulac.
Yarpağını gilə-gilə,
Salxım-salxım suya çəkir.
Şəhidlərin anasıdır
Sanki burda bitən ağac.

Zəncirlənmiş arzu gördüm,
Güllələnmiş qarlı vüqar.
Bu yanında, o yanında
Silah idi qoşa jandarm.
Güllələnmiş kitab gördüm,
Zindanlanmış böyük diyar,
Arzusunu təsbeh edib,
Xırda pultək sayırdılar.

Vətən adlı bir qocanın
Qoşa əli dizi üstə.
Uşaq gördüm, gülüşləri
Çevrilmişdi üzü üstə.
Bir alimin buzdan ocaq
Qalanmışdı gözü üstə,
Bir aşığın qara lənət
Mıxlanmışdı sazı üstə.

Qabağa bax, gələn nədir?
Bu tufandır, yoxsa adam?
Hər insanın öz içində
Nərə çəkir o sərt tufan!
Görürsənmi o tufanı?!
Görəcəksən o tufanı!

197:

## BU YERDƏ

Araz şah misramdır, Təbriz poemam,
Tale kitabımı oxu bu yerdə.
Biz ki, bir torpaqdan, bir taledənik,
Daha nə gərəkdir sorğu bu yerdə?!

Gəl, al qucağına dünya sevgimi,
Bələklə, ovundur Təbriz ərkimi,
Ver qızıl Bakıya şeir vergimi,
Qorxsun sevgimizdən qorxu bu yerdə.

Mənəm ayrılığın qanlı misrası,
Misramda bir xalqın qəmli yarası,
Vətən şah misramla saçın darasın,
Qoy məni tanısın qayğı bu yerdə.

Qoydum daş altına yadigar yazı,
Yaşasın beş yüz il daş altda azı,
Yaramı sarıyıb qızıl Arazım,
Nə lazım bir başqa sarğı bu yerdə.

Mən iki ölkənin vətəndaşıyam,
İki taleyimi gərək yaşayam,
Onları qoymadım qarşı-qarşıya,
Doğmadır hər iki qurğu bu yerdə.

Mən Azərazərəm, birdə ikiyəm,
İkidə birlərin birlik ərkiyəm,
Bir olmaq istəyən dursun cərgəyə,
Birləri götürüb yanğı bu yerdə,

*1984*

## VAR

Cəfər doktor, dalğa-dalğa gülüşün,
Gülüşünün güzgüsündə gözüm var.
Bu dünyanın sancı çəkən yerində
İynə-sapla yırtıq-yamaq izin var.



Düzdə olsun Azərbaycan düzləri,
Qatdanmasın düz yollarda dizləri,
Səni görüb, sənləşsinlər özləri,
Sənləşməyə sənin kimi özül var.

Sərhədlərin dodağını tikənsən,
Yaramıza ümid tumu əkənsən,
Sancıların sancısını çəkənsən,
Çəkərinin təkərində dözüm var.

Var qalandı, yox elədi çoxları,
Üzə durdu, çox elədi yoxları,
Haqq saf-çürük eləyəndə laxları,
Gördü çoxdan çox görünən azın var.

Bir söhbət aç, dərdlərimi dərinlət,
Bir ah püskür, püskürtümü sərinlət,
Ağla, acı həyatımı şirinlət,
Göz yaşında qafiyəsiz düzüm var.

İndi otur, qardaş kimi dərdləşək,
Çox vəfasız şənliklərə sərtləşək,
İki dərdin bir yolunda şərtləşək,
Şərtimizdə sənə aid yazım var.

*15*

## ŞƏHRİYAR

Bitərəf şerimin cıqqası, tacı,
Şeirdə şirinsən, həyatda acı,
Gəl, o bəxtindəki düyünü açım,
Şəhriyar!

Sənin ikiliyin birlikdən doğur,
Birlik fəryadların şeirdə noğul,
Şerimə atasan, yurduma oğul,
Şəhriyar!

Bir toy məclisində,
Məzar üstündə
Şerin ağlayırdı setar üstündə,
Xanəndə gülürdü "Qatar" üstündə,
Şəhriyar!

Səni öz dilinə çevirsəm əgər,
Şeirlərin bir az güclənə bilər.
Dilin qəndab olar,
Kəlamın şəkər,
Şəhriyar!

Bir qəbir daşında şerin gülürdü,
Gülüşün ölümü daşdan silirdi,
Şerin yaşayırdı, qəbir ölürdü,
Şəhriyar!

Gördüm inqilablar doğan diyarda
Sevgin ağlayırdı qəmli setarda,
Özün düşünürdün bir az kənarda,
Şəhriyar!

Sən eşq padşahı,
Mən məslək əri,
Arada kim çəkdi bu sərt çəpəri,
Bu gecə çəpərsiz açaq səhəri,
Şəhriyar.

Tehran-Təbriz yolu tarım çəkilib,
Bu yolda mən tüfəng,
Sən tovlu bir ip,
Burda ağ şeir kimi ölçülər itib,
Şəhriyar!



## UTANMAQ

Niyə utanırsan, yumulu qonçam,
Utanmaq qızların ilk sevgisidir.
Onu toylarda da qabaqda gördüm,
O, qız taleyinin bəxt güzgüsüdür.

Biz çıxdıq üz-üzə, utandıq o vaxt,
Sallandı qızartı ağ yanağından.
Heç utanmamışdım, ömrümdə, ancaq
Utandım mən sənin utanmağından.

Qoşub utanmağı cehizə anan,
Sən tale evinə yollan bu sayaq.
Bir gün də mən sənin utanmağına
Utana-utana gələrəm qonaq.

Dünya ləzzətini unudar, səni
Bir sayaq utanıb susan görənlər.
Səni xoşbəxt etdi, yainki məni
Sənə utanmağı cehiz verənlər.

*1984*

## APAR MƏNİ

Apar məni əsrimizin sonuna,
Bizdən doğma doğmaların yanına,
Yazı olaq sevgimizin alnına,
Orda muzey-sevgi kimi tanınaq,
Apar məni qollarının üstündə.

Apar məni günahına qonaq et,
Günahsızlıq yordu məni, uzaq et.
Sevgimizdən bir od qala, ocaq et,
Arzumuzdan bir çəpər hör, otaq et,
Apar məni qollarının üstündə.

Apar məni öz dünyana, sənləşim,
Sənlə, səndən olanlarla şənləşim,
Əzabınla, həsrətinlə tənləşim,
Öz əslimə mən qayıdım, mənləşim,
Apar məni qollarının üstündə.

Apar məni gözlərinin yaşında,
O küsəyən ürəyinin başında,
Şairləşən ilhamının quşunda,
Baş ağartmış ilk sevgimin yaşında.

Apar məni heç olmasın xəbərim,
Müjdə verim sənə qızıl səhəri,
Mənim olsun buludların mərməri,
Çək sevgimə kirpiyindən çəpəri,
Apar məni qollarının üstündə.

Apar məni, ürəyinə girim mən,
Ümidinin yuvasını görüm mən,
Arzumuzun meyvəsini dərim mən,
Səni sevgi taleyimə hörüm mən,
Apar məni qollarının üstündə.

Apar məni, görüm xoşbəxt qisməti,
Bəlkə elə sevgidədir cənnətim,
Vətən edim sevgindəki qürbəti,
Sevgi heç vaxt götürməyib minnəti,
Apar məni qollarının üstündə.

*1984*

## ŞUŞA GÖZƏLİ

Gülüşün nə gözəl, necə mehriban,
Qayalar isinib yumşalırdı.
Kirpiyin qaşına toxunan zaman
Həsrətim sevgidən öpüş alırdı.



Noğul tökülürdü danışığından,
Onları birbəbir sapa düzürdüm.
Cüt sevgi dənizi qatışığında
Dünya sevincimə tərəf üzürdüm.

Sən dağın başına qoyulan bir tac,
Dərələr həsrətdən sızıldayırdı.
Payız gülüşünü udurdu ağac,
Ovcuna yarpaqdan qızıl sayırdı.

Durub tamaşana sənin Qarabağ,
Səni Qarabağa qısqanıram mən.
Ey gözəl, mən sənə gəlmişəm qonaq,
Səni qonaqlara qısqanıram mən.

Hər sözün noğulu,
Gülüşün balı
Acı taleyimi döndərir bala.
Qorxdum gülüşündən bir öpüş alım,
Qayalar,dərələr
Gülüşsüz qala.

*1984*

## TALE

Ovcunun nazını bağışla mənə,
Onunla dünyanı ovuclayaram.
Quş olmaq sevinci verməsəm sənə
Mən öz qanadımı surğuclayaram.

Ovcunu seçmişəm tale özümə,
Orda gül açıbdır şirin təbəssüm.
Ovcunu çəksəydin bir yol üzümə,
Uçardı başımdan qəriblik, küsü.

Sən məni görəndə dönürsən tini,
Sevgidə mən sənin döngən olmuşam.
Sən yerə salmısan ovcundan məni,
Yerdə də mən dönüb kölgən olmuşam.

Ovcunun sirrini açma taleyə,
Mən sənin ovcundan uça bilərəm.
Mən qərib bir quşam, taleyim deyə –
Sevgi maqnitindən qaça bilmərəm.

*1980*

## AZƏR İNQİLABI

Xalqın arzusundan doğulan zaman
Sən təzə ad verdin Azər ayına.
Nə qədər inqilab oldu sonradan,
Heç biri çatmadı sənin boyuna.

Salam! Tüfəngimin qanlı tətiyi!
Salam Qələbəmin bayraq örtüyü!
Salam! Sarı buğdam! Dolu çəltiyim!
Atam inqilab!
Anam inqilab!
Balam inqilab!

Üzündə səhərin şəfəqi al-qan,
Şərq qanlı səhəri üzünə çəkdi!
Sən torpaq payladın xalqın adından
Xalq belə torpağa azadlıq əkdi.

O yanır şerimin misralarında!
O yanır qəlbimin yaralarında!
Salam! Yanan qəlbim!
Oyanan yurdum!
Salam! Silahını hələ saxlayan
Ağsaqqal,
Ağbirçək
Fədai ordum!

Sən torpaq payladın barıt qoxulu,
Barıt iyi verdi ilkin taxılın!
Kəndli bu torpağı gözünə təpdi.
Yazlıq toxumunu torpağa deyil,



Azər nehzətinin döşünə səpdi!
Səpdi ki, inqilab hər il göyərsin!
Səpdi inqilabda özü göyərsin!
Səpdi azadlıqda sözü göyərsin!
Göyərsin hər yerdə belə inqilab!
Çevrilsin çörəyə, gülə inqilab!

*1985*

## GECƏ ƏSNƏYİRDİ

Gecə əsnəyirdi yuxusuz vaxtlar
Dolurdu gözümün qapaqlarına.
Bir damcı yuxudan ötəri dağlar
Təpmişdi buludu qulaqlarına.

Yuxumu almışdım qaranlıqlardan,
Yuxum yellənirdi, yırğalanırdı.
Dəniz lal gecəni yatıran zaman
Sahil sükutunda yaxalanırdı.

Dünya əsnəyirdi gecə mehində,
Yummağa qorxurdu yorğun gözünü.
Yuxumuz çimirdi səhər şehində,
Gecə tərk edirdi dünya üzünü.

*1984*

## QAPI

Qapı var ikiqat bükər adamı,
Dayana bilməzsən astanasında.
Qapı var adamdan alçaqdır damı,
Ancaq böyüyərsən göz aynasında.

Qapıda utanar qapı döyməyən,
Utanma, qapını döy, içəri keç.
Qapıda dayanar boyun əyməyən.
Əyil, qapılardan çəkinmə sən heç.

Ürək qapısından qapı var bəri,
Ömrünə bir gözəl naxış sayırsan.
Qapı var girəndə ondan içəri
Hər şeyi hamıya bağışlayırsan.

Qapı var yüz yol da döysən sən onu
O bir yol açılmaz sənin üzünə.
Qapı var açarı, cəftəsi yoxdur,
Taybatay açılar özü-özünə.

Qapı utanmağa qoymaz heç kəsi,
Utanmaq qapıya qədərdir məncə.
Dəysin qapımıza əlin, nəfəsin,
Qapılar səslənsin, gülsün sevincək.

Mən də bir qapıyam sabaha, qardaş,
Tarix qapıçıdır mənim qapımda.
Sən mənim qapıma gələydin, ey kaş,
Görəydim bir səhər səni qapımda.

*1985*

## VƏZİFƏ

Vəzifə, –
Xalqına sənin xidmətin,
Vəzifə nə yaman ağır olarmış.
Vəzifə adamdan əsas sənəti,
Kiçik azadlığı tamam alarmış.

Vəzifə, –
Nə çoxdur gəlib-gedənlər,
Vəzifə heç kəsə,
Heç vaxt qalmayır.
Onu öz hökmünə tabe edənlər,
Daha vəzifəyə tabe olmayır.



Vəzifə heç kəsə
Heç vaxt qalmayır,
Onun keşiyində olasan gərək.
Onu birdəfəlik almaq olmayır,
Onu hər gün
Hər an alasan gərək.

Vəzifə yaxşıdır,
Elə odur ki,
Başa sal hamıya düz vəzifəni.
İstəsən iclasda elə otur ki,
Uzat sən bir il də öz vəzifəni.

Vəzifə dartınıb çəkməyi xoşlar,
İş yoxsa, bircə iş görər dibi o.
İplər dartılanda, o, ipi boşlar,
İplər boşalanda dartar ipi o.

Vəzifə şorgözdür, həm də vəfasız.
Onu dəyişməsən dəyişər səni.
Şorgöz vəzifədən uzaq, qardaşım.
Şorgöz tanımasın qoy bəşər səni.

*1:*

## GİLEY

Eşitdim qızlara gileylənibsən,
Giley – etirafın ögey bacısı.
Gətirir qapına məni də hərdən
Gileyin ağzında qalan acısı.

Ocağın külüylə oynamaq hədər,
Sevgimiz qanadı sınan sevgidir.
Sevirsən, sevgimə bir cavab göndər,
Yoxsa bu gileylik sönən sevgidir.

Böhtan qaçaraqdır, giley çaparaq,
Çaparaq gileyə çata bilmirəm.
Mən səni sevirəm, yenə o sayaq,
Gileyi sevgiyə qata bilmirəm.

Giley sevgimizin itkin ərkidir,
Şirin xatirədir itənlə ötən.
Sənin bu gileyin ötən sevgidir,
Odur ki, gileydən gileyliyəm mən.

*1979*

## TALEYİNƏ QURBAN OLUM

İtə verdim çörəyimi,
Çörəyimi itirmədi.
Yad gül əkdim ürəyimdə,
Daş ürəyim bitirmədi.
Qərib azdım vətənimdə,
Heç kəs məni ötürmədi.
Xoşbəxt oldu bədbəxtlər də
Mənim bəxtim gətirmədi.
Azadlıq da payladılar,
Uca nəfsim götürmədi.
Nə ağırdır tale yolun,
Taleyinə qurban olum!

Məmləkəti girov qoydum,
Təkotaqlı mənzil aldım.
O otaqda ümidlərdən
Öz bəxtimə vətən saldım.
Azadlığım küsdü məndən,
Mələr-mələr düzdə qaldı.
Öz vətənim, ev-eşiyim
Özgəsinə qismət oldu.
Sevgim, yuvam, ta ağlama,
Həsrətinin gülü soldu.
Nə ağırdır tale yolun,
Taleyinə qurban olum!



Gileylənmə daha vətən,
Sığın uca məsləyimə.
Bil, pis gündə gəlməyəcək
Dünya sənin köməyinə,
Dünya təkcə əl çalacaq
Sənin dünya istəyinə,
Yaxın qoyma alqışları
Dünyagörmüş ürəyinə,
Çörək demə qardaşın da
Sən minnətli çörəyinə,
Nə ağırdır tale yolun,
Taleyinə qurban olum!

*1984*

## MƏN

Gəzmə məni, hər yerdəyəm, heç yerdə,
Burdan ora, ordan bura hayam mən.
Ürəyimi güllə edib atmışam,
Sınanacan bərk çəkilmiş yayam mən.

İstisuyun qaynağında üşüdüm,
Diki çıxdım, enişlərdə tövşüdüm.
Kədərimi öz içimdə kövşədim,
Sahilini gəmirtdəyən çayam mən.

Niyə belə pərişansan, gözəlim,
Nəm baxışlar nəm gözümə təsəlli.
Araz bizdən, biz Arazdan küsəli,
Bu qardaşdan o qardaşa payam mən.

Bağla, dünya, mənim ömür köçümü,
Aç qəbrimi, qoy həqiqət ölçümü.
Ürəyimdə qış ağardır içimi,
Gözlərimin istisində yayam mən.

Bir çay idim, göz yaşından bulandım,
Ümid idim, gözlərimdən sulandım,

Yer bəxtimin dövrəsinə dolandım,
Gah nəzilən, gah böyüyən Ayam mən.

Mən bu gündən gələcəyə yazıyam,
Keçmişimi olacaq et, razıyam,
Bu dünyanın yanıq Kərəm sazıyam,
Tərəzidə qoşa duran tayam mən.

*1984*

## AĞILLI

***Ramiz Rövşənə***

Ağıllı adamdan acığım gəlir,
Ağıllı adama yazığım gəlir.
Atam ağıllıydı,
Dayım ağıllı.
Nağılda qismətim, payım ağıllı,
Atamın ağıldan təsbeh əlində,
Nağıl, zərbül-məsəl, öyüd dilində.
Çox deməli sözü bir yol demədi,
"Ağıllı ol!" – dedi,
"Bic ol!" – demədi.

Mən də atam kimi ağıllı oldum,
Ağıl döngəsində yiyəsiz qaldım.
Hər şeyi neçə yol götür-qoy etdim,
Götür-qoy yolunda neçə yol itdim.
Elə ağırlaşdım fağırlığımdan,
Elə fağırlaşdım ağırlığımdan.

Mən ağıllı oldum, düşündüm elə,
Mənim sərhəddimdə çaylar qurudu,
Çaylarda zümzümə layla qurudu,
Qurudu ağaclar, qurudu güllər,
Qurudu intizar, gülümsər göllər,
Ağlımda boy atdı qəmlər, nisgillər.
Dedim, "ağıllı ol" dəli qardaşa.



İndi qibtəm artıb bicə, konaza,
Ağıllı Kürə yox, coşqun Araza.
Vurğunam Koroğlu dəlilərinə,
Daha bir az olar dal çevirmişəm
Dünyanın ağıllı dəlilərinə.

Bir dəli istərəm qırsın hədləri,
Sərhəd simlərini qamçı eləsin.
Ağıl kəhərimin sağrılarında
Tikanlı qamçını sancı eləsin.

Məndən öz xalqıma bir oğul olmaz,
Olsa, bu oğulda çox ağıl olmaz.
Odur ki, bezaram ağıldan bir az,
Ağıllı adamdan acığım gəlir,
Ağıllı adama yazığım gəlir.

*191*

## ŞƏHİD

Hər gün iki dəfə görüşürük biz,
Üfüqdür, iki yol qızarır şəhid.
Qürub qızartısı qızıldan təmiz
Səhər ulduzudur, sozarır şəhid.

Yellənən bayraqdır, yazılı daşdır,
Ana kirpiyindən sallanan yaşdır.
Neçə qardaşsıza doğma qardaşdır,
Mənim xatirəmdə yaşayan şəhid.

Tabutu kirpiklər üstündə gedir,
Qəbri sinəmizdə qazılır onun.
Andı döyüşlərdə nəğmətək ötür,
Səsi mis üfüqə yazılır onun.
Andı "Avesta"da qızıl mıxlardır,
Andı alnımıza mıxlanıb onun.
Bayrağın rənginə dönən vüqardır,
Vüqarı bayraqda saxlanıb onun.

Deşilmiş bayraqdır,
Saflaşan daşdır,
Bacı kirpiyində parlayan yaşdır,
Neçə qardaşsıza doğma qardaşdır,
Çiynində səngərlər daşıyan şəhid.

Biz də yaşayırıq onun andını,
Biz də onun kimi igidləşirik,
Səngərdə çəkdikcə məğrur adını
Biz də hər gün bir az şəhidləşirik.

*1984*

## SƏN

Ağlama bənövşəm, ağlama gülüm,
Yat, dincəl sevgimin yarasında sən.
Yat, ayda bir kərə bəxtinə doğan
Ayın beşikləşən parasında sən.

Çətindir hər axşam yanında qalmaq,
Səni taleyinin əlindən almaq,
Arzu göylərində qoşa ucalmaq,
Durubsan ulduzlar sırasında sən.

Bizim görüşümüz bəlkə düz deyil,
Get, sən də istəkli yanında sevil,
İstəsən arzuya, ümidə çevril,
Parla gözlərimin qarasında sən.

Qəribəm, qürbəti üzümə vurma,
Arzu kəhərimi çaylaqda yorma,
Məni dənizləşdir, daşmağa qoyma,
Yatırt gözlərinin qorasında sən.

Qəlbinə toxundum,
Qəlbimi üzmə,



Vüsal yaylığına göz yaşı düzmə.
Ta məni sevənlər içində gəzmə,
Axtar küsənlərin arasında sən.

Hicran gözlərimdən işığı qapdı,
Cilovsuz gümanlar sinəmdə çapdı.
Tahiri axtarsan,
Bəlkə də tapdın,
Arazın ayrılıq misrasında sən.

*1983*

## VƏTƏNİ DÜŞÜNÜRƏM MƏN

Qaya yumruğumun mərmi qırımı,
Yumruğum içində nəbz ildırımı!
Düşmənə yüz qanlı hökm çıxarmağım,
Gülləyə dönəndə beş-beş barmağım,
Qan rəngi alanda üfüqdə səsim,
Məndən boylananda günəşin əksi,
Çaylar qıjıldayıb məndən keçəndə,
Çölün öpüşünü gül-gül içəndə
Deməli, vətəni düşünürəm mən!

Anadır! Düşürəm ayaqlarına!
Safdır bulaq kimi bulaqdan təmiz,
Gözümü sıxıram bulaqlarına!
Dənizdir, təlatüm içində oynaq,
Atıram özümü qaynaqlarına!
Yanır dodağında bir acı gülüş,
Eşqimi çırpıram dodaqlarına!
Qışında ətirli yay vədələri,
Qışımı çatıram yaylaqlarına!
Ömrüm gecəsində bir kibrit çöpü, –
Tuturam piltəli çıraqlarına!
Deməli, vətəni düşünürəm mən!

Torpaqdan ucadır qayanın ucu,
Qayadan da uca qartallar uçur,
Qartallardan uca ürəyim mənim.
Ürəyimdən də uca durub vətənim.
Onuntək möhtəşəm, uca olanda
Yolunda əbədi yollar salanda,
Deməli, vətəni düşünürəm mən.

*1984*

## BƏNDƏM

Nazəndə nazını nazladım bu qış,
Qışımı qızdıran nazına bəndəm.
Mənə vəd etmişdin, bu yaz gələrəm,
Qışdan sonra gələn yazına bəndəm.

Bir az qəm duyuram danışığında,
Ümid var bu qəmin qatışığında,
Soyuq gülüşünün yapışığında
Əsmər, yapışıqlı üzünə bəndəm.

Gəlirəm, qapında dururam xəlvət,
İçəri girməyə qoymur cəsarət,
Yenə də sevgidə qorxuya rəhmət,
Elə bil qapının özünə bəndəm.

Qapınız dalında sevgim qocalır,
Yazın gəlməyinə ümid azalıb,
Gəlmişəm, arada bir pillə qalıb,
Mən sənin bir kəlmə sözünə bəndəm.

Burda mənim kimi daşlar da kövrək,
Məni lağa qoyur mehriban külək,
Deyir: çox da gözəl deyil o mələk,
Deyirəm: mən onun duzuna bəndəm.



İstəklim, sevgilim dünyada təkdi,
Niyə yaz görüşü payıza çəkdi?
Gözləri danışan qara çiçəkdi,
Mən onun danışan gözünə bəndəm.

## QIRX İL

Qırx ildir ki, ümidini
Aparıram döyüşlərə!
Qırx ildir ki, həsrətini
Yollayıram görüşlərə!
Qırx ildir ki, qeyrətini
Daşıyıram səngərlərə!
Qırx ildir ki, harayını
Paylayıram şəhərlərə!

Qırx ildir ki, fəryadını
Boğazımda
Mərmi kimi partladıram!
Yumruğunla ağaların
Zəhm evini çatladıram!
İstəyini ölkə-ölkə,
Sərhəd-sərhəd adladıram!

Qırx ildir ki,
Dərdlərini basdırıram
Ahdan yanmış torpaqlara!
Sevinclərin tək-tək olur,
Paylayıram qonaqlara!
Arzuların çiçək-çiçək, –
Bəxş edirəm budaqlara!

## DÜNYA

Kimə cəhənnəmdir, kimə də cənnət,
Bu iki dünyadan boylanır dünya.
Fikrimin çəninə o bələklənib,
Gözümün yaşıyla sulanır dünya.

Ümid çiynim üstə bir dövlət quşu,
Şübhəm ümidimə ağır qurğuşun.
Necə çıxacağam ömür yoxuşu,
Elə bil qıçımdan sallanır dünya.

Küsdüm "mənəm" deyən mələklərindən,
Yapışdım saçımla küləklərindən,
Xırda gözlərimin bəbəklərindən
Böyük dünyasına boylanır dünya.

Sevincin utancaq gülüşü seyrək,
Qara baxışımın şüşəsi seyrək,
Qəbir daşı olub halva payıtək
Hərəyə bir tikə paylanır dünya.

Öz doğduqlarını yeyib doymayır,
Tənqidə, tərifə, fikrə uymayır.
Kədəri, həsrəti yaxın qoymayır,
Özündən xəbərsiz hallanır dünya.

Gözümün yaşıyla daşı deşmişəm,
Yaşlı kirpiyimlə ocaq eşmişəm,
Ötkəm çaparımdan daha düşmüşəm,
Mənim ahlarımla fırlanır dünya.

Bir tutan yer yoxdur ələngəsində,
Ay yatıb, ay donub buz kölgəsində.
Uzaq ulduzların sərt döngəsində,
Dəcəl uşaq kimi dolanır dünya.



## ALIŞQAN

*Şair Söhrab Tahirin anası Təbrizdən gələndə qoynunda alışqan gətirirmiş. Necə olubsa, görüşdən sonra hədiyyə itib.*

Yox, yox, itməyibdir, durur alışqan
Alışa-alışa anmaq öyrənib,
Ana həsrətindən, oğul ahından,
İnsanca odlanıb, yanmaq öyrənib.

Təşnə ana-bala qol-boyun olub,
Elə ki, çitənib biri-birinə.
Baxışlar qorlanıb, baxışlar donub,
Dağ basıb nisgilin bəbəklərinə.

İki həsrətlinin görüş anında,
Alışqan diksinib göz atəşindən.
Ana ürəyinin odu yanında
Xəcalət çəkibdir öz atəşindən.

Hönkürüb ananın damarında qan
Qurumuş döşündə süd ağlayıbdır.
Dözməyib bu hala polad alışqan,
İçində qıvrıxan od ağlayıbdır.

Yanıb ki, bu dərdi yaysın aləmə,
Bilməyib nə təhər səfərbər olub.
Atəş əmə-əmə, od əmə-əmə,
Ananın qoynunda səməndər olub.

Çağırıb köməyə od allahını,
Əngin səmalara baş vurub, uçub.
Oğul həsrətini, ana ahını,
Yanacaq yerinə doldurub uçub.

Xəbəri olmayıb o vaxt ananın,
Alışqan üz tutub arana, dağa,
Geri qayıdıbdır o Səttarxanın
Sönən məzarına məşəl olmağa.

## SƏNƏ QURBAN

Başı qarlı Savalansan,
Tut başını yuxarı!
Nə mərdanə görünərmiş
Səhəndinin baxarı.
Azadlıqdan nəğmə deyir
Sularının axarı.
Yara almaq, şəhid olmaq
Azadlığı mənimdir.
Bir gün azad ömrüm olsa, –
O ömür də sənindir.
Sənə qurban, məmləkətim,
Sənə qurban, millətim!

Qitə-qitə azad oldu
Məmləkətlər, millətlər.
Günəş-günəş boylandılar
Al gümüşü üfüqə.
Azadlığın güllələndi,
Döndü qızıl şəfəqə!
Nəğmə oldu,
Şimşək oldu,
Çay oldu!
Ucalıqda o, Səhəndə,
Savalana tay oldu!
Sən fəxr etdin
Azadlıqla hər zaman.
Əyil, götür azadlığı
Ayaqların altından!
Sənə qurban, məmləkətim,
Sənə qurban, millətim!

Mən azadlıq bulağıyam,
Dağ sinəndə çağladım.
Dağlarına həkk olundu



Qaya adım,
Dağ adım!
Mən qılıncam döyüşlərdə,
Azadlığam səngərdə!
Azadlığın qılıncını
Sən belimə bağladın!
Sənə qurban, məmləkətim,
Sənə qurban, millətim!

## YAT, QIZIM

Ay qızım,
Gözlərin niyə yol çəkir?
Nəyi düşünürsən yatanda, bala?
Körpə yuxuların çin olsun təki,
Gecən sona çatar.
Uyu, yuxula...

Yatanda bu şəklə bir də yaxşı bax!
O sənin nənəndir,
Sözü gözündə.
Heç kəsin gözləri belə danışmır
Bəlkə də,
Bəlkə də
Bu yer üzündə.

Yat, bala,
Yuxuda nənən gözləyir,
Get, qızım,
Yuxuda baban gözləyir.
Get, daha tanış ol əmilərinlə,
Mənim həsrətimlə
Öp üzlərindən,
Ümid yaylığıyla,
Şirin söz ilə

Acı göz yaşını sil gözlərindən.
De ki,
Atam qaldı könlü yaralı,
Çayların üstündən o, körpü salır.

Kim ki, qaça-qaça çıxdı qarşına,
Məzəli "töhmətlər" göndərdi mənə.
Kim ki, qəm çələngi qoyub başına.
Səhər təbəssümü göstərdi sənə,
Bil ki, o nənədir,
Qucaqla onu...

Mənim gözlərimlə öp gözlərindən,
İncimə, ay qızım,
Sən öz nənənin
Şirin "töhmətindən",
Acı sözündən.

Bir gün də sən özün şəkilləşərsən,
Başlanar ağbirçək bir məhəbbətlə
O taya, bu taya şəkil səfərin.
Girərsən nəvənin yuxularına,
Gələr nəvələrin şəkil-xəbəri.

Yeri, bala qurban,
Əlində şəkil!
Bəlkə də,
Bəlkə də
Bu, yuxu deyil.
Üzü bu yana yat,
Üzü bu yana.
Təbrizin yolları üzü belədir.
Nənən gündoğanda durub həsrətlə
Səhər yaylığını sənə yellədir.



## BİRİNCİ

Düşünən bəşərin,
Qoca dünyanın
Hərlənən təkəri birincilərdir.
Güllə sıxımının asan hədəfi,
Yükün fil çəkəri birincilərdir.

İnqilab hayqırdı,
Tufan bağırdı!
Birinci oğlunu tarix çağırdı!
Zəif birincilər ikinci oldu;
Bir gün gecikənlər
Üçüncü oldu.
Dünya öz hökmünü elə dəyişdi,
Birinci adamdan birinci oldu!

Birinci intihar,
Birinci ölüm!
Birinci ölümün ağzından dönüm!
Ömrün gödəkliyi,
Yolun təkliyi,
Böhtan kələfçəsi,
Yalan yumağı,
Başının üstündə düşmən çomağı
Birinci olmağın yol yoldaşıdır,
Birinci, sabahın vətəndaşıdır!

## GÖZLƏYİRƏM

Gözləyirəm, gözlərimin qarasında
Çaxsın bir gün
Ürəyimin
Qızıl şimşək partlayışı.
Sona çatsın bu hicranlı yaşayışım.

İki qardaş,
İki tale arasında
Bir təsəlli körpüsüyəm.
Ölçülməyən ümidlərin
Gözəyarı ölçüsüyəm.

İki infarkt arasında
Yaşadıqca həyatımın ləzzətini,
İki infarkt arasında
Ürəyimin damarından keçirmişəm
Öz dövrümün sürətini.
Adam oldu,
Həyatından əziz bildi ölməyini.
Adam oldu, lənətlədi
Bu həyata gəlməyini.
Biri yedi məsləyinin kötəyini,
Biri yedi
Məsləksizlik çörəyini.

Nə yaxşıdır –
İnfarktımda cəsarətim,
Nə yaxşıdır –
İnfarktımda sədaqətim.
Həyat necə dadlı olur
İki infarkt arasında.
Həyat necə əziz olur
İki infarkt arasında.
İnsan uca zirvə olur,
İnsan dərin dəniz olur
İki infarkt arasında.

## ANAMIN ƏLLƏRİ

Anamın əlləri yadıma düşüb,
Öpüb gözüm üstə qoymaq istərəm.
Əlinin kötəyi necə şirindir,
Şirin kötəyindən doymaq istərəm.



Alın qırışının dərinliyində,
Bu gün fikir-fikir olub itmişəm.
Ana kötəyinin şirinliyində
Məst olub,
Məst olub, huşa getmişəm.

Hirslənib o məni hərdən döyəndə,
Yaşlı gözlərini qırpıb yumardı.
Xırda əllərinin titrəyişindən
Nəsihət tökülər,
Öyüd damardı.

Bir az "qudurmuşam",
Dəcəlləşmişəm,
Anam cızığıma salaydı məni.
Özünü kötəyin altına atıb
Atamın əlindən alaydı məni!

Niyə öpməmişəm ana əlindən,
Ovcunda naz gülü əkməmişəm heç?!
Hamının nazını çəksəm də bəzən
Anamın nazını çəkməmişəm heç.

## OLDU

Qardaş, həsrətimi sən yenə dindir,
Gör yaramın yeri necə dərindir,
Dünyada gör kimin bəxti yeyindi,
Gör, kimin astarı kimə üz oldu?!

Yandı arzuların bağçası-bağı,
Qırıldı çay üstə bir ümid tağı,
Arazdan su içdim görüş qabağı,
Ağzımda damlası onun köz oldu.

Qardaş həsrətilə boynumu burdum,
İki yol üstündə bir yuva qurdum,
Yurduma azadlıq bayrağı vurdum,
Heyf, o günlərin ömrü az oldu.

Bulaqlar göz yaşım,
Dərələr ahım,
Görəsən, nə idi mənim günahım?!
Ölürəm qardaşdan ayrı, ilahi,
Bu ayrı ölməyim yaman pis oldu.

Tahir, nəvələrim qoy məni ansın,
Ölürəm, qoy dünya məndən utansın,
Sərhəd ayrılığı od tutub yansın,
Gözümdə o iki damla söz oldu.

## YUXU

Mələyir gözümdə quzu yuxular,
Sallanır mirvari kirpiklərimdən.
Bəzən bir gün əvvəl –
Yatmazdan qabaq
Bilirəm nə yuxu görəcəyəm mən.

Döyə bilmədiyim düşmənlərimi
Yuxuda döyərəm
Bəzən doyunca.
Dünyanı yenidən tikib quraram
Şirin yuxulara qədəm qoyunca.

Özüm təzə-təzə şeirlərimdən
Yuxuda özümə heykəl qoyaram.
Sonra ayıqlıqda
Yalan təriflər
Yuxu heykəlimi göyə sovurar.

Yuxuda bir küçə salmışam dünən
Bir ucu Bakıda
Biri Təbrizdə.
Yuxuda bir şəhər salmışam dünən,
Bir-bir təmizlənib hər natəmizdən.



Yuxuda babamın sümüklərindən
Arazın üstünə körpü çəkmişəm,
Tikanlı simləri qırpıb,
Yerində
Özüm bir Arazlıq lalə əkmişəm.

Köçürəm yuxuya,
Mənim yuxuda
Uçmağa qüvvətli qanadım olur.
Yuxuda öpüşün, sevginin, sözün
İlahi, bəşəri bir dadı olur.

## SƏBR

Mən çox səbr elədim
Cavan yaşımda,
Bir qanlı səbr oldu dünyada payım.
İndi tələsirəm,
Yaşayışımda
Dünya karvanından geri qalmayım.

Tarix "gözlə" dedi,
Niyə, bilmədim.
Baha başa gəldi tarixim mənə.
Sonra tələsməyim vecə gəlmədi,
Səbrimlə yükləndim ana vətənə.

Çoxu dərs oxudu mənə səbrdən,
Çoxu çiyni üstdən baxdı səbrimə.
Neçə yol səbrimdə öldüm-dirildim,
Neçə yol səbrimlə endim qəbrimə.

Tələsən özünə tapdı bir çara,
Səbrli adamsa sözünü uddu.
Səbri laqeydliyə çevrilib sonra,
Özünü unutdu,
Xalqı unutdu.

Səndən qabaqdakı nə yerdə olsa,
Özünə çatasan gərək hələ sən.
Dünyada kim durub dincini alsa,
Mən gəldim deyərək
Gərək tələsəm.

Dəyişib tarixim daha büsbütün,
Ey səbrim,
Sən gərək bunu biləsən.
Bir vaxt çox səbrli olduğum üçün,
Gərək hər işimdə bu gün tələsəm.

## QOCALIQ ÇAĞIMDA

Qocalıq çağımda
Ucalaram mən,
Ucalan vaxtımda
Qocalaram mən.
Gənclik ləzzətinin romanlarını
İl-il cilidləyib
Gün-gün yazaram.
Qocalmış huşumun küçələrində
Gənclik ünvanımı gəzib azaram.

Mən ki sayılmazdım ilk gəncliyimdə,
Geyərdim atamın pal-paltarını.
Bir də sayılmaram qocalanda mən,
Geyərəm oğlumun nimdaşlarını,
Uzun söhbətimlə bezdirərəm mən
Oğlumun geyimli yoldaşlarını.

Çıxaram ömrümün buzlu yoluna,
Minnətsiz təqaüd girər qoluma.

Gəlinin zəhləsin tökməyim deyə,
Udaram gecələr öskürəyimi,
Nə oğul qayğısı,
Nə oğul evi,



Nə günəş,
Nə ocaq
Qızdıra bilməz
Odun ayağımı,
Buz kürəyimi,
Udaram çox zaman öskürəyimi.

Bəlkə də, bəlkə də qocalanda mən
Oğluma bir vecsiz oğul olaram.
Oğlumun evinin vecsiz yerində
Mənə buz sırıqlı yataq salarlar,
Döyər öskürəyim pəncərələri,
O biri otaqda gəlin deyinər,
Gəlin öz-özünü
Söyər, qarğıyar,
Ünvansız qarğışlar yağar qarşıma,
Oğlum yorğanını çəkər başına.
O zaman süzülüb çıxar yadımdan
Yaxın dostlarımın sevimli adı.
Pəhriz xörəklərin dadsızlığında
Dolaşar ağzımda validol dadı.
Səbrli infarktım
Küçə başında
Hər gün addım-addım izləyər məni.
Gənclik günlərimdən oğurladığım,
Gün-gün saxladığım
Uğurlu günlər
Amansız infarktdan gözləyər məni.

## ŞÜBHƏ

Arxamca kölgəm yox,
Mənimlə qol-boyun olub gecələr.
Yanıma gələndə əyri görünür
Gözümə düz yollar,
Sərrast küçələr.

Gözümdə bir ayrı quyu qaralır,
Şübhəm gizlənmişdir həmin quyuda.
Huşumu başımdan o elə alır,
Şübhəylə içirəm təmiz suyu da.

Gecələr fikrimin quraqlığında
Nədənsə,
Nədənsə, şübhəm göyərir.
Gündüzlər fikrimin yaşıllığında
Nədənsə, nədənsə
Şübhəm quruyur.

Bu səfər
Şübhəmdən mən çox razıyam,
Bir sevgi kəşf edib şübhəm mənimçin.
Bu səfər
Şübhəmdən çox narazıyam,
Şübhədən sarsılıb
Tükənib gücüm.

Sanki kainatı təzə görürəm,
Tək-tək ulduzlara qəlpələnmişəm.
Mən bəşər olandan,
Bəşər olandan
Allahın özündən şübhələnmişəm.

## GİTARA ÇALAN QIZ

Köklə gitaranı kirpiklərinlə,
Elə çal,
Sevgində görüm özünü.
Mənim sözlərimdən qəmlənmə elə,
Gizlətmə yaşamış ala gözünü.

Çalma o nəğməni,
Bənövşəm, çalma,
Çəkin taleyimin kövrəkliyindən,



Yoxsa çevrilərəm soyuq yağışa,
O mərmər köksünə çırpılaram mən.

Çöldə tramvaylar hərlənib keçir,
Çöldə dəmir xətlər tarım çəkilib.
Titrək simlər üstə sətirbəsətir
Sevgi ikimizlə görüşə gəlib.

Söykəyib şüşəyə alnını yağış,
Bizə gilələnmiş gözüylə baxır.
Sənin gitaranın səsi çöllərə,
Çöldən maşın səsi içəri yağır.

## YAXIN OLURUQ

Sevirdim yanakı daranan saçı,
Daha sevməyirəm
Səndən küsəli.
Sevgiylə ayrılıq arasındakı
Bir hiss var,
Bax, elə istərəm səni.

Mən sənin pudralı arzularınla
Öz həyat yolumu dəyişə bilməm.
Mən sənin
"Özündən razılarınla"
"Doğruluq" üstündə deyişə bilməm.

Ancaq, mən sevərəm səni uzaqdan,
Yaxınlıq yad edir bizi bəs nədən?
Yaxın sevgilərə inanmayıram,
Uzaqdan sevməyi bacarıram mən.

Bir sevgi uzaqdan mənə "gəl" deyir,
Beləcə həsrətlə yaşa doluruq.
Ürəyim sevməyir,
Gülüm, sevməyir,
Biz uzaqlaşdıqca yaxın oluruq.

## BİR VAXT

Çatdı sevgimizin payız illəri,
Nə mən qısqanıram,
Nə sən sevirsən.
Sevgidə dönüklük görəndən bəri,
Sınmaram,
Ta məndən üz də çevirsən.

Bir vaxt mən sevirdim.
Sən qısqanırdın,
Yönünü duyurdum baxışlarından.
Sən hər ağlayanda muncuqlanırdım,
Nəğməsi olurdum kirpik tarının.

Bir vaxt gilə-gilə yaşa dönərdim,
İtərdim kirpiklər arasında mən.
Bir ağ parıltıydım,
Yuyunub hər gün
Yatardım gözünün qarşısında mən.

Bir vaxt bu soyuqluq tamam yox idi,
Ancaq biz var idik –
Kəhkəşan boyu.
Fəsillər nə isti,
Nə soyuq idi,
İndi yay istidir,
Payızsa, soyuq.

Bir səhra sükutu yatıb gözümdə,
Pələng arzularım huşa gedibdir.
Sevgim yetim qalıb hicran düzündə,
Sevgimin dözümü tamam itibdir.



## QAPIYA QƏDƏR

Mən üzə bilmirəm, axı bu axşam
Sehirli baxışlar fırtınasında.
Bilmədən gəlmişəm,
Gəlib durmuşam
Bir sevgi evinin astanasında.

"Qapıda dayanma, qonşular görər",
"Buyur içəriyə,
Yeməzlər səni".
Baxışın buz kimi donub bu səfər,
O buz baxışların yandırır məni.

Sənin ağ, yuvarlaq çiyinlərindən
Yanar baxışlarım yana sürüşür.
Burda, –
Bir qapısız hicran evində
İki ayrı düşmüş sevgi görüşür.

Sən məni,
Mən səni tutaram dilə,
Mənasız görünür söz axınları.
Əlini sıxıram isti əlimdə,
Əriyir ovcumda buz salxımları.

Məni sehirləyib gözlərin sənin,
Göz olub gözləyir
Qapılar, evlər,
Əgər içəriyə keçməyəcəkdim,
Bəs niyə gəlmişəm qapıya qədər?!

## YOLA GETMƏDİK

Biz yola getmədik,
Dilbir olmadıq,
Səninlə qurtardı sevgi həyatım.
Bir çöp itirəndə yata bilmirəm,
Səni itirmişəm,
Bəs necə yatım?

Sevgim külə dönüb,
Yeri boş qalıb,
Bu ürək boşluğu kül ilə dolmaz.
Qəlbimdən bir səma ulduz yox olub,
Onu təsəlliylə doldurmaq olmaz.

Yuxum diksinmişdir,
Yata bilmirəm,
Qu balınc boynumu,
Köksümü sıxır.
Saat zənglərini saya bilmirəm,
Adi say-hesabı yadımdan çıxıb.

Axı nə biləydim,
Ayrılıq ilə
Sevgini bir anlıq sınamaq olmaz.
İlk dəfə sevəni sevən yanında
Dilucu danlamaq,
Qınamaq olmaz.
Bu gecə ürəyim əzab yuvası,
Əzab dəryasında ürəyim itib.
Bu gecə
Balıncım daş olub niyə,
Döşəyim üstündə tikanlar bitib.



## MƏN ÜMİD OLURAM

Əlimin tumarı saçında qalar,
Sevgim kirpiyinin aralarında,
Eşqin sızıldayar
Sənin, ay maral,
Sönük ümidimin yaralarında.

İcazə istərəm bu yerdən köçüm,
Çağırır yollara məni uzaq yol.
Biri-birimizi yaşatmaq üçün
Mən ümid oluram,
Sən intizar ol.

Mən ümid oluram,
Sən də intizar,
Keçir aramızdan dünya yolları,
Hər yerdə boynuma, gülüm, sarılar
Sənin ümidinin mərmər qolları.

## SEVGİ FƏSLİ

Gözündə fəsillər qalıb bivaxta,
Fəsillər vaxtında niyə gəlməyir?
Nə isti,
Nə soyuq,
Nə qar,
Nə şaxta
Sevgi fəslimizi poza bilməyir.

Dörd fəsli pozmuşdur sevgi fəslimiz,
Burda iki ürək vüsal məstidir.
Beşinci fəsildə yaşayırıq biz,
Beşinci fəsilsə sevgi fəslidir.

Şüşədən baxırıq
Ulduzlar seyrək,
Çöldəki dörd fəslə göz qırpır şüşə.
Sevginin dörd fəsli olmasın gərək,
Sevginin bir fəsli olur həmişə.

## ÜZÜK

Əlində bir qızlıq üzüyü gördüm,
Ana öpüşündən bir şüşə qaşı.
O məsum üzüyü öpəndən, gülüm,
Üzük qaşı olub könlümün başı.

Nə haram bilirsən,
Nə də əyrilik,
Əlin uzanmayıb çiynindən uzaq.
O üzük o incə barmaqlarında
Məsum bir dünyadan nişan qalacaq.

Nə vaxt ərə getdin,
Çıxar onu sən,
Qızına, nəvənə
Saxla yadigar.
Qoy belə həmişə təmiz görünsün
Ər evi görməyən sevimli qızlar.

## QORXMA

Qorxsan, bir iynə ol,
Yaxama sancıl,
Arzumun gözündən keçirim səni.
Əgər yenə qorxsan,
Mənə xəbər ver,
Gözümdən qəlbimə köçürüm səni.

İynə ol,
Mən tikim biri-birinə



Hicran illərimin yamaqlarını.
Tikim həmişəlik bizi ayıran
Dişli sahillərin dodaqlarını.

İynə taleyimi yaşa yenə sən.
Ayrılan nə varsa,
Birləşdir onu.
Birləşdir, əzizim,
İki sahildə
İki ayrı düşmüş qardaş oğlunu.

## QURBAN OLUM

Neçə ildən sonra görüş,
Gəl, canına qurban olum.
Bir əl saxla, qurban kəsmə,
Qurbanına qurban olum.

Düyünləyib qəmi atdın,
Üzərriyi oda qatdın.
Başın üstə Quran tutdun,
Quranına qurban olum.

Qoy gözünün yaşın silim,
Çox dil tökmə şirin dilim,
Düzlüyünü dünya bilir,
Yalanına qurban olum.

Dil açmasın qoy gileylər,
Dil açsa da bizə neylər,
Gedənləri bir-bir söylə,
Qalanına qurban olum.

Bu doludur, yoxsa noğul,
Ey gəncliyim, bir də doğul,
Sevgin dönüb güman olub,
Gümanına qurban olum.

## GÜLÜŞÜN SƏNİN

Bir də gülüşünlə sevindir məni,
Özündən gözəldir gülüşün sənin.
Dünya gözəli də olsan yaxşı bil
Özündən gözəldir gülüşün sənin.

Bir gün uzaq düşsən ana torpaqdan
Səni soruşaram güldən, budaqdan,
Mənə sovqat göndər onu uzaqdan,
Özündən gözəldir gülüşün sənin.

Pay verim payıma düşən illərə.
Çevrilsin ətirli, nazlı güllərə,
Qovuşsun qəlbimdən axan sellərə,
Özündən gözəldir gülüşün sənin.

Onu bəbəyimdə silib saxlaram,
Eşqilə yaşaram, yanıb çağlaram,
Sən gülsən, sevinib mən də ağlaram,
Özündən gözəldir gülüşün sənin.

O sevinc, o sevgi qalıbdı səndə,
Şəkil gülüşünü öpürəm mən də,
Güzgüyə baxarsan bir gün güləndə
Özündən gözəldir gülüşün sənin.

## ÜZ-ÜZƏ

Dünən görüşmüşdük göl sahilində,
Mənə yuxu kimi görünür dünən.
Mən sizi görəndən yuxu şəklində
Artıq yuxulara inanıram mən.

Büllur sürahiyə bənzəriniz var,
Qorxuram toxunam, sına bilərsiz,
Kobud əllərimdən siz incik qalar,
İncə təbəssümlə mənə gülərsiz.



Dənizə dönmüşəm, saf güzgüyəm mən,
Görün özünüzü bu saf güzgüdə.
Mən böyük dənizə dönürəm deyən
Bu göl sahilində mavi sevgidən.

Ağ yuva saldınız göy sahilimdə,
İnsafı bəs hara göndərmisiniz?
Ən incə, mehriban sevgi dilində
Siz məni tufana döndərmisiniz.

Dəniz qucağıma tullanın, üzün,
Gördüyüm yuxular çin olub deyən.
Əvvəl inanmazdım nağıla düzü,
İndi əfsanəyə inanıram mən.

## DƏRƏ BİLMİRƏM

O payız ayrılıq illəri keçib,
İncə baxışlarla danışırıq biz,
Dənizi, buludu, məni məst edib
Sizin görünməmiş gözəlliyiniz.

Siz ağ şam, mən isə tutqun axşamam,
Şam tutqun axşamda gözəl görünər.
Nə var dövlənizdə kölgədir tamam,
Kölgəm dövrənizdə gəzib sürünər.

Bir titrək işıqda ruhum yellənir,
Sizi taleyimə hörə bilmirəm.
Bir ağ gülsünüz ki, açıb, güllənib,
Elə incəsiniz dərə bilmirəm.

## GÖZLƏMİŞƏM

Bu gün əlinizdən öpdüm sevincək,
Ağzımda öpüşün sevinci qaldı.
Niyə barmağınız soyudu buztək,
İncə üzünüzü boz bulud aldı?

Niyə diksindiniz, qızardınız siz?
Məyər qəbahətmi öpmək bir qızı.
Mənim öpüşümü qapıb qaçdınız,
Ya əl toxunmamış paklığınıza?

Dünyada paklığa baş əymişəm, tək,
Təmizlik, məsumluq, paklıq sevgidir.
Sevgiyə, sevənə azdır baş əymək,
Çünki o ilahi hissdir, vergidir.

Qırx il yolunuzu gözləmişəm mən,
Niyə otuz doqquz yaşda gəldiniz?
Necə bunca sizi sevən içindən
Məni könlünüzə məhrəm bildiniz?

Uzaqda durmayın, əlimdən tutun,
Əlim sizə tərəf uzalı qalıb.
Pozun bu ilahi, məsum sükutu,
Qoymayın sevgimdə bunca qocalım.

## SOLĞUNUM

Bilirsən ki, solğunluğu sevirəm,
Boyaları uzaq elə, solğunum.
Sən anadan gələr-gəlməz gözəlsən.
Bənzəyirsən təzə gülə, solğunum.

Gözəllikdə solğunluğun çəkəri,
Rəng çəkməsin aramızda çəpəri,
Şirin olur şişə qəndin şəkəri,
Sən solğunsan bilə-bilə, solğunum.

Boyağı vur pəncərəyə, dirəyə,
Boyaq düşmür şişə kimi ürəyə,
Allah boyaq vurmamışdır mələyə,
Sən mələksən bəlkə elə, solğunum.



Azalt rəngi, çoxalt yuxa nazını,
Türbə elə saf üzünün duzunu,
Göstər mənə o ilahi üzünü,
Gələ-gələ, gülə-gülə, solğunum.

## KAŞ Kİ

Sənə qurban, təşrif buyur içəri,
Qırx ildir ki, görüşürük yuxuda.
Kirpiyimdə yuxu kolu cücərib,
Yuxularım dil açmayıb qorxudan.

Ayağını qoy sinəmin üstünə,
İlk sevgidə ilk əhdimiz beləydi.
Qurban sənin qaçdı-tutdu küsünə
Kaş ki, on il bundan qabaq gələydin.

Astanada durma, buyur içəri,
Niyə yaşlı görünürsən yaşından.
Gərək qırx il təzə ömür becərim,
Heykəl yonum sənə hicran daşından.

Bu ev, bu mən, bu da ərpim yazılar,
Bunlar qalıb ilk görüşdən bu çağa.
Nə istəsən, nə istəsəm, burda var,
Kaş ömrümüz çəkiləydi qabağa.

Allah, qaytar o qırx neçə ilimi,
Birdən bu da yuxu olar, yuxuda.
Qucaqlayıb bərk tuturam əlini,
Gözlərimi bərk yumuram qorxudan.

## GECƏ GÖRÜŞÜ

Biz iki dünyadan qopub gəlmişik,
Bir dünya tapmışıq pıçıltılarda.
Sevgi dünyasını xəlvət bilmişik,
Qaçmışıq insafsız qaraltılardan.

İsti pıçıltında tapıram səni,
Bir də ki, titrəyən yorğun səsində.
Sən tumarlayırsan ılıq kölgəmi
Ulduzlar gül açır gül nəfəsində.

Gecə sevincimi sevginə qatıb
Gözümə sevgidən sürmə çəkibdir.
Gecə aramızda dincəlib yatıb
Araya ulduzlu pərdə çəkibdir.

Gecə görüşləri mehriban, şirin,
Gündüzdən qapmışam səni bəlkə də.
Pıçıltı qoynunda salınıb yerim,
Üstümdə yorğan var ılıq kölgədən.

## SOYUQ QIZ

Salamında bir sevginin sirri var,
Özü incə, ruhu incə, duyuq qız.
Mən baxtımı girov qoydum yanında,
Ayıqlıqda ayıq quşdan ayıq qız.

Mehrabında qoy ruhumuz çalışsın,
Qanadlanıb qanad-qanad dolaşsın,
Bəlkə onda soyuq sevgin alışsın,
Öz baxtına, sevgisinə soyuq qız.

Xoşbəxtlik var yazılarda, sərgidə,
Dünya qanlı bac alandır sevgidən,
Gör özünü mən tutduğum güzgüdə,
Göz yaşımda üzən büllur qayıq qız.

Qoş məni də öz ruhunun quşuna,
Bir söz söylə dönüm quzey qışına,
Qoy bu gecə sevgi tacı başına,
İstəklərin şahlığında sayıq qız.



## VAR

Bu evdə baharın ətri duyulur,
Bu ətrin sevgidən təravəti var.
Ey talançı külək, içəri girmə,
Burda iki qəlbin səadəti var.

Bu evdə sevginin özünü gördüm,
Hər şeyin əzəli, düzünü gördüm,
Quranın müqəddəs üzünü gördüm,
Bu evdə Allahın nəzarəti var.

Ey şair, atginən adı, şöhrəti,
Götür örnək elə yaxşı niyyəti,
Bir az da qadından öyrən qeyrəti,
Onun haqdan gələn nəcabəti var.

Sevgi azadlıqdır əsir olana,
Sevgidə inanma yoluq yalana,
İnansan üstünə kədər qalanar,
Sevginin şahlığı, əsarəti var.

Azərazər, sənin daha nə dərdin,
Bağçada ən qəşəng bir gülü dərdin,
Mənə izin versə Allah, deyərdim,
Baharın ilahi məlahəti var.

## XOŞLUQ

Yağdır nazlarını sevgi dünyama,
Dünyanı yenidən əkək, becərək,
Küskün gileyləri sinəmə yama
Çallaşan sevgidə bir də cücərək.

Görüş övladımız, dözüm evimiz,
Kök ataq ürəyin sədaqətində.
Sevgi planeti cənnət yerimiz,
Qalaq küsülərin əsarətində.

Göyərsin ovcumda alma ağacı,
Yarpaq öpüşündə ömür uzadaq.
Başımda sevginin soltanlıq tacı,
Onun hər cıqqası bir qızıl ocaq.

Xoş təsadüf deyil bu görüş, gülüm,
Yüz il aramışdım səni ruhumda.
Sən mənə yaxınsan indi, gözəlim,
Ən əziz, mehriban, yaxın qohumdan.

## GƏLİRƏM

Tələsən maşına ürəyim yanır,
Bilirəm qapını açmayacaqsan.
Bilirəm qapıda tənha dayanıb
Tənha bir gecəyə tənha qonaqsan.

Həyətdə küsülü bir ev ağlayır,
Göz yaşı tökülür pəncərəsindən.
Burda bir sevginin boğuq harayı
Dolaşır hicranın dağ-dərəsində.

Gəlirəm kəndbəkənd, şəhərbəşəhər,
Yığıb gilə-gilə gözümə səni.
Dörd həsrət val kimi qara təkərlər
Asfalt üzərində oxuyur məni.

Səni axtarıram, səni gəzirəm,
Uçulur önümdə hicran bəndləri.
Kirpiyim sapına yol-yol düzürəm
Muncuq şəhərləri, təsbeh kəndləri.

Çatıram sevgimin qürub çağına,
Dolur gözlərimə qızıl qızartı.
Əkirəm səbrimi quraqlığına,
Sevgi yollarında dözümüm artıb.



Maşın sənə tərəf tələsir, gəlir,
Mən peşman sevgimdə eşələnirəm.
Bəlkə mənə tərəf uzanıb əlin,
Əlin tək kövrəlib şişələnirəm.

## MƏNƏ

Qız, təbiət bəxş etmişdir,
Səsi sənə, sözü mənə.
O pay verib, bağışlayıb
Nazı sənə, üzü mənə.
Qismət olub gözəlliyin
Özü sənə, duzu mənə,
Sevgi gəlib qonaq olub
Nazı sənə, özü mənə.
Yandım oda, həsrət çəkdi
Min-min aşıq azı mənə.
Sevgi yağdı başımıza
Külü sənə, közü mənə.
Tahir, sevdin o ceyranı,
Qaldı ancaq izi sənə.

## GETDİ

Könül, öz meylini saxla bir anlıq,
Yollarım yollara qovuşdu getdi.
Elə gözlərimi tutdu cavanlıq,
Xoşbəxtlik yanımdan sovuşdu getdi.

Bir yol güllə atdım, özüm yıxıldım,
Ovcumun içindən ov uçdu getdi.
Bir vəhşi marala mən yovuşmadım,
O bir yovuşmaza yovuşdu getdi.

## GÜL

Çox əyilmə yerə tərəf,
Dodağından öpüş düşər.
Sən şirinsən, elə şirin
Daşı öpsən şirinləşər.

Dönər daş da şirin nara
Çatdar onun dodaqları.
Sən öpmüsən, bəlkə gülüm
Dağ ətəyi bulaqları.

İndi niyə qüssələrdən
Baxışların sürmələnib.
Göz yaşların kirpiyində
Bir-birinə düymələnib.

Daraqdandır, yoxsa saçdan
Ağ boynuna kölgə düşüb.
Külək vurub, söyüd saçlım,
Saçlarına kilkə düşüb.

Sənsiz qalıb daşlaşmışam,
Daşı isit öpüşünlə.
Gül, mən dönüm şirin nara
Sənin şirin gülüşünlə.

## ÜMİD YAXŞIDIR

Mənə, mehribanım, ümid verirsən,
Vüsal ləzzətindən ümid yaxşıdır.
Ey qibləm, sən özün yaxşı bilirsən,
Vüsal ləzzətindən ümid yaxşıdır.

Mən ümid qurbanı, sən ümid şahı,
Bizi də yada sal insaf Allahı,
Hərdən pıçıldayır mənə günahın
Vüsal ləzzətindən ümid yaxşıdır.



Ümiddir sevgidə alınmaz qala,
Dözüm də, səbr də ondan pay alar,
Nə deyim bu qəmli, dözümsüz hala
Vüsal ləzzətindən ümid yaxşıdır.

Ömür yollarında yolum yarımçıq,
Ümid qapısında mənəm qapıçı,
Bilmirəm qapını hayana açım,
Vüsal ləzzətindən ümid yaxşıdır.

Ümid qapısında, gülüm, görüşək,
Sevinci, həsrəti, qəmi bölüşək,
Deyirəm gizlində tanış-bilişə
Vüsal ləzzətindən ümid yaxşıdır.

## QİSMƏT

Bir alma görmüşəm sevgi bağında,
Yetişib, qızarıb dərəni yoxdur.
Gizlənib sallanıb öz saplağından
Yarpaqlar içində görəni yoxdur.

Nə ola vaxtında gələ qisməti
Tamahlar sarala qapı dalında.
Ah qismət, ah qismət, küsmüsən nədir,
Yaman nigaranam sənin halından.

Qismətin hər hökmü, qərarı ötkəm,
Onu gözləyirəm süd yuxusunda.
Mən deyən huşumu itirməkdəyəm
Bir qızıl almanın xoş qoxusundan.

## OLAYDIN

Göyərçinsən, yuva saldın bu döşdə,
Bura sənin, sən də mənim olaydın,
Bu dağları güllləndirən gözəlsən,
Bura sənin, sən də mənim olaydın.

Mərmər evsən Pirqulunun qoynunda,
Ulduzlardan boyunbağı boynunda,
Dünyaşünas filosoflar yanında
Bura sənin, sən də mənim olaydın.

Çox soruşdum, öz sevgində dinmədin,
Çox çağırdım öz yolundan dönmədin,
Qonaq gəldim, ulduzlardan enmədin,
Bura sənin, sən də mənim olaydın.

Sal qayalar ruhum kimi ovuqdur,
Əlin quzey qarı kimi soyuqdur,
Burda sevgi qadağandır, qoruqdur,
Bura sənin, sən də mənim olaydın.

Ulduz gördüm kirpiyinin ucunda,
Daşlanırdı günəş mərmər ovcunda,
Danışırdın elə elmi borcundan,
Bura sənin, sən də mənim olaydın.

Yupiteri göstərirdin, görməli,
Səni gördüm, Yupiteri görmədim,
Çox söz verdin, ancaq könül vermədin,
Bura sənin, sən də mənim olaydın.

## HƏR GÜN

Hər gün trolleybus, tramvay, maşın
Səninlə gəlirik üz-üzə, gözəl.
Bəzən oturuруq birgə, yanaşı,
Bəzən də yan-yana, diz-dizə, gözəl.

Məğrur tənhalıqda ucadır insan,
Hər gün oxuyuram üzündə bunu
Səni tanıyıram, deyəsən, çoxdan
Hələ bilməsəm də kim olduğunu.



Maşınlar ötüşür, yollar kəsişir,
Biz hər gün yanaşı gedirik elə.
Daha unutmuşam işdə çox işi,
İşim görüşməkdir hər gün səninlə.

Hər gün trolleybus, tramvay, maşın,
Görüşmək nə xoşdur, səninlə gözəl.
Bu ağır yollarda hər addımbaşı
Gedirsən, gəlirsən mənimlə, gözəl.

Mən tənha deyiləm səni görəndən,
Sənlə yan-yanayam, qarşı-qarşıya.
Bəlkə də bilmirsən elə sənlə mən
Maşın yoldaşıyam, yol yoldaşıyam.

## LAHIC GÖZƏLİ

Mələyir gileylər içində səsin,
O kimdən gileydir, mənə demirsən.
Buzumu əridən o qız nəfəsin
Güneydir, quzeydir mənə demirsən.

Nə vaxt doğulubsan, nə xoş saatda,
O günə, saata qurban olardım.
Ömrümü zəmanət qoyub həyatda
O günü illərdən satın alardım.

Danış, elə danış, ancaq ki gülmə,
Gülәndə evlərdən evlər yıxırsan.
Yıxılmış evimin üstündən hələ
Qəmli dözümümə qəmli baxırsan.

Şirinlik yaraşır sənə, mehriban,
Yaradan xoş gündə yaradıb səni.
Süd ilə işığın qatışığından
Yoğurub dilinə duz qatıb sənin.

Öz gözəlliyindən küsübsən, nədir,
Dartma gileyləri, ay qız ortaya,
Üzündə hərdənbir qızartı gəzir
Dünya qurban olsun o qızartıya.

## RƏHM

Mənə rəhmin gəlsə gəlmə görüşə,
İcbari sevgi də, gülüm, günahdır,
Hər kəs öz tayıyla gərək sevişə,
Sevgisiz görüşlər yalnız tamahdır.

Rəhm özü sevgidən ucadır bəlkə,
Çoxdan yığışılıb sevgidə bu bəhs.
Rəhmini çevirə bilsə də ərkə
Rəhmi sevgi edə bilməyib heç kəs.

Rəhm ağıldan doğur, sevgi ürəkdən,
Ən qədim rəqibdir ürək ağılla.
Ağıl dərsliklərə dönübdür hərdən
Sınıq sevgilərsə şirin nağıla.

Mən də bir nağılam, gəl məni dindir,
Sevgisiz gəlmə ki, gülərsən mənə,
Sevgi müjdəsilə məni sevindir,
Verim ürəyimi, könlümü sənə.

Demə, rəhmim gəlir, demə, yazıqdır,
Rəhmin ilahəsi mənə gülməsin.
Sevgi yazıqlıq yox, qəhrəmanlıqdır,
Mənə yazıqlığın, rəhmin gəlməsin.

## QOŞA GEDƏK

Kəmərinin gümüşünü
Ver çaylara, kəhrizlərə.
Ağ əlinin işığını
Əmdir mavi dənizlərə.



Xislətinin ipəyini
Sər dağların ətəyinə,
Öpüşünün ətrini bük
Qonçaların ləçəyinə.
Gülüşünü gül-gül çilə
Dərələrin ürəyinə.

Pıçıltını qoy bulağın dodağına
Saçlarının dalğasını
Tök dənizin qucağına.

Hər baxışda göz qırpmağı
Öyrət uzaq ulduzlara.
Nəfəsinin dadını çək
Həsrət çəkən yarpızlara.

Səp səsinin şişəsini
Çiliklənən şəlaləyə.
Qoşa gedək, gileylərin
Sinəsində cığır salaq.
Cığır kimi qoşalaşıb
Dağ döşündə qoşa qalaq.

## QONAQ ET

Görüşək bir yol da qəm dolayında,
Yenə göz yaşına qonaq et məni.
Hər ilin on iki sevgi ayında
Yenə göz yaşına qonaq et məni.

Arazdan uzundur, Xəzərdən dərin,
Arzudan, ümiddən, hicrandan bəri,
Ey göz yaşlarımda üzən su pərim,
Yenə göz yaşına qonaq et məni.

Mən sənə sevəndən sığal olmuşam,
Sevib tənha uçan qartal olmuşam,
Sevgi dözümündə misal olmuşam,
Yenə göz yaşına qonaq et məni.

Mənə çox əzizdir verdiyin bu pay,
Ümiddən ucaltdım möhtəşəm saray,
Aç mənim qapımı yenə taybatay,
Yenə göz yaşına qonaq et məni.

Sevgidə ağlaya bilmədim, gülüm,
Odur ki, vəslinə çatmadı əlim,
Deyirəm yenə də yanına gəlim,
Yenə göz yaşına qonaq et məni.

## DÖNÜBSƏN

Səndən ayrılalı pərişan halam,
Saçımı dağıda yelə dönübsən.
Gülüşün gül olub yadımda qalıb,
Yolumun üstündə gülə dönübsən.

Bulaqdır arxanca zillənən gözüm,
Su olub dalınca çölləri gəzim.
Dilimin ucunda göynəyən sözüm,
Yanaqlı sözümdə dilə dönübsən.

Arzudan bir vüsal evi qurardıq,
Küsüdə, gileydə sevinc tapardıq,
Biz hər gün görüşüb yolu yorardıq,
İndi ayrılıqda ilə dönübsən.

Məndən gizlənirsən, niyə gözəlim,
Gileydir, küsüdür bu sirr, nə bilim,
Gözümdən itsən də sən ilim-ilim,
Gözümün yaşında lilə dönübsən.

Hıçqırıq olaram, qallam yadında,
Sən hicran rəngində, mən qəm dadında,
Yanaram, yaxıllam sevgi odunda,
Deyərlər sən məndə külə dönübsən.



## AĞLAYIR

Gəlirsən, yanımdan keçirsən hər gün,
Qəlbimdə bir qərib sevgi ağlayır,
Bəlkə görməyirsən, bəlkə görürsən
Qəlbimdə bir qərib sevgi ağlayır.

Asan vüsalların yorğun yolunda,
Şirin gülüşlərin uca yalında,
Ünvansız görüşlər evi dalında
Qəlbimdə bir qərib sevgi ağlayır.

Məndə dara çəkib fəryad özünü,
Geydirib əynimə zireh dözümü,
Dayayıb üzümə şüşə üzünü,
Qəlbimdə bir qərib sevgi ağlayır.

Olub evinizin dalında işıq,
Gətirib saçında mehriban qışı,
Kirpiyi ucunda gənclik yağışı
Qəlbimdə bir qərib sevgi ağlayır.

Saçında küləkdir, əl elə, dindir,
Ovcunda güzgüdür, güldür, sevindir,
Gəl ona bir ümid donu geyindir,
Qəlbimdə bir qərib sevgi ağlayır.

## AR DEYİL

Vəfalı sevgimə gülməyin bunca,
Tənha bir kişiyə sevmək ar deyil.
Götürüb gedərəm dünya boyunca,
Bu dünya sevgiyə hələ dar deyil.

Sən yaşa rütbəli məhəbbətini,
Zəmanət qoyulmuş sədaqətini,
Çevir mal-dövlətə səadətini,
Mal-dövlət sevgidə hələ var deyil.

Dövrəndə parlayır qotur güldanlar,
Bufetdən boylanan gümüş fincanlar,
Başını hərlədən yağlı yalanlar
Gülüm, xoşbəxtliyə etibar deyil.

Çağırır məni də tənhalıq bağım,
Başında parlayır məğrurluq tağı,
Dili şip-şirindir, sözləri ağı,
O gözəl olsa da bəxtiyar deyil.

## GÜLÜM

Bu yollar bağlıdır mənim üzümə,
Gedərəm üz tutum sabaha, gülüm.
Mənə kömək elə, mənə əl yetir,
Yetim o dünyada Allaha, gülüm.

Mən onun yanına gedim nə üzlə,
Oyunlar oynadı bu dünya bizlə,
Kimə nə etmişik bu sevgimizlə
Niyə biz batmışıq günaha, gülüm.

Səndən qaldı mənə bir şirin yuxu,
Üzü qara olsun əliboş yoxun,
Bağlanıb üzümə yolların çoxu,
Gəl dönək geriyə bir daha, gülüm.

Döngələr dilənçi, küçələr səfil,
Bu bağlı qapılar açılan deyil,
Gəl sən də göydən en, pəriyə çevril,
Mən isə cıqqasız bir şaha, gülüm.

Çəkər Azərazər təzə yol göyə,
Gedər gileyini Allaha deyər,
Daha çatmaq olmur, olmur bəs niyə
Sevgidən tikilmiş dərgaha, gülüm.



## GÖRÜNMƏYİRSƏN

Sizin pəncərəyə baxıram hər gün,
Hərdən görünürsən, görünməyirsən.
Təklikdən şüşə yox, mənəm üşüyən,
Hərdən görünürsən, görünməyirsən.

Soyuq baxışların şüşədir, buzdur,
Qorxaq gülüşlərin bir parça duzdur,
Görünür şüşədən sevgi ucuzdur,
Hərdən görünürsən, görünməyirsən.

Şüşəniz dalında günəş batmayır,
Qapınız ağırdır, gücüm çatmayır,
Mənlə oyaq qalır gecə yatmayır,
Hərdən görünürsən, görünməyirsən.

Çıx şüşə evinin örtüklərindən,
Görün istəyimin üfüqlərində,
Gizlənmə şübhəmin itiklərində,
Hərdən görünürsən, görünməyirsən.

Bəlkə inciyibsən incik sözümdən,
Mənə oxşayıbsan kövrək dözümdə,
Ümidsən, odur ki, bu yer üzündə
Hərdən görünürsən, görünməyirsən.

## YOLA SAL MƏNİ

Gəlmişdim bu yerdə bir yer salmağa,
Ey yersiz istəyim, yola sal məni.
Bir yad köməyinə ilişdim, qaldım,
Yadlaşan köməyim, yola sal məni.

Göz yaşı ələmə, mehriban çiçək,
Hər kəs taleyini yaşasın gərək,
Öp məni, öp məni sonuncu kərə,
Sonra da, çiçəyim, yola sal məni.

Buludlar başıma qar, yağış tökər,
Şimşəklər boynuma ip atıb çəkər,
Gərəksiz günlərdən qaçmışam əgər.
Gərəksiz görəyim, yola sal məni.

Məsləyim, mələyim, köməyim getdi,
İnsafla mərhəmət yanımdan ötdü,
Misralar alnımın qatında itdi,
İnsaflı ürəyim, yola sal məni.

Öz yurdum, öz evim, öz qürbət bacım,
Niyə yad şirindir, doğmalar acı,
Minnətli süfrələr dalımca qaçır,
Minnətsiz çörəyim yola sal məni.

Soyuq baxışlardan qar yağan zaman,
Bir şirin söz ilə isinir adam,
Qapıdan qayıdıb sərgərdan qalan
Sevgili diləyim, yola sal məni.

## BU, SEVGİ DEYİL

Sən məni sevginə layiq bilmədin,
Ləyaqət geyimlə ölçülməyibdir.
Sevginin ləyaqət yaşı çox qədim.
O təhqir olsa da, kiçilməyibdir.

Sən hələ bilmirdin sevgi xoş gülüş,
Sevgi pardaqlanmış əyin-baş deyil.
Sən hələ görmürdün mənimçin görüş
Gözəl, alver deyil, ya daş-qaş deyil.

Sevgidən öncədir əyin-baş nədən,
Mənim sevgimdənsə yoxdur xəbərin.
Səndən öz sevgimi gizlədirəm mən,
Sevgi mod salonu olandan bəri.



Üz-üzə gəlirik, bu görüş nədir,
Sən təzə qılıqda, mən köhnə halda,
Modlar ötəridir, sevgi əbədi,
Geyim yox, sevgidir məni ucaldan.

Daha görüşlərdən bezaram yaman,
Daha girməyirəm yolda qoluna.
Görmək istəyəndə səni uzaqdan
Gəlirəm biletsiz mod salonuna.

## AYRILAQ

Mən yanıb soyumuş bir planetəm,
Məni bələkləmə, mehriban qonçam.
Daha o gəlişlər, o günlər yetər,
Çətin bir də sənə mən ürək açam.

Ancaq o sevgimdə varam həmişə,
Yağış yox, üstümə yağan qoşmadır.
Mən yaşlı sevgidən səbr öyrənmişəm.
Cavanlar özünü mənə oxşadır.

Məni sevindirdin bu son görüşlə,
Daha aramızda soyuyub illər.
Şirin nəvazişlə, xoş dindirişlə
Mənə xeyir-dua verir gözəllər.

Gəl səni, gəl səni son kərə öpüm,
Son öpüş, son yola son bağışlama.
Ta bağlı qalacaq gecələr qapım,
Ey gözəl, ta məni sən qarğışlama.

## AXAR SU

Heç nədən pozuldu sevgi əhdimiz,
Meylin hər budaqda gəzə bilərmiş.
Sən axar su idin, durğun bir dəniz,
Hamı bu sularda üzə bilərmiş.

Sən öz axmağında, mən üzməyimdə,
Alçaldı gözümdə çox-çox ucalar.
On beş yaş cavanla bu gəzməyindən
Sevinir on beş yaş səndən qocalar.

Mən suyun əksinə üzərdim bir vaxt,
Döş-döşə gələrdik, yollar əksinə.
Sonradan anladım, sonradan bivaxt
Dünya dövr eləyir hələ əksinə.

Axar su bilməzdim səni əzəldən,
Axar xislətini təzəcə bildim.
Axarın əksinə üzəcəyəm mən,
Bilsəm də o heç vaxt dönən deyildir.

## QEYRƏT

Qeyrətdən dərs demə mənə heç zaman,
Doludur dustaqlar qeyrətlilərlə.
Ora neçəsini yola salıbsan,
Gəzibsən qeyrətsiz dövlətlilərlə.

Sənin qeyrətinə şübhəm var, gözəl,
Ondan dəm vuranlar ondan olmayır.
Bir haram tikəni həzm edibsənsə
Qeyrət səndən küsüb, səndə qalmayıb.

Mən bu gün dustaqda olaydım gərək,
Allah saxlayıbdır məni bəlkə də.
Gündə bir qeyrətsiz adam sevərək
Bir çox qeyrətini qoydun kölgədə.

Qeyrətli olsaydın əgər azcana,
Sənin qeyrətini çəkə bilərdim.
Bütün günahları qoyub bir yana
Gözümü sevginə dikə bilərdim.



Ünvansız görüşlər qapısı açıq,
Oraya qeyrəti gətirməyibsən.
Nə əcəb, nə əcəb, qeyrətli bacım,
Mənim ünvanımı itirməyibsən?!

## XOŞ BİR ƏZABLA

Daha zəng eləmə, telefon vurma,
Qəlbimin bağları qırıq-qırıqdır.
O sevgi qurtardı, özünü yorma,
Bu göz yaşları da, gözəl, artıqdır.

Artıqdır sıtqayıb ağlamaq, yetər.
Ağlama, ağlama, unudan gözəl,
Mənim ürəyimi qılıncdan betər
Doğrayıb, susdurub, qanadan gözəl.

Satdın gözəlliyi ucuz yalana,
Qudurğan istəyin cilovlanmadı.
Getdin sevənə yox, sevgi alana,
Sevgin tüstüləndi, alovlanmadı.

Büllur qab olubsan əllərdə ancaq,
Səndə şampan içir yoluq cavanlar.
Daha zəng eləmə, ey qəfil qonaq,
Keçdi o sevdiyim qəmli zamanlar.

Mən sevgi xoşuyam, sən şampan şərab,
Bir qabda qarışmır sevgi şərabla.
Səni nəşə alır, məni iztirab,
Səndən ayrılıram xoş bir əzabla.

## İTMİŞ ŞƏKİL

Döyüşdən dönmüşdü Onuncu tankım,
Yenidən o hücum əmri almışdı.
Yolda böyrü üstə aşan bir tankın
Yanında bir şəkil düşüb qalmışdı.

Gülürdü şəkildə mehriban gözəl,
Məsum qız gözləri mənə baxırdı.
Gülüş yaraşsa da o əsmər üzə
İpək baxışından giley yağırdı.

Bir az utancaqdı, bir az da küskün
Bir çəkim var idi qara xalında.
Sifəti şüşədən seyqəlli güzgü,
"A.İ." yazılmışdı şəklin dalında.

Nəsə soruşurdu məndən o gözlər,
Bəlkə də bu, mənə elə gəlirdi.
Dolub-boşalırdı hərdən o gözlər,
Bəlkə də bu, mənə elə gəlirdi.

Hücuma keçirdi Onuncu tankım
Qələbə hamıya bayraq olmuşdu.
Yolda dağılaraq aşan bir tankın
Yanında bir şəkil düşüb qalmışdı.

Əyilib götürdüm şəkili yerdən,
Kimin gözəliydi bu mehriban qız.
Mərmi partlayırdı uzaqda hərdən,
İkimiz qalmışdıq arxada yalnız.

## GÖZƏL

Niyə giləylisən öz taleyindən?
Yaxşı ər gəzirsən iyirmi ildir.
Çox da ki gözəlsən, gözəgəlimsən,
Yox, gözəllik hələ tale deyildir.

Çox da ki gözəlsən, gözəgəlimsən,
Sevə bilməyibsən birini hələ.
Soyuqsan özünə, soyuqsan nədən?
Tapa bilməyibsən yerini hələ.



Gözəllər dönsə də soltana, şaha,
Sadə sevimlilər sevilir, gülüm.
Sevə bilməyənlər batır günaha,
Sevimli sevənlər sevinir, gülüm.

Gözəllik satılmır, alınmır, deyən,
Çıxarma bazara gözəlliyini.
Dünya çox qəddardır, yanılmır, deyən,
Bir gün aparacaq gözəlliyini.

## KÖVRƏLİB

Baxır mənə tərəf küsülü yaylaq,
Tənhalıq içində yaylaq kövrəlib,
Kollar arasında itib sızlayan
Sızlayıb ağlayan bulaq kövrəlib.

Sovqatım həsrətdir sənə biçənək,
Titrəmə qorxudan mehriban çiçək,
Gəl düşək yamaca, gözlərdən itək,
Zirvədə bu qərib qonaq kövrəlib.

Burda əcdadımın ruhu dincəlir,
Ölənlər, solanlar bir də dirçəlir,
Güllərin gülüşü güldən incədir,
Hər şeyə can verən torpaq kövrəlib.

Budağı əymişdir gavalı, əzgil,
Ey ömür ağacım, sən də bir əyil,
Yarpağın qız rəqsi sevincdən deyil,
Bir əl istisiyçin yarpaq kövrəlib.

Qartallar, qırğılar göyə millənir,
Çay öz yatağında daşıb sellənir,
Zəmi dalğa vurub yerdən yellənir,
Çobansız, quzusuz otlaq kövrəlib.

Mən burda həm ovam, həm də ovçuyam,
Tənhalıq gözündən düşən damcıyam.
Bir ovuc fəryadam, bir tərs sancıyam
Əlimdə titrəyən varaq kövrəlib.

## VER APARIM

Biz ayrılıq, sən sevgimə güləndə,
Gülüşünü ver aparım özünlə,
Son görüşə bilə-bilə gəlmədin,
Gəlişini ver aparım özümlə.

Yastılanıb kəhərimin nalları,
Taleyimə düyünlənib yolların,
Sənə qalsın o mehriban qolların,
Gümüşünü ver aparım özümlə.

Çıxdıq sevgi taleyilə səfərə,
Dözəmmədin yollardakı çəkərə,
Gəl istəklim, öz bağına son kərə
Gəlişini ver aparım özümlə.

Görüş verək qırx il sonra behiştə,
Mən göyərim, təzələnim sevincdən,
Yayınmaq üçün bədxah tanış-bilişdən
Görüşünü ver aparım özümlə.

Sənsiz, gözəl, bir qərib quş olaram,
Bükülərəm qanadıma qalaram,
Bir öpüşlə buludlanıb qalaram,
Öpüşünü ver aparım özümlə.

## MƏNƏ SALAM VERMƏ

Mənə salam vermə bu gündən belə,
Qoparma yaramın qaysaqlarını.
Sınıq ürəyimi daha tərk elə,
Çıxart boğazımdan caynaqlarını.



Qiymətli bir üzük düzəltdirərkən
Taxdın barmağına könül şüşəmi.
Burda heyranlığın bazarı seyrək,
Çəkmə ortalığa alver peşəni.

Sevmək nemətini qapdın əlimdən,
Daha heç nəyim yox sənə verməyə.
Sevgi təmənnası düşdü dilimdən,
Nə həvəs, nə ümid səni görməyə.

Bəzənib çıxıbsan əvvəlki kimi
Təzə qiymətlərlə təzə meydana,
Qiymət artırıbsan bildirki kimi
Qılığa, işvəyə, rəngli yalana.

Nə pulum qaldı ki, alım yalanı,
Nə həvəs yaşayım, durum yalanla.
Bu təzə bazarda yoxdur alanım,
Yoxdur tanışlığım olan-qalanla.

## GÖRÜŞ

Sevgi taleyimin zirvəsi qarlı,
İki gün görüşdür, on il ayrılıq.
Tale kitabımı varaqla, oxu,
İki gün görüşdür, on il ayrılıq.

On il yaşamışdım iki görüşü,
Sevgimdən xəbərsiz dünya dəyişib,
Mənə öz ömrümün qəmli gedişi
İki gün görüşdür, on il ayrılıq.

Bir yay yağışıydı görüşlərimiz,
Qısaydı, gur idi, mülayim, təmiz,
Bu yazıq sevgimiz, – nə biləydik biz,
İki gün görüşdür, on il ayrılıq.

On il də ayrılıq olarmı, gülüm,
Ağlama, sızlama, ey dəli könlüm,
Necə bu taleyi ömrümdən silim,
İki gün görüşdür, on il ayrılıq.

## SARI GÜLLƏR

Donunun üstündə o sarı güllər
Mənim həsrətimdir bəlkə gül açıb.
Bizi ayrı salan mehriban illər
Nağılda şirindir, yaddaşda acı.

Bir az vaxtsız oldu bu xoş tanışlıq,
Çevrildi qış gülü solğunluğuna,
Bir az ağsaqqallıq, bir az uşaqlıq
Qarışdı yaşımın yorğunluğuna.

Qısqanc tərəddüdlər, nazlı gileylər
Aramızdan axan bir çay kimiydi.
Bəlkə çay deyildi, çaydan da betər
Saz üstə səslənən qoşa sim idi.

Bir çayda iki çay üzür yanaşı,
Onların taleyi birdir, bir deyil.
Burda cüt sahilin saçı çallaşıb
Onların taleyi birdir, bir deyil.

Donunun üstündə o sarı güllər
Mənim həsrətimdir bəlkə gül açıb.
Taledə sarı gül hicransa əgər
Tale o gülləri döşümə sancıb.

Bir çayda cüt sevgi qoşa üzürlər,
Sevgi dənizidir, çaydır üzdüyüm.
Bir çayda birləşib deyən bu səfər
Mənim ağırlığım, sənin düzlüyün.



## AYRILIQ

Dünya birləşirdi, biz ayrılırdıq,
Ağaclar saç yolub yarpaq tökürdü,
Qara buludlardan alıb bir qırıq
Üfüqlər gözünə sürmə çəkirdi.

Gülüb bəzənirdi hərzə ayrılıq
Mənim göz yaşımın güzgülərində.
O paltar geymişdi hər yeri açıq,
Sarı yarpaqların hörgülərindən.

Nə pislik etmişdik ona yahalıb
Bizi öz rənginə döndərmişdi o.
Ümidi arzuya minnətçi salıb
Həsrətin dalınca göndərmişdi o.

Özünü atmışdı dünya tələsik
Bizim aramızda divar olmuşdu.
Sənin gözlərində işıq, incəlik
Sarı rəngə çalan qubar olmuşdu.

Ayrılıq, son görüş, bu qərib sözlər
Ömrü son gümana girov qoymuşdu,
İsti göz yaşında boğulan gözlər
Yaylıq isladırdı, yaylıq yuyurdu.

Dəniz utanırdı, dağ büzüşürdü,
Tikanlı məftillər güllənirdilər.
Küləklər fit verib qışqırışırdı,
Buludlar rəqs edib şellənirdilər.

Bir alnı xınalı quzu etmişdi
Dünya sevgimizi qurban kəsirdi.
Mən qəmdən tutulub misə dönmüşdüm,
Sənsə yarpaq olub tir-tir əsirdin.

## MƏN AZƏRBAYCANAM

Otuz altı milyon yumruq gücüylə
Endirirəm çəkicimi!
Vururam zülmətin təpəsinə!
Zülmət qara rezin kimidir,
O da tab gətirə bilmir
Otuz altı milyonun ağır çəkic zərbəsinə!

Əcdadımın ağarmış sümükləri,
Şəhidlərimin alın qırışları
Göyərib cığ vurur torpaqdan!
Bura Azərbaycandır!
Mənəm Azərbaycan!

Tökülür mərmər saraylar!
Qızıl qəsrlər! Şirin nağıllar!
Tökülür çiyinlərdən ipək çinlər!
Xalqa yük olan rütbələr!
Qurdalanma, eşələnmə vəzifələr!

Parçalan, ey qaya! Dağıl, ey qranit!
Sökül, ey köhnəlik! Tökül, ey dağ!
Yolum üstə çömbəlmə, ey nifaq!
Hara qaçırsan, qanlı qarət!
Təslim ol, qara zülmət!

Günəşin köklərini əkirəm vətənə!
Kömək ol mənə, ey vəhdət, kömək ol mənə!
Alın qırışlarımı köçürürəm
Ana torpağın sinəsinə,
Cığ vurub göyərir onlar,
Göyərir yenidən milyonlar!

Bərq vurur alnımın qırışlarında
Azadlığın günəş qığılcımları!
Tökülür kirpiklərdən
Tərəddüd salxımları!



Tökülür adlardakı zərli qotazlar!
Tökülür ayaqlar altına
Ünyetməzlər, əlçatmazlar!

Mən daha neft anbarı deyiləm,
Silah anbarı!
Mən əkinçiyəm!
Azadlıq becərirəm ürəklərdə!
72 milyon qolam, biləyəm,
36 milyon ürəyəm!
Mən dəmirçiyəm,
Çıxarıram fikirlərimi
Ürəyimin kürəsindən!
Mən şairəm, milyonların şairi,
Çıxarıram misralarımı
Milyonların içindən!
Əkirəm taxıl olur!
Çəkirəm qılınc olur!
Tikirəm ev olur!

## GÖRMÜŞƏM

Ey dünya, yığışdır bu köhnə bəhsi,
Mənə bəs eyləyər faciə dərsim,
Ən çox təmizlikdən danışan kəsi
Böyük oğrularla əlbir görmüşəm.

Azadlıq çağırdım hər addımbaşı,
Bu yolda durmuşam dünyaya qarşı,
Azadlıq eşqimlə daim yanaşı
Beş qulac sabunlu kəndir görmüşəm.

Kim qalıb, görəsən, tanış-bilişdən?
İnam qüvvət verib mənə hər işdə,
İnanan dostların çox vaxt döyüşdə
Qanlı döşlərini xəlbir görmüşəm.

Neçə yol düşmənə zəfər çalsan da,
Neçə yol haqqını elə alsan da,
Hər otuz ildən bir azad olsan da,
Yenə qollarında zəncir görmüşəm.

Dirəndi xalqımın harayı ərşə,
Atıldı tanklarla bir son döyüşə,
Güllələr, qəlpələr dəysə də döşə,
Mən xalqın döşünü dəmir görmüşəm.

## QARŞI

Günəşin ləçəyi düşüb Təbrizə,
Dönüb qızılgülə, dönüb nərgizə,
Oturub insanla zindan diz-dizə,
İnsan qan hayqıran zindana qarşı.
Zindan azadlığa, insana qarşı.

İşsiz gözünü dikir tavana,
Aclıq intiqamla durur yan-yana,
Öldürən öləni çəkir divana,
Divan haqdan qaçan yalana qarşı.
Yalan qaş-qabaqlı divana qarşı.

Düşür zülm evinin ömür xəzəli,
Azalır hər şeyin məğrur gözəli,
Banklar daxmalara dodaq büzəli
Tehran diş qıcıdır İrana qarşı.
İran şiş gətirən Tehrana qarşı.

Dərbar öz bəxtinə matəm saxlayır,
Ayağı titrəyir, dişi laxlayır,
Mərmər qəsrləri üsyan haqlayır,
Üsyan gözü qanlı dövrana qarşı.
Dövran at səyirdən üsyana qarşı.



## OYANDI

*Aşıq Hüseyn Cavana*

Sədəfli sazını çaldıqca aşıq,
Bülbüllər oxudu, güllər oynadı.
Axdı bulaq kimi nəğmə sinəmdən,
Göllər dalğalandı, sellər oynadı.

Elin səsi gəldi hər avazından,
Milyonlar eşitdi səni azından,
Yanıqlı bir nəğmə qopdu sazından,
Dillər üsyan dedi, illər oynadı.

Quruldu məclisin kənd ətəyində,
Min məna səsləndi hər diləyində,
Sənin Vətən deyən öz ürəyində
Gözəllər boylandı, tellər oynadı.

Batdı göyün səsi yerin qatında,
Qaldı quru şöhrət torpaq altında,
Səninsə döyüşən hər bayatında
Sellər şaha qalxdı, göllər oynadı.

Səni ayrı saldı eldən o dövran,
Səsin sevgilinə çatdı uzaqdan,
Təbrizdən hər nəğmə deyəndə, inan,
Könüllər kükrədi, çöllər oynadı.

O doğma firqədən sən ilham aldın,
Alçaq daxmalara enib ucaldın,
Sən elə oxudun, sən elə çaldın,
Nəsillər silkindi, ellər oynadı.

*1957*

## SALAM, ANA VƏTƏN!

Salam, ana Vətən, gözlərin aydın!
Sabaha inamdır sovqatım sənə.
Məni döyüşlərdə yaşatdı adın,
Qurbandır mənim də həyatım sənə!

Salam, ipək sərin zümzüməsini
Vətən həsrətimə əkdiyim bulaq!
Salam, gecəsinin tünd sürməsini
Qırx il gözlərimə çəkdiyim oylaq!

Qırıq belinizə qurban kəsərəm,
Həsrətdən, təhqirdən nəzilmiş çaylar!
Mənə salam verin, yoxsa küsərəm,
Ey uçan yarğanlar, ovulan laylar!

Niyə sevinmədin bu görüşlə sən,
Bəlkə tanımadın məni, bəlkə də?!
Ancaq onu da bil, tapa bilməzsən
Mənə oxşar şair bizim ölkədə!

Taleyim belədir, nə etmək olar?
Sən verdin bu böyük taleyi mənə!
Ömrümü çevirdim çığıra, yola,
Böyük tale seçdim hər yerdə sənə!

Salam, ey yenidən doğulan millət!
Gülür gözlərində bir qızıl səhər!
Qurtardı tarixdən aldığım möhlət,
Mənə bu görüşdə yerimi göstər!

*10 mart, 1979*

## BÖYÜK NƏNƏM DOĞDUNUN ZİYARƏTİNƏ

Başımın üstündə töhmət çomağı,
Sənin görüşünə gəlirəm, nənə!
Gözlərimdə qoşa kədər bulağı,
Sənin görüşünə gəlirəm, nənə!

Susub, düyün düşüb önümdə yollar,
Baş əyib yollara fikirli yallar,
Əsib vıyıldayır gileyli kollar,
Kollarla gözümü silirəm, nənə!



Alnımın güzgüsü sınıb beş yerdən,
Şaxta sallanıbdır kirpiklərimdən,
Ağlasam, doğrudan ağlayıram mən,
Min ildir yalandan gülürəm, nənə!

Daşlar diş ağardır, çaylar göz mənə,
Dünya yalan deyir, tarix düz mənə,
Kimsəli kimsələr kimsəsiz mənə,
Sən də qəzəblisən bilirəm, nənə!

Qəbrini öpməyə mənə izn ver,
O daş vüqarından güc ver, dözüm ver,
Zərdüşt qeyrətini varsa özün ver,
Yoxsa ki qeyrətsiz ölürəm, nənə!

*1979*

## SARAB

*M.Ə.Ağamiyə ithaf*

Çimişən uşaqlar göygöz, qaraşın,
Suları gözündə talan Sarabım.
Günəşdən çayların gözü qamaşır,
Buluddan gözləri dolan Sarabım.

Başım ərşə çatdı baxanda fərşə,
Açılmış fərşlərin sərilib döşə,
Qalanıb üst-üstə, getməyir işə,
Fərşi anbarlarda solan Sarabım.

Taxyarın başında tacsan, cıqqasan,
Gümüş kəmərində qızıl toqqasan,
Bəs niyə ortadan iki şaqqasan,
İki dağ içində qalan Sarabım.

Yoxsa daddan düşüb kərən, pendirin,
Qara şiş, qara qulp saçın, təndirin,
Atıbsan üstündən cırım-cındırı,
Çiyninə iri fərş salan Sarabım.

Burda dağ havası, aran istisi,
Pozulub bağların nəzmi, ütüsü,
Çəkilib üstündən ocaq tüstüsü,
Tüstü saçlarını yolan Sarabım.

Mən sənin oğlunam, istəsən yoxla,
Tacyardan bir qurtum payımı saxla,
Gəlib hüzuruna qırx il fəraqla
Tahir salam deyir, salam, Sarabım.

*1979*

## SƏHƏNDİM

Gəldim tanış olum bir az yaxından,
Tanış bir xəyala daldı Səhəndim.
Dedim, yorulmuşam,
Xəstələnmişəm,
Qolunu boynuma saldı Səhəndim.

Bağladı belimə buzdan şaşkanı,
Atdı qar başından, tacı, cıqqanı,
Çəkdi sinəsinə qar qasırğanı,
Bahar həsrətilə qaldı Səhəndim.

Şahmat düzümüdür dünya dağları,
Səhənd bir əsgərdir
Döyüş vaxtları,
İlk dəfə mat qoydu burda şahları,
İlk dəfə qələbə çaldı Səhəndim.

Gözaltı baxsa da Təbrizə doğru,
Görürəm həsrətdən sökülüb bağrı,
Bir damcı yaş olub,
Bir damcı ağrı
Qəlbimə, gözümə doldu Səhəndim.



Tənha qala bilməz
Nə dağ, nə insan,
Tənha qala bilən bu dağa qurban,
Tahir tənhalıqdan ah çəkən zaman
Töküb ağ saçını yoldu Səhəndim.

## GƏNCƏ

*Mehriban Yusif qızına*

1

Nə şirin dilin var, mehriban qızım,
Şirindir Təbrizdə sözü Gəncənin.
Şirindir ən kasıb süfrələrdə də
Bərəkətli dadı, duzu Gəncənin.

Qızıl sırğaların necə də incə,
Bir tayı Təbrizdir, bir tayı Gəncə,
"Mənə bir şeir yaz, əmi" deyincə
Güldü şadlığından üzü Gəncənin.

Bir gün birlik səsi yetişər bizə,
Oğlum elçi gələr Təbrizdən sizə,
Sən gəlin gələndə ana Təbrizə
Sənə sağdış olar özü Gəncənin.

Döşümdə birləşən tarix dillənər,
Gözümdən tökülən çaylar yellənər,
Təbrizin üzündə sevgi güllənər,
Düşər ürəyimə izi Gəncənin.

Tahir bir qız sevdi, üç min il yaşı,
Çaylar qolbağısı, güllər daş-qaşı,
Durub arxasında Təbriz qardaşı,
Fəxr etsin Mehriban qızı Gəncənin.

2

Başıma həsrətli hörmətlər səpən,
Təbriz qeyrətini çəkən şəhərim.
Qədimi saxlayıb, püfləyib öpən,
Köhnəni təzədən tikən şəhərim.

Nizami çəkilib çıxıb şəhərdən
Səni söz rəsmində düz çəkmək üçün.
Sən də çəkilibsən kənara qəsdən
Dahi şairinə baş əymək üçün.

Zümrüd meşələrin zəmanətidir
Südlü buludunun gümüş lələyi.
Bir ana əlinin məhəbbətidir
Alnımın tərini silən küləyin.

Mən sənin önündə yüz yol əyildim,
Yurdumun üçüncü paytaxtı Gəncə.
Hər yer tarix idi, torpaq deyildi,
Nizami şerinin xoşbaxtı Gəncə.

Heç kəs uğur olsun deməyir mənə,
Hamı salam deyir, hamı can deyir.
Tahir də baş əyir doğma vətənə.
Belə igid xalqa can qurban deyir.

*1980-1981*

## OXŞARLIQ

Oxşatdım özümü kiçik dayıma,
Oxşatdım özümü, öz yerişimi.
Oxşarlıq düşmüşdü dünya payıma,
Oxşarlıq üstündə qurdum işimi.

Oxşadım, oxşatdım özümü hər vaxt,
Oxşarım kimi də yaşamadım mən.



Oxşayıb hamıya yaşadım bir vaxt,
Nə yaxşı, heç kəsə oxşamadım mən.

Oxşayış bəşərin dünya nişanı,
Milyon oxşar vardır bu yer üzündə.
Oxşaya-oxşaya dünyada hamı,
Oxşarlıq görməyir heç kəs özündə.

Şimşək süratilə dəyişir zaman,
Dünya bir an belə bir cür qalmayır.
O qədər dəyişkən yaşayır insan,
Heç kəs bu dünyada təkrar olmayır.

Oxşatdım özümü kiməsə bəzən,
Sən demə, dünyada hamı oxşardır.
Mən dönüb arxaya baxıram hərdən,
Mənə də özünü oxşadan vardır.

Dünyada oxşarlıq eynilik deyil,
Dünya bürünsə də eyni bir rəngə.
İmkanım olsaydı bir az da mənim
Hətta oxşamazdım özümə bəlkə.

Ey kölgəm, uzanma belə yalandan,
Mən ki uzanmaqla artan deyiləm.
Ya da ki, belimi qatlayıb tamam
Yolu dəvə kimi yortan deyiləm.

Uzanıb boylanma özgə divardan,
Uzanmaq boy atmaq deyil, yaxşı bil.
Uzanıb artsa da, boy atmır insan,
Yox, boy dərinlikdir, boy-buxun deyil.

Kölgəni uzatma, boyunu artır,
Kölgəsi olmayır çırağın, şamın,
Dənizdən, çıraqdan, şamdan boy götür,
Daim sənə tərəf boylansın hamı.

Dünyadan boy alıb durub yanaşı, –
Dəniz dərinləşib, dağsa ucalıb.
Uzaq ulduzlara dəysə də başı
İnsan yenə insan boyunda qalıb.

## EHTİYAT

Çox zaman udursan haqlı sözünü,
Haqqa göz yumursan, qurdalanırsan.
Sağından, solundan qırıb özünü
Sağ-sol arxasında daldalanırsan.

Solun qəhrəmanlıq, sağın yazıqlıq,
Keçirsən ortadan barmaq ucunda.
Sağlar da, sollar da əl atıb açıq
Haqqını qapırlar açıq ovcundan.

Cəsarət ölümə üstün gələndə
Ehtiyat ikiqat olub bükülür.
Quş kimi səssizcə ölür öləndə,
Cəsurlar, qorxaqlar bağırıb ölür.

Ürəkdə yaşamaq haqqı alıbsa
Tutub cəsarəti dilə ehtiyat.
Harda kimə, nəyə yaxşı olubsa
Məni qorxaq edib hələ ehtiyat.

Çox işi çox zaman tərsə görmüşəm,
Görmüşəm maşından öndə atlını.
Cəsuru qoymurlar qorxulu işə,
Qoyurlar çox zaman ehtiyatlını.

Ehtiyat ortabab qədrim, həyatım,
Ehtiyat qədrimi çoxaltdı yaman.
Onu peşə etsəm sınar qanadım,
Mən hər şey olaram, tarix olmaram.

*1978*



## ATAMIN ƏLİ

Qoşa qundaq idi iri əlləri,
İri əllərinə qundaqlanmışam.
Beşikdən çıxanda uşaq illərim
Ata sərtliyilə pardaqlanmışam.

Nə vaxt dəliləşib şuluq salardım,
Xəmir yoğurardı qulaqlarımdan.
İti dişlərimin yeri qalardı
Zəhmli əlinin qıraqlarında.

İri bir xırmandı, düyünlü bir vəl,
Mindim taleyimin xırman vəlinə.
Bir gün mənə tərəf uzansa o əl
Səcdəyə enərəm onun əlinə.

Zaman iki bükdü hündür boyunu,
Ancaq əlindəki zəhmi saxladı.
Bir gün qucağıma götürdüm onu,
Kövrəlib uşaq tək qoca ağladı.

Verəndə atamın əlidir əlim,
Alanda cüt ələm, dərin cibəm mən.
Birinə bir sevinc bəxş etsəm, bilin,
Boylanır atamın əli əlimdə.

Dünyanın vəfası uca, bellənə,
Atam bu dünyada dünya görmədi.
Nəyi var idisə, verdi o mənə.
Təkcə öz zəhmini mənə vermədi.

*19*

## FƏRQ

Ey qardaş, səninlə nədir fərqimiz,
Məndən fərqlənməyin belə nə lazım?
Otursaq üz-üzə fərqlənməsək biz
Bir dünya fərqimiz olacaq azı.

Xoşbəxtdir, bədbəxtdir itlər, pişiklər,
Hətta insanlar da rənginə görə.
Fərq qoyan, fərq qədər, hüdudlar qədər
Dünyanı bölübdür hüdudsuz yerə.

Gərək ki, nə qədər fərqlənə insan
Fərq qoya fərqlərdən azad insana.
Bu doğma bəşərə ana olandan
Doğma balasına fərq qoymur ana.

Fərq məni ayırdı doğmalarımdan,
Mən həsrət qalmışam qardaş üzünə.
Fərqlənə bilsəydim fərq qoyanlardan
Mən divan tutardım fərqin özünə.

*1978*

## DAŞ ÜRƏK

Yerişin nə gözəl, duruşun maral,
Sinəmdə ahəngi addımlarının.
Mənim istədiyim kimi sən dara
Saçının əbrişim salxımlarını.

Nazını öyrətmə qonça güllərə,
Güllərin mehriban tikanı artar.
Elə qəşəng baxma sevməyənlərə,
Onların sevgiyə gümanı artar.

Daşları dindirmə, daşlar dil açar,
Daşlar da şirinlik bilir, dad bilir.
Sənin daş qəlbini dindirsəm haçan
Açılar taybatay qıfıllı dilim.

Bu necə gözəldir, bu necə insan
Sellə də götürüb aparmaq olmur.
Mən sevgiləşəndən, sən daşlaşandan
Səndən bir öpüş də qoparmaq olmur.



Sənə mərmər deyim, ipək daş deyim,
Zərif sevgidəndir bu daşlığın da.
Cavanlar, ürəyi daşı bərk sevin,
Görün nə ürək var yoldaşlığında.

*1978*

## SƏNSİZ BAĞ

Mənim qısqanclığım tikan kolları,
Sənin göz yaşların heyva, nar, əzgil,
Dönüb sənsizliyə bağın yolları,
Bükübdür boynunu nərgiz, qərənfil.

Qoşa əkdiyimiz körpə şaftalı,
Quruyub divardan çölə boylanır.
Bəstəboy əriklə, gəlin gavalı
Kimsəsiz qalaraq quma quylanıb.

Ahımdan həyətdə quyu dolubdu,
Quyudan boylanan sərin su sənsən.
Su çəkən diyircək sənin qolundur,
Qoluna dolaşan düyünlü ip mən.

Hicran sarılığı bürüyüb bağı,
Xəzanla başlayıb sənsizləşən yaz.
Günah kimdə oldu, ayrıldıq axı,
Sevgidə günahlı, günahsız olmaz.

*1979*

## BAYRAM

Bu gün Azərbaycan çilçıraq tutub
Üzüm salxımından, pambıq kolundan.
Bu gün Azərbaycan çilçıraq tutub
Altmış il keçdiyi zəhmət yolundan.

Bu gün bu ellərin üzü ağappaq,
Qara gözlərinin giləsi şirin.
Bu gün də özünü toy-bayram tutaq
Zəhmətlə ucalan gözəlliklərin.

İgid oğulların iş dözümündə
Torpaq səxavəti, zəhmət sağlığı.
Gizlənib qızların təbəssümündə
Üzüm şirinliyi, pambıq ağlığı.

Məhsul bayramında, elin toyunda
Bu bağlar, tarlalar ellərə dardır.
Ulduz salxımında, üzüm suyunda
Bir ulduz işığı, uçuşu vardır.

Təpələr, dərələr, ətəklər bağ-bağ,
Şahmat taxtasına bənzəyir bağlar.
Oturub diz-dizə bardaş quraraq
Şahmat oynayırlar bəlkə də dağlar.

*1981*

## QURBAN

*Yazıçı İsa Hüseynova*

Mənə baxıb niyə kövrəldin, İsa,
İri gözlərinin yaşına qurban.
Sinən qalxıb-endi məni görəndə
Sinənin çırpınan quşuna qurban.

Qardaşın gözündə bu yaş nə gözəl,
Bir damla yaş üstə titrəyən bir əl,
Sənin ki, ürəyin daş idi əzəl.
Kövrək ürəyinin daşına qurban.

Dedin Təbriz yolu açılsa əgər
Gedən maşınına mənəm bir təkər,
Yollar açılacaq, deyən, bu səfər,
Gəl, o beş təkərli maşına qurban.



Sənin göz yaşını gördüm, sevindim,
Mənimsə gözümdən qar yağır indi,
Həsrətim qışlaşdı, qara büründü,
Vətənin yazına, qışına qurban.

Mən gizli ağlaram, hamı yatanda,
Gecə yağışıyam günəş batanda,
Mənim yüz yetmişə yaşım çatanda
Sənin altmışlaşan yaşına qurban.

*1980*

## QONAQ OLMUŞAM

*Şair dostum Cabir Novruza*

Sağ ol, vətənimin şair övladı,
Bu gecə mən sənə qonaq olmuşam.
Azad qardaşımın azad həyatı,
Bu gecə mən sənə qonaq olmuşam.

Ey cınqır çırtıltı, ey çırpı ocaq,
Daha gözlərimə yaş dolmayacaq,
Son dəfə yolüstü bir süfrə açaq,
Bu gecə mən sənə qonaq olmuşam.

Bağla sovqatını Təbriz qardaşa,
Həsrətlə ümidi qoy bir də qoşa,
Mən Təbriz, sən Bakı, verək baş-başa,
Bu gecə mən sənə qonaq olmuşam.

Mənə xeyir-dua pıçılda, bacım,
Ümid yollarında ağ yelkən açım,
Ey böyük bibimin qoşa qulp sacı,
Bu gecə mən sənə qonaq olmuşam.

Başı uca çıxdı böyük millətin.
Qurtardı mənim də döyüş möhlətim,
Ey el ləyaqətim, ey ləyaqətim,
Bu gecə mən sənə qonaq olmuşam.

*12 fevral, 1979*

## BİR GÜN MÜDRİKLƏŞDİM

Bir gün müdrikləşdim, bir gün elə bil,
Gördüm aldadıram çox vaxt özümü.
Gördüm, şeir deyil, istedad deyil
Yan-yana düzülən hər söz düzümü.

Gördüm sevməyirlər məni sevənlər,
Təriflər, vədələr tamam yalandır.
Gördüm ki, özünü dəniz görənlər
Özü də dənizdə çöpdür, samandır.

Gördüm ağız büzür mənə yoldaşım,
Müdrik ayıqlıqdan düşdüm qorxuya.
Gördüm ki, yenə də yuxu yaxşıdır,
Odur ki, təzədən getdim yuxuya.

Gördüm yuxudadır çox-çox adamlar,
Ancaq utanırlar biri-birindən.
Gördüm oyaq olsa bu qədər adam
Gərək dəyişilə hamı yerindən.

Mənim yuxuda da gözüm yumulmur,
Yumulur ömrümün gülləri artıq.
Niyə ayıqlığın yuxusu olmur,
Sən təzə yuxusan, bəlkə ayıqlıq?!

*1963*

## XƏBƏRİN OLSUN

Gəldim qapınıza, döndüm heykələ,
Mənim bu halımdan xəbərin olsun.
Bir yanğı sevgiydim, intizar oldum,
Mənim bu halımdan xəbərin olsun.

Soyuq qürubuma yan alır gecə,
Bir isti sobayam bu soyuq küncə,
İnsan divar deyil, sevgi əyləncə,
Mənim bu halımdan xəbərin olsun.



Gecə gözlərimdə əridi axdı,
Sürməsi gözümü yandırdı, yaxdı,
Bu gün gecə özü mənə qonaqdı,
Mənim bu halımdan xəbərin olsun.

Gözüm cüt intizar, cüt həsrət gilə,
Yağmamış yağışdır gözümdəkilər,
Gözümü aldadıb tutmuşam dilə,
Mənim bu halımdan xəbərin olsun.

Duraram qapında, küləkdə, qarda,
Hardasan, üç misra şeirəm orda,
Mən görüş vermişəm inada burda,
Mənim bu halımdan xəbərin olsun.

*198*

## AMAN, ALLAH

Bu dənizdir, boğub neçə oğulu,
Aman Allah, bu gözlərdə gözə bax.
Gedim üzüm, gedim çimim, boğulum,
Aman Allah, bu gözlərdə gözə bax.

Ağ durnalar giləlenib havada,
Qaranlığı qovur bəlkə dünyadan,
Alıcı quş qanadlanır qayadan,
Aman Allah, bu gözlərdə gözə bax.

Kirpik çalsa, evim göz-göz yıxılar,
Bulağında dənizlərim boğular,
Nağıl ollam mən bu qoşa nağıla,
Aman Allah, bu gözlərdə gözə bax.

Göz yaşımı göz yaşına qataydım,
O dənizdə gündə yüz yol bataydım,
Boğulaydım, şirin-şirin yataydım,
Aman Allah, bu gözlərdə gözə bax.

Mən bayılsam, ixtiyarım ondadır,
İlk vətənim, ilk diyarım ondadır,
Kirpik ölçüm, göz əyyarım ondadır,
Aman Allah, bu gözlərdə gözə bax.

Qamaşmasın yazın vədə yelindən,
Ona kölgə tökülməsin telindən,
Bir vədə var bu gözlərin dilində,
Aman Allah, bu gözlərdə gözə bax.

*1981*

## ƏGƏR MƏNİ İSTƏYİRSƏN

Sən axtarma məni daha
Əgər məni istəyirsən.
Çevril şirin bir nağıla,
Əgər məni istəyirsən.

Ümidimdən uzaqlaşdım,
Şübhəm, arzum qucaqlaşdı,
Məni ağlat, bulaqlaşdır,
Əgər məni istəyirsən.

Yarı yolda qaldı uğur,
Öz ürəyim məni boğur,
Deyir ki, öl, bir də doğul,
Əgər məni istəyirsən.

Meşə köçür, dağ sürüşür,
Çay qatlanıb düyün düşür,
Verək aya son görüşü
Əgər məni istəyirsən.

Mən sabaham, sənsə bu gün,
Aramızda illər düyün,
Bu taleyə yaşa, öyün,
Əgər məni istəyirsən.

*1981*



## BAĞIŞLA

Gəldim vidalaşım səninlə, dünya,
Bağışla, bağışla, məni bağışla.
Məni tumarlayan mehriban kədər,
Bağışla, bağışla, məni bağışla.

Dünən son görüşə məni çağırdın,
İçimdə əlacsız dünya bağırdı,
Son görüş ölümdən daha ağırdır,
Bağışla, bağışla, məni bağışla.

Məni çox üyütdün, dəyirman dilək,
Heç nə saxlamadın içində, ələk,
Ey mənim tərəfə uzanan istək,
Bağışla, bağışla, məni bağışla.

Şəlalə həyatım qopdu zirvədən,
Top səsim, tank əlim düşdü qüvvədən,
Məni çıxart, dünya, bu dar çevrədən,
Bağışla, bağışla, məni bağışla.

Hanı dəli ilham, yallayım, çapım,
Qırılıb hardasa ömrümün sapı,
Kim, görən, dünyada istəyin tapıb,
Bağışla, bağışla, məni bağışla.

*198.*

## HARA BELƏ

Mən yoruldum, güman qardaş,
Sən haraya, hara belə?
Arzularım diz qatdadı,
Sən haraya, hara belə?

Son mənzilə gedir bu yol,
Son yol kimi mehriban ol,
Məni burda tənha qoyub,
Sən haraya, hara belə?

Qoymadılar heç ağlayam,
Göz yaşımdan yük bağlayam,
Gedər-gəlməz nağılıyam,
Sən haraya, hara belə?

Hamı, hamı bir yol ölür,
Üç yol öldüm mən ki, gülüm,
Mən gedirəm bir də ölüm,
Sən haraya, hara belə?

Mən dünyanın göz yaşıyam,
Səadətin qardaşıyam,
Gəldim gözdən su daşıyam,
Sən haraya, hara belə?

*1981*

## VƏTƏN

Ey ana torpağım, ey ana Vətən,
Bütün dərdlərinə mən sirdaş oldum.
Şahlıq sildi məni təbəəsindən,
Çünki azadlığa vətəndaş oldum.
Bütün dərdlərinə mən sirdaş oldum.

Hər gəlib keçdikcə hicran dəmləri
Bu gündən sabaha həsrətlə baxdım.
Azadlıq eşqinə düşəndən bəri
Gənclik həyatını bütün buraxdım.
Bu gündən sabaha həsrətlə baxdım.

Gəzdim ağ günlərin bariz yolunu,
Qurtuluş, azadlıq axtardım sənə.
Nə zaman tufanlar yıxdı oğlunu
Qolundan yapışıb qaldırım yenə.
Qurtuluş, azadlıq axtardım sənə.



Gəzdim ceyran gəzən oylaqlarını,
Yaşılbaş sonalar uçdu önümdən.
Çiçək ətri saçan torpaqlarını
Gəzdikcə doymadım, yorulmadım mən.
Yaşılbaş sonalar uçdu önümdən.

Baxdım saf göllərin şəffaf üzünə,
Könlümdə eşqimdən min tel oynadı.
Baxdım bulaqların qaynar gözünə,
Söz demək sənətim coşub qaynadı,
Könlümdə eşqimdən min tel oynadı.

*195*

## AZƏRBAYCAN

Dağlarından axdı sular
xumar-xumar,
Gəzdi sözün, şan-şöhrətin
diyar-diyar.
Çəmənlərin şəfəq əmdi
hər ilk bahar
Lalələrin yanağından,
Azərbaycan.

Ayna üzlü göy göllərin
dərin-dərin,
Daşdan süzən bulaqların
sərin-sərin,
Sən gülüsən, gəlinisən
ölkələrin.
Qoy bir öpüm torpağından,
Azərbaycan.

Ötüb keçir gur çayların
çapa-çapa,

Xırman üstü dərz tayların
topa-topa,
Həyatından min il keçə,
min daş qopa
Ayrılmaram qucağından,
Azərbaycan!

*1951*

## AZƏRBAYCANIM

Mən bir inqilabam, mənim yanımda
Sən udma sözünü, Azərbaycanım!
Niyə kədərlisən, niyə susursan
De mənə düzünü, Azərbaycanım!

Silahlı arzular düzülsün səfə,
Səbrinin gülləsi dəysin hədəfə,
Qan yox, sən azadlıq dedin hər dəfə –
Qan aldı düzünü, Azərbaycanım!

Təbriz öz oğlundan azadlıq umar,
Çəkilsin ömrümdən daha toy-tumar,
Bir-bir sapa keçir, sən as boynuma
Azadlıq közünü, Azərbaycanım!

Sənə göz ağartdı yad qoşun-qoşun,
Yaranda pas atdı soyuq qurğuşun,
Hələ qarşıdadır böyük vuruşun –
Sil qanlı üzünü, Azərbaycanım!

Düşmən lovğalanıb yerindən cayır,
Ayrı düşmənimi o, səndən sayır,
Kim sənə birləşmə deyibsə, – ayır
Sən ondan özünü, Azərbaycanım!



## ANAM NƏSİBƏ – QIZIM NƏSİBƏ

Yuxuda ağlayıb gülürsən bu gün,
Ay qızım, nigaran qoymusan bizi.
Sən gözəl Bakını yuxuda gördün,
Yoxsa həbs olunan ana Təbrizi?!

Gözü qamaşdırır dişinin ağı
Yanağın Şirvanın ağ pambığıdır.
Araz qundağının qırmızı bağı,
Göygöl bələyinin göz muncuğudur.

İki vətən olub bir xalqımızdan,
İki sərhəd olub vətənə bir çay.
Elə gülməlisən, danışmalısan –
Nə o tay incisin, nə də ki bu tay.

Mən bir güllə idim, tüfəngə doldum
Hədəfə dəymədim – çıxdım hədəfdən.
Arazın içində bir ada oldum,
Nə o tərəfdənəm, nə bu tərəfdən.

Boy at, körpə balam, qovuş vətənə,
Ömrünü o taya, bu taya bağla.
Qızım, nə versələr bu tayda sənə,
Götür, o tayın da payını saxla!

Qızım, mühəndis ol – su mühəndisi,
Dünya çaylarını Araza içirt.
Yaxşı seç dünyada yaxşını, pisi
Arazı Culfadan, Salyandan deyil,
Arazı Zəncandan, Qəzvindən keçirt.

Ortadan açılmış kitab kimidir,
Baxır Astaralar sərhəd tirinə.
Söykənir Culfalar sərhəd tirinə
Mənim qollarımı iynə-sap edin,

Tikin Astaranı biri-birinə.
Çayları, yolları iynə-sap edin
Tikin Culfaları biri-birinə.

Sabah sən vətənə getmək istəsən,
Gərək nə icazə, nə izn olsun!
Xalqın birləşməsi elə indidən,
Qızım, qoy gəlinlik cehizin olsun!

## "TƏBRİZ KÜÇƏSİ"NDƏ BİR OĞLAN YAŞAR

Burda bir adam var – dağa bənzəyir,
Sağ yanı quzeydir, sol yanı güney.
Burda bir cavan var – həsrətdən zəif,
Üzündə təbəssüm, gözündə giley.

Fikrinin səf çəkmiş ordularında
Sarsılan ümidlər onu tez yorur.
Əsgərin döyüşkən arzularında
Boş qalmış səngərlər üz-üzə durur.

Burda bir xəritə qoyulub satdıq,
Burda bir əsgər var – sırada artıq,
Burda bir güllə var – yastığı səngər,
O güllə düşməyir heç bir tüfəngə.

Burda bir şəkil var – kimin şəklidir?
Məsum arzuları qalıb bələkli,
Hamı bir vətənli, bir ürəklidir,
O, iki vətənli, iki ürəkli!

Bəlkə də çatmışdır bir ömrün sonu,
Yox, o qalmayacaq adsız, gümansız.
Zaman tufanlarda doğmuşdur onu –
Yaşaya bilməyir o da tufansız...



## MƏNİM HƏQİQƏTİM

Mənim həqiqətim, yalan-palana
Heç yerdə, heç zaman əl çalmayasan!
"Ye-iç" məclisində şirin sözlərə,
"Yüksək" nemətlərə alçalmayasan!

Mən səni deyirəm! Günüm qaralır,
Vəzifəm kiçilir, evim daralır,
Balanın donuna yamaqlar düşür,
Nadanlar dalımca deyir, gülüşür,
Böhtan doluları yağır başıma,
Vicdanım sığınır mənə – ağlayır.
Kütlük, eybəcərlik, laqeydlik gülür,
Əyrilik, tənbəllik, acizlik gülür.
Həqiqət vuruşur, məni çağırır,
Qopur cüssəmizdən qanlı qəlpələr.
(Böyük adamları həqiqət qırır,
Kiçik adamları müharibələr).
Mən səni deyirəm, bilmirəm nə var,
Mənə diş ağardır böyük ağalar.
Gözümün içinə gözlər bərəlir,
Özüm də duyuram: ömrüm gödəlir.
Sənə güvənirəm, səni deyirəm,
Bir şərəf duyuram sadəliyimdə,
Bir qüvvət tapıram kasıblığımda,
Bir cüt günəş yanır bəbəklərimdə.

## QOCA

Ərbabın evinin yaxınlığında
Çəliyə söykənib bir qoca durub.
Yolçu şikəst olub qoca yaşında,
Onu iztirablar, əzablar yorub.

Bir dəmir qutunu taqqıldadaraq –
Keçənlər pul verir qoca əlilə.

Qocada elə bir güc də qalmamış
Verilən pullara gülə, əyilə.

Qar kimi saçları yan daranıbdır,
Çapılıb qırışıq alnı ortadan.
Heç nəyi, heç kəsi o saymayaraq,
Bir nəğmə oxuyur qoca astadan:

"Bir qızım var idi gözəl, mehriban,
O, başqa bir evin çırağı oldu.
Bir oğlum var idi: igid, qəhrəman,
O öz məramının dustağı oldu...

Evim qarət oldu, məsləkim qarət,
Qaldı təkcə mənə başı ucalıq.
Sallanır ağarmış kirpiklərimdən
Hələ qocalmamış qəmli qocalıq."

Həzin bir sədayla səslənir nəğmə,
Keçənlər pul verir qoca əlilə.
Qocada elə bir güc də qalmamış –
Verilən pullara gülə, əyilə.

## KAMANÇADA ŞÜŞTƏR

Bacım, pozma dincliyimi,
Üç gecədir yatmamışam.
İyirmi il hicrandayam,
Öz sevgimə çatmamışam.

Çəkmə, dizim daşa dəydi,
Tikan batdı ayağıma.
Top səsindən kar olmuşam,
Ağzını tut qulağıma...

Yandım, yandım – külə döndüm,
Aç üstümə şəhpərini.
Sevdim, ancaq gözü yolda
Qoydum gözəl bir pərini.



Göylər yandı – xal-xal oldu,
Könlüm yandı – bihad oldu,
Görüş mənə mahal oldu
Şüştər bacım, Şüştər balam!

Gözünü silim sənin,
Qəlbim oldu talan-talan.
Ta ağlama, gülən olar,
Şüştər bacım, Şüştər balam!

19

## DİLİM

Millətimin dodaqları
Arasında alov saçan dilim mənim!
Azadlığın bağlı qalmış
Qapısını tay-tay açan dilim mənim!

O qılıncın tiyəsinə,
O laylayın nəğməsinə
Bələklənib gələn – dildir,
Gözün-qaşın, dilsiz daşın,
Öz dilini bilən – dildir.

Mənə vuruş sənətini
Öyrətmişdir o hər zaman! –
Füzulinin, Səttarxanın
Ağzındakı dilə qurban,
Şerindəki dilə qurban.

O susarkən – ayaqlanıb,
O vuruşub pardaqlanıb.
Öz döyüşkən qüruruyla
Əbədiyyət olub dilim!
Qılıncların qəlpəsindən
Döş nişanı alıb dilim.

Ver dilimi, al canımı!
Mən ölmərəm – dilim olsa,
Çünki tarix yazmamışdır
Ölüm adlı söz dilimə,
Öz anamı, övladımı
Qurban verrəm öz dilimə.
Ver dilimi! Al gözümü,
Mən görərəm – dilim olsa.
Ver dilimi, al canımı,
Mən ölmərəm dilim olsa.

Mən yenə də öz dilimdə danışıram,
Ancaq dilim qadağandır, bilin, mənim.
Ağzımdakı halqa-halqa
Zəncirlərdir şaqqıldayan –
Dəmir olub, zəncir olub, dilim mənim!

## QUŞ

Bir quş qondu çiynim üstə
Yuva saldı quş özünə,
Mən özüm də bir quş oldum –
Baxdım onun qaş-gözünə.

Kim uçurub səni, quşum,
Uzaq saldı öz yuvandan?
Qanadından sallanıbdır
Bir qurğuşun,
Bir laxta qan.

Şüşə gözlər mərci-mərci,
Düymə-düymə.
Baxdı mənə o qəhr etdi,
Qanadını sinəm üstə
Çəkib yenə huşa getdi



Sağal, quşum,
Sağal, quşum,
Gözlərinin güzgüsüylə
Bax qəlbimin güzgüsünə...
Özüm yuva axtarırdım,
Yuva oldum özgəsinə.

## TƏNƏK

Bir quş yuva tikir arakəsmədə,
O da öz işində, qurğusundadır.
Tənəyi qaldırdım gördüm kölgədə
Salxımlar mirvari yuxusundadır.

Şanı öz fəslini vurubdur başa –
Qarışqa daşıyır yarpaqlarını.
Tənək dirsəklənib çopur bir daşa,
Qumluğa uzadıb ayaqlarını.

Bağda bircə salxım üzümlə doydum,
Doymadım tənəyin gözəlliyindən.
Bir gilə şanını ağzıma qoydum –
Üzümü turşutdum şirinliyindən.

Quşlar dəstə ilə bağa dolubdur,
Bürüyüb quşları üzüm yanğısı.
Abşeron bir yaşıl gəlin olubdur,
Üzüm salxımları boyunbağısı.

Ən şirin nemətdir dünyada üzüm,
Qayanı yarıram, – üzüm əkirəm.
Yorğansız yatsam da bu gecə özüm,
Körpə tənəklərin üstünə bir-bir
Ulduzlu buluddan yorğan çəkirəm.

## DAĞLARIN QOYNUNDA

Dağlara bir ovuc külək gətirdim,
Əmdim al günəşi dağ laləsindən.
Dağların əlilə badə götürdüm
Yaşıl dərələrin piyaləsində.

Ayağım altından bulud sürüşür,
Qorxudan titrəyir əlim, ayağım.
Aşağı baxıram – ürəyim düşür,
Yuxarı baxıram – düşür papağım.

Gün vurur – qayadan lay-lay buz axır,
Sanki varaqlanır qışın kitabı.
Təbiət burada bir ev tikibdir,
Buzdan şüşə salıb, buluddan qapı.

Çay kirpik tutmuşdur burada qardan,
Buz gölün üstündə qaymaqlanıbdır.
Qayanın ətəyi salxım buzlardan
İpək bayraq kimi saçaqlanıbdır.

Başını yellədir qarın içində
Buzların gəlini – qış bənövşəsi.
Bir qış aclığıyla şəklimi udur
Buzların sığallı tutqun şüşəsi.

Sular şırıldayır, oxuyur pəsdən,
Buzdan suyun dili kilidlənibdir.
Qayalar qalanıb bir-biri üstə,
Elə bil kitabdır – cilidlənibdir.

## DƏRƏ

Dərənin içindən külək keçəndə
Ağaclar qayaya, daşa sürtülür,
Köhlən qayaların yellənir yalı,
Göy-məxmər mamırla daşlar örtülüb.



Dağdan yumruq boyda bir daş enəndə,
Sükutu oyadır dərələr – dinir.
Qəhqəhə çəkərək dərə dinəndə,
Yuxudan vüqarlı dağlar diksinir.

Bir azca dərəyə tərəf boylanıb
Sükutu ucadan səsləyir daşlar.
Dərənin ağzında sallaq dayanıb,
Uçmaq xoşbəxtliyi gözləyir daşlar.

Burda yumaq-yumaq olur küləklər,
Sanki nəhəng daşlar dələdir, fildir.
Odlu qılıncını qızıl şimşəklər
Bu qara daşlara çəkib itildir.

Elə ki uzaqda günəş batır,
Dağlar bir-birilə qol-qola çatır.
Mürgü vura-vura
Dağlar dərənin,
Dərələr dağların qoynunda yatır.

## KÜR

Sinəsində toy çalınır,
Qabağında bənd salınır,
Damarından qan alınır,
Hapı-gopu yatır Kürün.

Saçlarında dəmir daraq,
Üzü gül-gül, düzü bağ-bağ,
Gülümsəyir uşaq-uşaq
Yanaqları batır Kürün.

İçib çölün alovunu,
Udub balın tilovunu,
Mingəçevir çilovunu
Neçə yerdən dartır Kürün.

Boz kəmərli kəhər atlı
Qız qaçırır Araz adlı,
Öpüşü bal – suyu dadlı,
Şirinliyi artır Kürün.

## ANAMI KÖNLÜM İSTƏYİR

Bayram gəlir
Gey yumşaq məslərini ayağına,
Gəl Arazın qırağına, –
Görüşək biz, öpüşək biz ana-bala.
Çay üstündə ağ buludlar
Sallanmışdır tala-tala.
Zanbaqların zəng səsləri kəpənəyə
Rəqs havası çala-çala
Gəl görüşək ana-bala
Qoymasalar – sən yalvarma,
Gəl Vyetnamda biz görüşək,
Gəl Almanda biz görüşək,
Bizim sərxoş ağaların
Ürəyi dar, gözü dardır,
Ancaq yadda, əcnəbidə insaf vardır.
Buludların dəsmalıyla
Sil gözündə düyünlənmiş soyuq çəni,
Aç – əlində gətirdiyin düyünçəni,
Soyumasın plov payım, görüş payım,
Bir kömək et, ana çayım, ata çayım,
Soyumasın görüş payım.

Göz yaşının giləsindən qovurdunmu
Qışın buğda qorğasını?
Ayrılığın güllərindən bişirdinmi
Bu il payız dovğasını?

Çək yumuşaq məslərini ayağına,
Gəl Arazın qırağına.
Qoymasalar – sən yalvarma,
Buludların dəsmalıyla



Sil gözündə düyünlənmiş soyuq çəni,
Gəl Vyetnamda biz görüşək
Gəl Almanda biz görüşək,
Bizim sərxoş ağaların
Ürəyi dar, gözü dardır.
Ancaq yadda, əcnəbidə insaf vardır.

## YUXU

Bu gecə yuxuda
Anamı görmüşəm,
Üzündən öpmüşəm,
Gözündən öpmüşəm,
Nə yaxşı yuxu var,
Çin olsun yuxular.
Nə yaxşı sərhədlər,
Nə yaxşı qanunlar
Yuxuya girməyib.
Yatıram, yuxuda
Keçirəm o taya,
O tayda olanda
Yuxumu bu taydan görürəm,
Bu tayda olanda
Yuxumu o taydan görürəm.

Bu gecə yuxuda anamı görmüşəm
Üzündən öpmüşəm,
Gözündən öpmüşəm.
Baş qoyub dizinə –
Baxmışam həsrətlə
Qızaran gözünə.
Gözündə yaşaran baxışlar,
Üzündə hicrandan naxışlar,
Kirpiyi ucunda
Yağmamış yağışlar.
Bu gecə yuxuda

Anamı görmüşəm,
Sevincək olmuşam.
Başımda ağ tüklər qaralıb,
Dağ boyda qəmimin
Üstünü qar alıb.
Hamıya, hamıya
Mən güzəşt edirəm,
Küsülü dostların
Evinə gedirəm,
Qızarıb yuxumun gözləri,
Saralıb yuxumun sifəti,
Çoxalıb qəlbimin,
Qolumun qüvvəti.

## MƏKTUB

Mənim məktublarım saralıb solub,
Sənin qara çantan məktubla dolub.
Bizim yerimizə – indi danışan
İki səhifəlik məktublar olub.

Mən o məktubları göndərməmişdim –
Soyuq öpüşlərdən pörtmüş üzünə
Onları bir təzə yelpic edəsən,
Üzümü mən elə döndərməmişdim –
Məni tənha qoyub məktublar ilə
Tənha görüşlərə mənsiz gedəsən.

Məktub yazmamışdım hər gün açaraq
Onu oxuyasan qonaqlarına,
Titrək əllərimlə bükülən varaq
Açılıb səpilə otaqlarına.

Gözümü yaş tutub qüssə saranda
Həyatım görünür bir içim kimi.
Bir sevgi göynəyir mənim yaramda,
Bir məktub – yaralı göyərçin kimi
Çırpınır səninlə mənim aramda.



## GÖZLƏYİRƏM

Xəlvət yer olsaydı mən ağlayardım –
Özüm öz bəxtimi qucaqlayardım,
Heç kəsi görmədən, sevindirmədən
Doyunca, doyunca mən ağlayardım,
Nakam arzuları qucaqlayardım.

Ürəyim ikidir,
Yolumsa birdir.
Hicranla vüsalın arasındakı
Tikanlı yollarım ləpir-ləpirdir.
Son görüş yerində belə peşiman
Nə qədər büzüşüb tənha oturum?
Soyumuş bir eşqə necə od vurum?

Kölgələr rəqs edir pörtmüş üzümdə,
Addımlar qarışıb ötür gözümdə,
Səni yarpaqların yağarı altda
Mən həm gözləyirəm,
Həm gözləmirəm.
Xoşbəxtlik vardırsa, o gələcəkdir
Mən həm gözləyirəm!
Həm gözləmirəm!

## ŞƏKLİMİ QAYTAR

Bir zaman üzündən təbəssüm yağan
Əl boyda bir şəkil vermişdim sənə,
Vüsalla hicranın dodaqlarından
Qopan bir ötəri söz verdin mənə.

Söz verdin: görüşək, görüşək hər gün
Vüsalla hicranın arasında biz.
Dedin: taleyimiz ayrı olsa da,
Yenə bir vuracaq ürəklərimiz.

Gülüm, nə oldu bəs dediyin sözlər,
Kimə görüş verir o qara gözlər?
Məni unutmusan neçə vaxt olar,
Sevgimi saxla,
Şəklimi qaytar.

Hər gözdə bir məna, bir söz oxunur,
Büzülən dodaqlar mənə toxunur,
Görürəm uzaqdan, gülüm, çoxunu
Bir məxmər albomun varaqlarında.
Niyə şəkilləşib qalım intizar? –
Şəklimi qaytar.

O şəklin önündə dayan bir anlıq,
Çıxmışam sifətdən, şəkildən artıq,
Qüssənin yanında üzüm kölgəli,
Yolları axtaran gözüm kölgəli.
Alnımın üstünə qalanıb qubar,
Sevgilim, sevgimi, şəklimi qaytar!..

## GETDİ

Könül, öz meylini saxla bir anlıq,
Yollarım yollara qovuşdu getdi.
Elə gözlərimi tutdu cavanlıq,
Xoşbəxtlik yanımdan sovuşdu getdi.

Bir yol güllə atdım, özüm yıxıldım,
Ovcumun içindən ov uçdu getdi.
Bir vəhşi marala mən yovuşmadım,
O, bir yovuşmaza yovuşdu getdi...

## OLMADI

Başını aşağı dikmisən, ay qız,
Daha söz deməyə lüzum olmadı.
Sən elə utandın, elə utandın –
Üzünə baxmağa üzüm olmadı.



Bir arxada qoyduq çölü, çəməni,
Güldü üzümüzə ömrün gülşəni,
Sən elə yandırdın özündə məni,
Tüstüm, külüm oldu – gözüm olmadı.

Mən bir qartal idim, məni uçurtdun,
Ardınca gəzdirib sonra unutdun,
İlk gündən gözümü sən elə tutdun –
Ta gözəl görməyə gözüm olmadı.

Bir ağ göyərçin var hündür qayada –
Qovuram mən onu atlı, piyada,
Hər şey bizim oldu, Tahir, dünyada,
Ancaq dünya özü bizim olmadı...

* * *

Mən kiməm, sən kimsən, kimə nə dəxli!
Kim bilir sevməkdə kim idi haqlı?
Gəlişim vaxtlıydı, gedişim vaxtlı,
Kirpiksiz ayrılıq keçir yanımdan,
Bilmirəm o burda kimin tayıdır.
Çopur gülüşlərlə uğunub hər gün,
Mən gələn yolları gedib qayıdır.

Kiçik xoşbəxtliyə insan uyarmış,
İnsandan xoşbəxtlik necə doyarmış,
Sevgi də sevəni yetim qoyarmış.

Sevdin başqasına danışmaq üçün,
Küsdün – mey-məzəylə barışmaq üçün.
Soyudun – təzədən alışmaq üçün,
Kimə lazım imiş görən bu yalan?
Hələ özümüzü xoşbəxt sayırdıq,
Axı biz kiminsə sahibsiz qalan
Xoşbəxtlik payını "oğurlayırdıq".

Alnını söykəmə daha şüşəyə,
Gözləmə sən məni – gözün üşüyər,
Mən öz ürəyimi cilovlamışam,
Ürəyim sinəmdə çapar, tövşüyər...

## BOŞ YER

Şirin gülüşünü gördüm o zaman,
Səni taleyimin yiyəsi etdim.
Hər yerə səninlə, sənin adından,
Mən sənin arzunla qol-qola getdim.

Yanımda boş yer var – sənin yerindir,
Yanımda boş yer var – sənsən o boş yer.
Qızlar mənə qarşı bir az sərindir,
A boş yer, qızlara özün cavab ver!

Məni tərk etməyir arzu bir an da,
Sevgidə mənimki belə gətirdi.
Arzuya çevirib səni tapanda,
Sevgiyə çevirib səni itirdim.

Yanımca gedirsən, gəlirsən hər gün
Arzusan – boş yersən, nəsən, ay insan!
Yanımdan keçəndə, bilirəm bir gün
Sən görüb özünü tanıyacaqsan.

## CƏLİL MƏMMƏDQULUZADƏ

Bu təzə baharın səsini dinlə,
Mirzə, yüz yaşadın, yüz yaşa doldun.
Sən öz məcmuənlə, öz mühitinlə
Sabir dühasının beşiyi oldun.

Milləti imzasız, adsız görəndə
Hadi qüssələndi, göz yaşı tökdü.



Sən isə boş qalmış imza yerində
Böyük bir millətin qolunu çəkdin.

Ətri sifətimə çırpılır yazın,
Neçə ölü gördüm burda diridir.
Dedim yubileyinə bir təbrik yazım –
Gördüm Novruzəli poçt müdiridir.

Dirilik yaratdı "Ölülər" məndə,
Ağlayır çoxları ölü görəndə,
Mənsə "ölülərə güldüm" o ki var.
Həqiqət şərabı içdi İsgəndər,
Ancaq sərxoş oldu tamaşaçılar.

Bir nadan gülməyə qoyub dünyanı,
Təkcə öz-özünə gülə bilməyir.
Elə öldürmüsən Şeyx Nəsrullanı
O ölmək istəyir – ölə bilməyir!

Bu təzə baharın tutub əlindən,
Köhnə bayquşları susduracağam.
Çal, Baxşı, zabulu təzə kökdə sən –
Diri ölüləri basdıracağam.

Dəli-dülülərin qızışıb bəhsi,
Əhsən o ağıllı dəlilərinə!
"Anamın kitabı" dirilik dərsi
Verdi yer üzünün ölülərinə.

Sənsizlik çəkirik, Mirzə, haçandır,
Müdrik gülüş olub dol gözümüzə.
Ağlamaq – ağlatmaq yolu asandır,
Gəl öyrət mənalı gülməyi bizə.

Mənim qulağıma səs gəlir haqdan,
Sənin yubleyinə salonlar dardır.
Gülür "Molla əmi" mənə uzaqdan –
Görünür, şerimin nöqsanı vardır.

## QORKİ

Bir yol doğulmuşdur hamı həyatda,
Məni ikinci yol bir "Ana" doğdu.
Sənin özünüsə Rusiya adda
İnqilab yaratdı, fırtına doğdu.

Anan cavan öldü, oğlundan uzaq,
Dözmədin, anasız yaşamadın sən,
Böyük qanunları tapdayaraq
Doğdun öz "Ana"nı özün yenidən.

Çiyninin üstündə daşıdıqca sən
Böyük Rusiyanın əzab yükünü –
Yox, uşaqlığını yaşamadın sən
Yaşadın Vətənin böyüklüyünü.

Mənə nağıl deyir "İzergil qarı",
Dahilik arzumun yuxusu gəlir.
Səni oxuyanda sinəm qabarır,
Burnuma dənizin qoxusu gəlir.

Vətənin yüksəlir, nura boyanır,
Təzə yer salınır yerin üstündə.
Dankonun ürəyi sönməyib, yanır
Volqanın, İrtışın, Kürün üstündə.

Ölümdə yaşamaq eşqi oyadan
Sənin "Həyat" qızın təzə gəlindir.
Ağ xalat geyərək o, qapılardan
Vaxtsız ölümləri qaytarır indi.

"Sarı iblis" ilə xalqın vuruşu
Səslənir qələbə təbillərində.
Sənin uçurtduğun "Fırtına quşu"
Gəzir Amerika sahillərində.



Fırtına qopartdın – əsdi tufanlar.
Buludlar dənizə çöküb boğuldu.
Qələmə aldığın yaxşı adamlar
Həyatda neçə il sonra doğuldu...

## ƏGƏR MÜŞFİQ SAĞ OLSAYDI

Nədən qorxaq istedadlar
Dahi olmur?!
Nədən cəsur istedadlar
Yaşa dolmur?!
Ağır olur zəiflərin
Güclülərdən intiqamı?
Ağır olur çox fərqlənən
İstedadın sərəncamı?

İndi mənə icazə ver,
Əcəliylə ölüb gedən
Şairlərin ilhamına
Şübhə edim.
İcazə ver, bundan sonra
Həqiqətə şübhə etmək
Adətini tövbə edim.

Daha şübhə etməyirəm:
Əgər Müşfiq sağ olsaydı,
Qırx altıda basılmazdım,
Öz kədərli tariximlə
Ürəklərdən qəndil kimi
Asılmazdım.
Əgər Müşfiq sağ olsaydı,
Millətlərin
Fəryadını BMT-nin
Qulağına
Yeritmişdi.
Həm o tayı, həm bu tayı
Fəth etmişdi.

Əgər Müşfiq sağ olsaydı,
Araz indi nəzilmişdi –
Tük olmuşdu,
Sərhədlərin ağırlığı
laqeydlərin vicdanına
Yük olmuşdu.
Əgər Müşfiq sağ olsaydı,
İki ilə qurtarardı
Dörd il çəkən müharibə.
Əgər Müşfiq sağ olsaydı,
İndi Təbriz
Müstəmləkə sayılmazdı.
Əgər Müşfiq sağ olsaydı,
Şair kimi sən olmazdın,
Mən olmazdım.

Əgər Müşfiq sağ olsaydı,
Dağıtmışdı dodaqlarda
Yelləncəkli qıfılları.
Əgər Müşfiq sağ olsaydı
Rədd etmişdi
Gözümüzə pərdə çəkən
Qəhrəmansız nağılları!

Müşfiq gördü –
Bir günəşin bağrındakı
Mərcilənmiş ləkələri.
Tapdaladı
Əsrimizin yollarında
Gah uzanan, gah qısalan
O sürüşkən kölgələri!..

Əgər Müşfiq sağ deyilsə,
Şerimizin tunc addımı
Bəs nədəndir?!
Əgər Müşfiq sağ deyilsə,
Dənizlərin təlatümü
Bəs nədəndir?



Əgər Müşfiq sağ deyilsə,
Qəhrəmanlıq təcəssümü,
Fikrimizin üfüqləri
Arxasından
Gələcəyin təbəssümü
Bəs nədəndir?!

## SƏNƏ

Sənə meşələrdən yaşıl xışıltı,
Sənə dənizlərdən sərin mavilik,
Sıçram ləpələrdən dərin baxışlar,
Sənə ulduzlardan qızıl yağışlar
Gətirmişəm mən.

Bu gün qayıtmışam uzaq səfərdən,
Bir qurtum işıq var dodaqlarımda,
Mən onu əmmişəm
Qızıl səhərdən.
Sənə qürbət eldən vətən həsrəti,
Sənə yüz əlli il ayrılığımdan
Sabir məhəbbəti
Gətirmişəm mən.

Yatır zirvələrdə qranit qaya,
Var onun bir ovuc torpaq balıncı,
Qayalar sallanıb yaşıl dərəyə,
Kolluqlar - çiynində yaşıl yapıncı
Sənə qollarımın damarlarında
Yapıncı istisi
Gətirmişəm mən.
Sənə bulaqlardan su titrəyişi.
Bənövşə əsdisi
Gətirmişəm mən.
Sən belə demişdin,
Elə də oldu.

Ta mənə iztirab verməyəcəksən,
Ta məndən soyuqluq görməyəcəksən.

Nə qədər xoşbəxtlik indi həyatda,
Göygöl
Güzgüsünü gözümdən asıb.
Ayrılıq adası qaldı su altda,
Onu sevgimizin dənizi basıb.

## YAŞINI GİZLƏTMƏ

Yaşını azaldır bəzi adamlar,
Yaşı azaltmaqla ömrün çoxalmaz.
Yaşını çoxaldır bəzi adamlar
Hər çox yaşayan da ağsaqqal olmaz.

Yaşını gizlədir bəzi adamlar –
Bəlkə qocalığın hörməti yoxdur?
Yaşını gizlədir bəzi adamlar
Yox, yaşın bir kəsə minnəti yoxdur.

Bəli, sürət əsri bizə deyib ki,
Sən özün özündən gizlət yaşını.
Saçın ağararsa da, gizlət onu da
Dərmanla, davayla boya başını.

Həyat unutmuşdur öləndən sonra
Mənasız yaşayıb kef sürənləri.
O razı salmayıb, razı salmayıb
Burda çox yaşayıb, az görənləri...

Hər kəs öz yaşını gizlədə bilsə,
Qiymətli keçmişi qiymətdən düşür.
Beləsi məclisdə hörmətə minsə,
Özü öz yanında hörmətdən düşür.



## İNSAF

Vicdanın qohumu, rəhmin qardaşı,
Meyarın ağbirçək anası – insaf.
Gözütox adamın müdrik göz yaşı,
Qorxunun tikili binası – insaf.

Qızına insafla süd pulu istə,
Qoy oğlan meylini yada salmasın.
Qızını elə ver, oğlanlarımız
Otuz yaşınadək subay qalmasın.

İnsafsız deyilən haqq yalan çıxır,
Yalanı insafla demək də olar.
Bunu yavaş deyim, insafsız bilsin,
İnsafı insafla yemək də olar.

Badalaq gələndə, adam yıxanda,
Özgənin malını çapıb tıxanda,
Bir pul xərcləyəndə, bir pul yığanda,
Ay insafsız oğlu, insafın olsun.

Körpəcə uşağı basıb döyəndə,
Özünü məclisdə, toyda öyəndə,
Ərini, qonşunu dalda söyəndə,
Ay insafsız qızı, insafın olsun.

Kim əməl etməyib insaf deyənə
Tökülüb üstünə var ilə dövlət,
İnsafsız insafım lüt qoyub məni,
Yenə də insaflı tamaha rəhmət.

## BACAR ÖLMƏZLİYİ

Yumma gözlərini, gözlə yolumu,
Yolda olacağam ömür boyu mən.
Mənim kədərimin mirvari sapı
Sallansın o qara kirpiklərindən.

Ovcunun içində öpüşüm qaldı,
Gözündə bir dərya həsrətim mənim;
Görünür, qismətin yarımçığıdır
Bu böyük dünyada qismətim mənim.

Köhnə ipək kimi süzülmə daha,
Ölüm qorxusunu çəkmə qoynuna.
Yanğı baxışımdan atlas don geyin,
İpək nəvazişlər biçim boyuna.

Bacar ölməzliyi, bacar ölməyi,
Hamıdan bir kişi sevgisi umma.
Həsrətim gözünə yuva salıbdır,
Mən sənə həsrətəm, gözünü yumma.

## MƏNİM NƏYİM VAR

Bir ovuc gülüş ver mənə, məst olum,
İçim qıfıllanmış dodaqlarından.
Üzündə utancaq bir gül qızarsın, –
Dərim bir öpüşlə yanaqlarından.

Gəl, qoşa piyalə – çini südünü
Çırpım ürəyimin şüşə daşına.
Gətir gəncliyinin məsum odunu,
Südlü nəfəsində çəkim başıma.

Bir vədə ver mənə, qalım intizar
Onu cehiz edib gəlim toyuna
Bəs mənim nəyim var? Bir cüt qolum var
Al, sən də onları dola boynuna.

## HARDA OLACAQSAN

– Hardaydın, əzizim,
Bu günə qədər?
– Harda, sevgilimin yuxularında...
– Harda olacaqsan,



Gülüm, bu səfər?
– İntizar ömrümün axırlarında...

Bir öpüş dadmışam qara qaşından,
Vəsl evi tikmişəm hicran daşından,
Gəlin öpüşündə üzərrik iyi,
Toybəyi qoymuşam çöldə təkliyi,
Yığıb uçurmuşam "Yox" bəndlərini.
Ömrümdə ilk dəfə birləşdirmişəm
Sevgiylə hicranın sərhədlərini.

## SƏN QAYIT EVƏ

O gəlir bir az da vaxtından qabaq,
Süzgün baxışında bir qız gileyi.
Ağaclar, yarpaqlar əyinlərinə
Bir qız gileyindən təbəssüm geyir.

Ah, mənim kədərim, yazıq kədərim,
İndi qayıt evə, darıxma ancaq.
Bilirəm, sənə də ağırdır yaman
İkili taledə birüzlü olmaq.

Bəlkə də barışdıq, nə bilmək olar?
Bəlkə də batacaq bu dorsuz qayıq.
Neçə il olar ki, tanışıq yenə
Küsüylə barışıq arasındayıq.

Bir uşaq sevinci göyərir məndə,
Sevgilə sevincim dodaqlaşırlar.
Sevgi dünyasında görmüşəm özüm
Böyüklər daha çox uşaqlaşırlar.

Taleyim ikidir, sevgilimsə bir,
Ürəyim dünyada bir ürək sevər.
Ay mənim kədərim, əbədi peykim,
Sevincim gəlmişdir, sən qayıt evə.

## NƏ YAXŞI SƏN VARSAN

Arzu küçəsində, istək bağında
Sevgi nəğməsindən bir ev hörmüşəm.
Dönük ayrılığın, xoşbəxt çağımda
Mərmər sarayını burdan görmüşəm.

Heç kəs qınamasın bu sevgimizi,
Böhtanlar salmasın bu eşqi dilə.
Tale birləşdirə bilsəydi bizi,
Sən elə olmazdın, mən isə belə.

Qorxmadan yanımca addımla, yeri,
De görüm, ilk eşqin itib hayanda?
Qismət də hökmünü əksinə verir,
İnsan qismətini yaşamayanda.

Gəl deyək, hər sözün deyək, düzünü,
Bilirəm, kiməsə qan uddurursan.
Nə yaxşı, unudub sən də özünü,
Mənə təkliyimi unutdurursan.

## AĞ GƏMİ

Köçdü bir ağ gəmi ömrümdən dünən,
Qaldı xatirimdə burulqanları.
Yüyürdüm ardınca neçə ağac mən,
Düz çıxdı şübhəmin ağ yalanları.

Bir boşluq uğuldar qanlı yaramda,
Səslənər sehrli nağıllar kimi.
Ağ gəmi onunla mənim aramda
Uzanar, uzanar ağ yollar kimi.

Tək qaldım tənhalıq vüqarımla mən,
Qəmli nəğmələrim cilidlənmədi.



O elə dedi ki, ayrılacağıq,
Ümidsiz sevgisi ümidlənmədi.

Döndü ağ gəmiyə sevgimiz bizim,
Köçüb xəyalıma o gəmi indi.
Mənim xəyalıma girmə, əzizim,
Xəyalım dənizdən daha dərindir.

## GERİ DÖNMƏDİ

Dəniz çıraq-çıraq gözünü qırpır,
Yağdırır mirvari qəlpələrini.
Külək uğultuyla qayaya çırpır
Dənizin məst olmuş ləpələrini.

Necə də gülüncdür dənizdə yağış, –
Damcılar dənizi isladır, nədir?
Kağızdan düzəldib yola salınmış
Ümid gəmilərim geri dönmədi.

Yönü hayanadır bu karvan – köçün?
Quzu ləpələri tumarlayıram.
Mən onu, sularda axtarmaq üçün
Sinəmlə dənizi hamarlayıram.

Getdi dəniz eşqim, ilk məhəbbətim,
Pozuldu arzumun sırası, səfi.
Qaldı qum kağızım, kirpik qələmim,
Bir də qayalardan bir kitab rəfi.

## ANAM GƏLİR

Bir gəmi ağarır qara baxtımda,
Həsrət limanına yan alır gəmi.
Necə yazıqlaşıb, necə qocalıb
Anamın üzündə ana görkəmi.

Bir səs bürüdükcə kiçik buxtanı,
Həsrətim gəmirir ipi, taxtanı,
Anam oturubdur şüşə dalında,
Qırışlar, əzablar dastan oxuyur
Anamın qırışmış yastı alnında!

Mənim pələng anam, mənim nər anam...
Anam şüşələri cırmaqlayırdı,
Anamın gözləri qanla dolmuşdu,
Dəmirlər kövrəlib, Pas ağlayırdı.

Ana, ana, dedim, səsim qırıldı.
Oğul, oğul, dedi bir ovuc sümük.
Bir torba sümüyü qucaqladım mən,
Buludlar gözünü ağartdı mənə
Bütün buludları ayaqladım mən.
Bir zəif vücudu ana adına
Öpüb nəvazişə qucaqladım mən.

## ANA ÖPÜŞÜ

Bu gün qabağına qardaşın çıxıb,
Sirrin açarıdır onun əlləri
Qatıb qabağına töhfə gətirib
Bir əsr yarımlıq sənsiz illəri.

Ey külək, çırpınma, ey tufan, əsmə,
Onsuz da anamdan bir nəfəs qalıb.
Ey şıltaq ləpələr, yolunu kəsmə,
Hicran yollarında anam qocalıb.

Həsrət dənizində döndüm qalaya,
Görüş ümidimin odu sönmədi,
Necə həsrət gəmimi getdi o taya,
Bir görüş gəmim də geri dönmədi.



Gəl, ana, göyərmiş dodaqlarımla,
Öpüm o ağarmış kirpiklərini,
Ata nəvazişim isitsin, ana,
Zülmdən əyri bitən sümüklərini.

Bir xilqət görmədim, ana dözümdə,
Gözüm bir analıq südə boyandı.
Heç öpüş görməyən kişi üzümdə
Anasız öpüşlər alışıb yandı.

Mənə neçə qadın analıq etdi,
Heç biri olmadı anam dözümdə.
Anamın südünün iyi yox idi
Onların dediyi "oğul" sözündə.

Mənə neçə qadın analıq etdi,
Dözdülər anasız məhəbbətimə.
Mən isə dözmədim ana adıyla
Onların ögeylik sədaqətinə.

## MƏNDƏRİCAT


*Azadlığa içilən and* ....4

Vətən ....9
Gələcəyəm mən ....10
Mən od oğlu Azəriyəm ....12
Qardaşım! ....12
Əl saxla ....13
Cavab versin tarix mənə ....14
Zirvələr ....15
Əlini ver mənə ....16
Səsləyirəm səni ana ....17
Qanlı dərs ....18
Mənim ....19
Ey Şərq ....19
Saz ....20
Şikəst ....21
İnsanlar ....22
Göygöl ....22
Nizaminin qəbri üstə ....23
Qələm yoldaşıma ....24
Sular rəssamı ....25
Tehranda ....25
Övlad həsrəti ....26
Biz yenə susuruq ....27
Qorxma, gülüm ....28
Ayrılıq ....28
Get, nə olar... ....29
Mən gördüm ....30
Döyüş lövhələri ....32
Məmləkətim ....34
Xalqım ....34
Bir ovuc torpaq ....35
Mənim anam ....37
Səni çağırıram ....38
Şəhərin cənub məhəlləsində ....39
Avropadan qayıdanda ....39
Məhbus yazıçı ....41
Birlik ....42





Ölənə qədər ....42
Bəhanə ....43
Mənə minnət vurma ....44
Sən getdin ....44
Kömək elə ....45
Haqlı deyiləm ....46
Yalan ....47
Ürək ....47
Öyrət mənə ....48
Öləndə ....49
Novxanıdadır ....50
Ömür atıma ....50
Tələsdir məni ....51
Tənqid ....52
Qarabağ ....53
Gördüm burada ....54
Ayrılıq ....56
Qayıdaram ....57
Gülüşün sənin ....58
Savalan ....59
Şah gölü ....60
Ərdəbil ....61
Təbrizim ....62
Ərk qalası ....63
Mərənd ....64
Yandım, yandım ....64
Ölümdən bir gün qabaq ....66
Şairi öldürdülər ....67
Bayram ....68
Təbrizdə ....69
Dənizdə ....69
Üç kəlmə ....70
Anam mənim ....72
Kür qırağı ....73
Payız yarpaqları ....73
Payız yola düşür ....74
Dəyər ....75
Durna qatarı ....76
Mənzərə ....76
Dərə qırağında ....77

Dağ çayı .78
Qaya .78
Zirvədə .79
Dağ yolu .80
Çayın şırıltısı .80
Boş qalmış qəbir .81
Anam .82
Səhvim .83
İki taleyim .84
Tərif .85
Çay daşları .86
Şöhrət .86
Şüşə .87
Lövhə .88
Yarımçıq qalmış məktublar .88
Gəmi boş qalır .89
Nəğmə .90
Vicdan .91
Qardaş .91
Şanlı əsgər .92
Azərbaycan ordusu .93
Çağırış .94
Bura cəbhə xəttidir .94
Hücum .95
Allah, mənə öz gücündən güc ver bir az da .96
Apar bu məktubu anama çatdır .97
Elə .98
Qurbanam .99
Yaxşılıq .99
Sağ ol .100
Salam .102
Mən .103
Qayıtmışam səngərimə .103
Təbrizi gəzirəm .104
Daha .105
Azadlıq .106
Kimə nə etmişəm .107
Zindanda məhbus .108
Ölüm qarşısında .109
Tənhalıq .109





Ağıl .110
Gəncliyim .111
Düşmənsizəm .111
Həqiqət .112
Xalq .113
Yer .114
Sükut etmişəm .114
Ürək .115
Güzəşt .115
Çörək .116
Qobustan qartalı .117
Qardaş torpağında bir əsgər yatır .117
Təbrizli qıza .118
Gəlmədin .119
Uşaq .119
Sumqayıt .120
Sənin heykəlin .121
Bəşərin arzusu .122
Yaralı abidə .123
Oxu .124
Həyat nəğməsi .124
Qıfıl .125
Yarpaqlar .126
Sərhəddə dağ .127
Buludlar .127
Ayna .128
Xaqani .128
Karvan .129
Lermontov Qafqazda .130
Yol ver .131
Bülbül .132
Vətən .132
Qəhrəmanlıq nəğməsi .133
Buludların himni .134
Kobzar .134
Aqdel çayı .135
Baykal .136
Nə görmüşəm hələ mən .137
Mənəm .138
Öz yerimi mən bilirəm .139

Gedək .....140
Vətənimə hədiyyədir .....141
Arazım .....142
Bakı .....143
Borcumu qaytarım .....144
Görəcəksən o tufanı .....145
Bu yerdə .....146
Var .....146
Şəhriyar .....147
Utanmaq .....149
Apar məni .....149
Şuşa gözəli .....150
Tale .....151
Azər inqilabı .....152
Gecə əsnəyirdi .....153
Qapı .....153
Vəzifə .....154
Giley .....155
Taleyimə qurban olum .....156
Mən .....157
Ağıllı .....158
Şəhid .....159
Sən .....160
Vətəni düşünürəm mən .....161
Bəndəm .....162
Qırx il .....163
Dünya .....164
Alışqan .....165
Sənə qurban .....166
Yat, qızım .....167
Birinci .....169
Gözləyirəm .....169
Anamın əlləri .....170
Oldu .....171
Yuxu .....172
Səbr .....173
Qocalıq çağımda .....174
Şübhə .....175
Gitara çalan qız .....176
Yaxın oluruq .....177



Bir vaxt .....178
Qapıya qədər .....179
Yola getmədik .....180
Mən ümid oluram .....181
Sevgi fəsli .....181
Üzük .....182
Qorxma .....182
Qurban olum .....183
Gülüşün sənin .....184
Üz-üzə .....184
Dərə bilmirəm .....185
Gözləmişəm .....185
Solğunum .....186
Kaş ki .....187
Gecə görüşü .....187
Soyuq qız .....188
Var .....189
Xoşluq .....189
Gəlirəm .....190
Mənə .....191
Getdi .....191
Gül .....192
Ümid yaxşıdır .....192
Qismət .....193
Olaydın .....193
Hər gün .....194
Lahıc gözəli .....195
Rəhm .....196
Qoşa gedək .....196
Qonaq et .....197
Düşübsən .....198
Ağlayır .....199
Ar deyil .....199
Gülüm .....200
Görünməyirsən .....201
Yola sal məni .....201
Bu, sevgi deyil .....202
Ayrılaq .....203
Axar su .....203
Qeyrət .....204

Xoş bir əzabla ....... 205
İtmiş şəkil ....... 205
Gözəl ....... 206
Kövrəlib ....... 207
Ver aparım ....... 208
Mənə salam vermə ....... 208
Görüş ....... 209
Sarı güllər ....... 210
Ayrılıq ....... 211
Mən Azərbaycanam ....... 212
Görmüşəm ....... 213
Qarşı ....... 214
Oyandı ....... 215
Salam, ana Vətən! ....... 215
Böyük nənəm Doğdunun ziyarətinə ....... 216
Sarab ....... 217
Səhəndim ....... 218
Gəncə ....... 219
Oxşarlıq ....... 221
Ehtiyat ....... 222
Atamın əli ....... 223
Fərq ....... 223
Daş ürək ....... 224
Sənsiz bağ ....... 225
Bayram ....... 225
Qurban ....... 226
Qonaq olmuşam ....... 227
Bir gün müdrikləşdim ....... 227
Xəbərin olsun ....... 228
Aman, Allah ....... 229
Əgər məni istəyirsən ....... 230
Bağışla ....... 230
Hara belə ....... 231
Vətən ....... 232
Azərbaycan ....... 233
Azərbaycanım ....... 234
Anam Nəsibə – qızım Nəsibə ....... 235
"Təbriz küçəsi"ndə bir oğlan yaşar ....... 236
Mənim həqiqətim ....... 237
Qoca ....... 237



Kamançada şüştər ....... 238
Dilim ....... 239
Quş ....... 240
Tənək ....... 241
Dağların qoynunda ....... 242
Dərə ....... 242
Kür ....... 243
Anamı könlüm istəyir ....... 244
Yuxu ....... 245
Məktub ....... 246
Gözləyirəm ....... 247
Şəklimi qaytar ....... 247
Getdi ....... 248
Olmadı ....... 248
Boş yer ....... 250
Cəlil Məmmədquluzadə ....... 250
Qorki ....... 252
Əgər Müşfiq sağ olsaydı ....... 253
Sənə ....... 255
Yaşını gizlətmə ....... 256
İnsaf ....... 257
Bacar ölməzliyi ....... 257
Mənim nəyim var ....... 258
Harda olacaqsan ....... 258
Sən qayıt evə ....... 259
Nə yaxşı varsan ....... 260
Ağ gəmi ....... 260
Geri dönmədi ....... 261
Anam gəlir ....... 261
Ana öpüşü ....... 262

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 12.08.2004. Çapa imzalanmışdır 17.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 17. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 29.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

310